www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 17-18 iyun 2017-ci il Şənbə № 129 (6743) Qiyməti 60 qəpik

**Xəbər**

## Türkiyədə üzərində canlı bomba jileti olan 3 azərbaycanlı İŞİD-çi tutuldu

yazısı səh.2-də

**Gündəm**

### Hakimiyyətdən Avropa Parlamentinin qətnaməsinə sərt reaksiya



**XİN:** "Cəmi 20 dəqiqəyə yaxın davam edən müzakirələr nəticəsində qəbul edilmiş bu qərəzli və uydurma xarakterli sənəd heç bir hüquqi qüvvəyə malik deyil"

yazısı səh.4-də

### Taleyi qaranlıq olan 4 bank..

yazısı səh.3-də

### Torpaqlarımızın itirilməsinə hakimiyyətsizlik səbəb olub, yoxsa...

yazısı səh.6-da

### Elçibəy 24 il öncə Kələkiyə getməsəydi...

yazısı səh.3-də

### Naxçıvanda Türkiyə hərbi bazasının yaradılması yenidən gündəmdə

yazısı səh.9-da

### Rusiya və Qərbin təzyiqlərindən qurtulmağın tək yolu

yazısı səh.10-da

### Qətərdən sonrakı hədəf... Türkiyədir?

yazısı səh.13-də

### 55 yaşlı ərli qadın WhatsApp-da yazışdığı kişiyə qoşulub Türkiyəyə qaçdı

yazısı səh.14-də

### Amerikanın Tramp travması

yazısı səh.13-də

**Ramazan ayının 22-ci günü**

İftar 20.32. İmsaq 03.10-dək (QMI)

22-ci günün duası: "İlahi, bu gün Öz ehsan və kərəm qapılarını mənim üzümə aç və Öz bərəkətini mənə nazil et! Məni belə bir gündə Sənin razılığın olan əməlləri etməyə müvəffəq et! Məni Öz cənnətinin ən gözəl yerində məskunlaşdır! Ey çarəsizlərin duasını Qəbul Edən!"

İftar duası: "Allahım, Sənin rizan üçün oruc tutdum, Sənə inandım, Sənə güvəndim. Sənin ruzinlə iftar açır və Sənə təvəkkül edirəm. Ey bağışlayan Allah, günahlarımı bağışla".

ALLAH ORUCUNUZU QƏBUL ELƏSİN!

Bu gün 3-cü Qədr gecəsidir.

## İşğalçıya savaş xəbərdarlığı: "Düşmən bilməlidir ki..."

# BAKININ SON MÜHARİBƏ HAZIRLIQLARI - ORDU POLİQONLARA YERİDİLİR

Azərbaycan döyüş şəraitinə yaxınlaşdırılmış hərbi təlimləri intensivləşdirir; Naxçıvandan və Çocuq Mərcanlıdan İrəvana verilən ismarışların açması; **Metyu Brayza:** "Ermənistan işğalçıdır və Azərbaycan torpaqlarını tərk etməlidir..."




yazısı səh.8-də

## Müdafiə Sənayesi Nazirliyinin adı qarışan müdhiş "obnaliçka" əməliyyatının sensasion təfərrüatları

"Yeni Müsavat"ın MSN-dəki nağdlaşdırma haqda 2009-cu ildə yazdıqları "MTN işi"ndə təsdiqləndi

yazısı səh.5-də



*Əli Həsənov:*

**"Azərbaycan güclü iqtisadiyyata, sabitliyə malik, beynəlxalq təşkilatlara inteqrasiya olunmuş bir dövlətdir"**

yazısı səh.2-də



*Elman Məmmədov:*

**"Ayaz Mütəllibovun Xocalını xilas üçün zəruri tədbirlər görə bilməməsi xəyanətdir"**

yazısı səh.12-də



**Rusiya xarici siyasətinin "erkək Tükəzbanı"**

yazısı səh.7-də



# Azərbaycan Dillər Universitetinə publik hüquqi şəxs statusu verilir

**Azərbaycan prezidenti İlham Əliyev Azərbaycan Dillər Universitetinin yenidən təşkili haqqında sərəncam imzalayıb. APA-nın məlumatına görə, Azərbaycan Dillər Universiteti Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində publik hüquqi şəxs statusuna malik olan Azərbaycan Dillər Universitetinə çevrilmə yolu ilə yenidən təşkil edilib.**

Nazirlər Kabinetinə publik hüquqi şəxsin nizamnaməsinin layihəsini və təsisçisinin səlahiyyətlərini həyata keçirənlər barəsində təklifləri iki ay müddətində hazırlayıb Azərbaycan prezidentinə təqdim etmək tapşırılıb.

Publik hüquqi şəxs "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" qanunu ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alındığı gündək, Azərbaycan Dillər Universiteti öz fəaliyyətini davam etdirəcək.

# Akademik borcu olan tələbələrə yeni güzəştlər ediləcək

**"Əvvəlki qaydalardan fərqli olaraq təsdiq olunan yeni dəyişikliklərə əsasən akademik borcu olan tələbələrə hər semestrdə ümumilikdə iki fənn üzrə fənni dinləmədən kreditləri qazanmaq (imtahanda iştirak etmək) imkanı yaradılıb".**

"Report" xəbər verir ki, bunu **Təhsil Nazirliyinin Elm və ali təhsil şöbəsinin müdir müavini Yaqub Piriyev** ali təhsil müəssisələrində kredit sistemi ilə tədrisin təşkili qaydalarına edilən dəyişikliklə bağlı keçirdiyi brifinqdə deyib.

**Onun sözlərinə görə, üzrlü səbəbdən imtahanda iştirak etməyən tələbə həmin fənn üzrə təkrar imtahan üçün ödəniş etmir:** "Digər tələbələr isə imtahanda iştiraka görə, həmin fənn üçün nəzərdə tutulan məbləğin 25 faizindən çox olmamaq şərtilə ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən vəsaiti ödəməli olacaqlar".

**Y.Piriyev bildirib ki, hazırda dövlət ali təhsil müəssisələrində sonuncu buraxılış kursunun təqribən 6 faiz tələbəsi 1-2 fənn üzrə akademik borcu olduğuna görə ali məktəbi bitirə bilmir:** "Bu qərarın qəbul olunması həmin tələbələrə ali təhsil müəssisəsini bitirmək üçün real imkan yaradır. Əvvəlki qaydalardan fərqli olaraq dəyişikliklərə görə, bir semestrdə tələbənin götürdüyü kreditlərin maksimal sayı 38-dən 40-a, yay semestrində tələbənin götürdüyü fənlər üzrə kreditlərin cəminin sayı isə 9-dan 10-a qədər artırılıb".

**Nazirlik rəsmisi onu da qeyd edib ki, əyani təhsilalma formasının yeni növləri - tədrisə tam cəlb olunma və tədrisə qismən cəlb olunma növləri tətbiq olunub:** "Tədrisə tam cəlb olunma- ixtisasın təhsil proqramı ilə müəyyən olunmuş normativ təhsil müddətinə uyğun, tədris qrafiki ali təhsil müəssisəsi tərəfindən planlaşdırılan, tədrisə qismən cəlb olunma isə ixtisasın tədris planına uyğun, hər semestrdə iki fəndən az olmamaqla, tədris qrafiki tələbə tərəfindən planlaşdırılan əyani təhsilalma formasının növüdür. Tədrisə qismən cəlb olunma növünün tətbiqi aztəminatlı ailələrindən olan tələbələrə işləmək, işləyən şəxslərə isə təhsil almaq imkanı yaradacaq".

**Bu yenilikdən 2000-ə yaxın tələbənin istifadə edəcəyi gözlənilir.**

"Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# "Azərbaycan güclü iqtisadiyyata, sabitliyə malik, beynəlxalq təşkilatlara inteqrasiya olunmuş bir dövlətdir" - Əli Həsənov

**Bakıda "Dayanıqlı İnkişaf Məqsədlərinin təməl prinsipləri: hüquq bərabərliyi, milli prioritetlər və əməkdaşlıq" mövzusunda Ombudsmanların XIV Bakı Beynəlxalq Konfransı keçirilib.**

Tədbiri giriş sözü ilə açan omdusman Elmira Süleymanova deyib ki, Prezident İlham Əliyevin apardığı siyasət, hərtərəfli islahatlar ölkəmizdə insan hüquqlarının qorunması sahəsində də öz səmərəli nəticəsini verir: "Azərbaycanda sabitlik mövcuddur, insan hüquqları tam təmin olunur".

E.Süleymanova bildirib ki, Azərbaycanın multikulturalizm modeli dünya üçün bir nümunədir.

O qeyd edib ki, Prezident İlham Əliyev tərəfindən təsdiq olunan Strateji Yol Xəritələri ölkəmizin yeni dövrün tələbləri əsasında daha sürətli inkişafını təmin edəcək.

Tədbirdə çıxış edən konfransda Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi - şöbə müdiri Əli Həsənov bildirib ki, Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün bu qlobal təşəbbüsə qoşulan dövlətlərin zəruri resurslara malik olması mühüm şərtdir:

"Müstəqillik illərində Azərbaycan Respublikasının əldə etdiyi nailiyyətlər, hazırkı inkişaf səviyyəsi göstərir ki, ölkəmiz qarşıya qoyulan hədəflərə çatmaq üçün güclü potensiala malikdir. Bu gün Azərbaycan güclü iqtisadiyyata, dayanıqlı siyasi-hüquqi və sosial-müdafiə sisteminə, təhlükəsiz və sabit ictimai-siyasi mühitə, yenilənmiş infrastruktura malik, beynəlxalq təşkilatlara inteqrasiya olunmuş bir dövlətdir. 1993-cü ildə xalqın təkidi ilə bi ilə hakimiyyətə qayıdan Heydər Əliyev ölkənin sağlam qüvvələrini, bacarıqlı, vətənpərvər və intellektual insanlarını ətrafına toplayaraq böyük vəzifələrin öhdəsindən uğurla gəldi və Azərbaycanın yüksəlişinin əsaslarını yaratdı. Onun rəhbərliyi və iradəsi ilə demokratik, hüquqi dövlətə və azad cəmiyyətə xas olan institutlar və təsisatlar, bazar münasibətlərinə əsaslanan iqtisadiyyat, ədalətli sosial siyasət formalaşdırıldı, mədəniyyət, təhsil, səhiyyə, idman və ekoloji problemlərə diqqət artırıldı".



Cənab İlham Əliyevin Prezident kimi fəaliyyətinə konseptual baxımdan qiymət verən Ə.Həsənov bu dövrü "fasiləsiz islahatlar və modernləşmə dövrü" kimi xarakterizə edib. O əlavə edib ki, bu dövr sosialist təsərrüfat sistemindən yeni sistemə keçidin başa çatması ilə də tarixə düşüb.

**Prezidentin köməkçisi həmçinin bildirib ki, Azərbaycanda insan və vətəndaş hüquq və azadlıqlarının təmin olunması, vətəndaş cəmiyyətinin inkişafı sahələrində böyük uğurlar qazanılıb:** "Ölkədə birləşmək, söz, fikir və mətbuat azadlıqları, habelə digər azadlıqlar təmin olunur, insan hüquqları sahəsində beynəlxalq standartlar gözlənilir. Ötən illər ərzində Azərbaycan Respublikası insan hüquqları sahəsində fəaliyyət göstərən nüfuzlu beynəlxalq qurumlarla əməkdaşlığı inkişaf etdirmiş, insan hüquqlarının müdafiəsi sahəsində 50-dən çox beynəlxalq sənədə tərəfdar çıxmış və bu sahədə beynəlxalq öhdəliklərin həyata keçirilməsində mühüm nailiyyətlər əldə etmişdir... İnsan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət planları qəbul olunur və icra edilir. 2016-cı il sentyabrın 26-da keçirilmiş referendumla Konstitusiyaya edilən dəyişikliklər vətəndaşların hüquqlarının daha da genişlənməsi və etibarlı qorunması üçün əlavə təminatların yaradılmasına xidmət edib".

**Ə.Həsənov bəyan edib ki, Azərbaycanda hazırlanan inkişaf konsepsiya və strategiyaları, proqram və layihələr bir qayda olaraq, BMT-nin Davamlı İnkişaf Məqsədləri ilə uyğunlaşdırılır:** "Bu da onu göstərir ki, Azərbaycan dövləti öz siyasətini qlobal çağırışlar və təmayüllər nəzərə alınmaqla qurur".

# İsa Qəmbər və Əli Kərimli prokurorluqda dindirildilər

**AXCP sədri Əli Kərimli və Müsavat Partiyasının sabiq başqanı, MSDM-in rəhbəri İsa Qəmbər iyunun 16-da Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə İstintaq İdarəsində ifadə veriblər.**

Əli Kərimli həbs olunan müavini Gözəl Bayramlının, İsa Qəmbər isə Müsavat üzvü Əfqan Muxtarlının işi üzrə dindirilib.

Virtualaz.org xatırladır ki, rəsmi məlumata görə, 25 may 2017-ci il tarixdə saat 22 radələrində Azərbaycan vətəndaşı Bayramova Gözəl Oruc qızı Gürcüstandan Azərbaycan ərazisinə keçərkən Qazax rayonunun Şıxlı sərhəd nəzarət buraxılış məntəqəsində Dövlət Gömrük Komitəsinin əməkdaşları ilə birgə keçirilmiş tədbirlər nəticəsində saxlanılıb.

Belə ki, G.Bayramova özünü şübhəli apardığına görə əl yükünə baxış keçirilərkən bəyan edilməmiş 12 min ABŞ dolları məbləğində pul vəsaiti aşkar olunaraq götürülüb.

Daha sonra isə Əfqan Muxtarlı da analoji ittihamla saxlanılıb.

# Türkiyədə üzərində canlı bomba jileti olan 3 azərbaycanlı İŞİD-çi ələ keçdi

**Türkiyənin Suriya ilə sərhəd Kilis bölgəsində üzərlərində çoxlu miqdarda partlayıcı maddə və canlı bomba jileti olan 5 İŞİD üzvü yaxalanıb. Onlardan 3-ü Azərbaycan vətəndaşıdır.**

Virtualaz.org Türkiyə KİV-lərinə istinadən xəbər verir ki, terrorçular İmanlı kəndi yaxınlığında polis və jandarma qüvvələrinin birgə keçirdiyi əməliyyatda yaxalanıb.

Bunlar Azərbaycan vətəndaşları, 29 yaşlı Sərxan Əliyev, 37 yaşlı Gülnur Şirməmmədova və 42 yaşlı Nazənin Zeynalova, habelə 44 yaşlı Anaçtaçnır Pozdiva və Bosniya hökuməti tərəfindən axtarılan 37 yaşlı Begzat Şapiçdir.

Terror təşkilatı mənsubları polisdə dindirildikdən sonra çıxarıldıqları növbətçi məhkəmə tərəfindən onların barəsində həbs qətimkan tədbiri seçilib. Türkiyə təhlükəsizlik qüvvələri həmin İŞİD-çilərin bölgədə intihar-çı terror hücumu planlaşdırdıqlarını ehtimal edir.



# Azərbaycanda hər 1000 kişiyə 1006 qadın düşür

**Azərbaycan əhalisinin sayı ilin əvvəlindən 26714 nəfər və ya 0,3 faiz artaraq may ayının 1-də 9 milyon 836 min 695 nəfərə çatıb.**

Dövlət Statistika Komitəsindən "Report"a verilən məlumata görə, əhalinin ümumi sayının 53,0 faizini şəhər, 47,0 faizini kənd sakinləri, 49,9 faizini kişilər, 50,1 faizini isə qadınlar təşkil edir.

Əhalinin bir kvadrat kilometrə düşən sıxlığı 114 nəfər olub.

Məlumata görə, hazırda hər 1000 kişiyə 1006 qadın düşür.



# Tanınmış şair-dramaturq Ramiq Muxtar ağır durumdadır

**Şair-dramaturq Ramiq Muxtar ağır durumdadır. Bu barədə müsavat.com-a onun ailəsindən məlumat verildi. Belə ki, diabetli şəkər xəstəliyindən əziyyət çəkən şairin durumu son aylarda kritikləşib və bir müddət öncə o, xəstəxanaya yerləşdirilib. Ayağında qanqrena başladığından onun üç ayaq barmağı kəsilib: "Hazırda vəziyyəti ağırdır. Qanqrena davam edir və bizim onun müalicəsini həyata keçirməyimiz üçün dövlətin dəstəyinə ehtiyacımız var".**

R.Muxtar 1942-ci il, sentyabrın 5-də Naxçıvan şəhərində ziyalı ailəsində anadan olub. 11 yaşından bədii yaradıcılıqla məşğul olub, şeirləri dövri mətbuatda tez-tez çap olunub.

"Üfüqlər qızaranda", "Əlvida, köhnə dünya", "Doğma səmanın ulduzları" və digər pyesləri Bakı, İrəvan, Naxçıvan, Qazax Dövlət Dram teatrlarında tamaşaya qoyulub.

Nəğməkar şairin sözlərinə 120-dən artıq mahnı bəstələnib. Son 15 il ərzində respublikada keçirilən hərbi vətənpərvərlik mövzusundakı müsabiqələrdə onun sözlərinə bəstələnən mahnılar 8 dəfə birinci mükafata layiq görülüb.

Həmçinin, o, "Jurnalistlərin himni" və Dünya Azərbaycanlılarının Birlik Nəğməsinin müəllifidir.

❑ Musavat.com

YENİ MÜSAVAT
N 129 (6743) 17 iyun 2017

# İqtisadçı 4 bankın qaranlıq taleyindən danışdı

## “Əksəriyyəti iri banklara birləşdiriləcək”

**Xəbər verdiyimiz kimi, “Moodys” Beynəlxalq Reytinq Agentliyi Azərbaycanın 4 bankının reytinqini aşağı salıb. Bu haqda agentliyin press-relizində bildirilir. Reytinqi aşağı salınan banklar “Xalq Bank”, “Bank Respublika”, “VTB Bank” və “Bank of Baku”dur. Məlumatda qeyd edilir ki, “Xalq Bank”ın kredit reytinqi B3-dən aşağı salınıb. Bankın uzunmüddətli depozit reytinqi isə B2-dən (əsaslı kredit riski) daha aşağı, B3-ə (yüksək kredit riski) endirilib.**




**“Bank Respublika”**nın həm kredit reytinqi, həm də uzunmüddətli depozit reytinqi B2-dən B3-ə endirilib.**"Bank of Baku"**nun kredit reytinqləri də endirilib.

**“VTB Bank”**ın kredit reytinqi caa1-dən caa3-ə (çox yüksək kredit riski), uzunmüddətli depozit reytinqi isə B2-dən daha aşağı, B3-ə endirilib.

Qeyd edək ki, hazırda Azərbaycanda 32 bank var. Onlardan biri Azərbaycan Beynəlxalq Bankı xarici öhdəlikləri yerinə yetirməkdən imtina edib. Daha 4 bank problemlərə görə, nəzarətə götürülüb. Ötən il isə ölkədə 11 bank bağlanıb. Bu onların öhdəlikləri yerinə yetirə bilməmələri ilə izah edilib.

Bəs görəsən , bu 4 bankı hazırda nə gözləyir? Onların bağlanma ehtimalı varmı?

Bu sualları cavablandıran **iqtisadçı ekspert, hüquqşünas Əkrəm Həsənov** “Yeni Müsavat”a açıqlamasında bank sektorundakı durumu dəyərləndirdi: “Ümumən əlbəttə ki, bankların reytinqinin aşağı salınması onların problemli kreditlərinin artması və nəticədə öhdəliklərinin icra edilməməsi təhlükəsi ilə bağlıdır. Faktiki olaraq reytinq agentlikləri bununla hamıya deyir ki, bu banklarla ehtiyatlı olun, onların müflisləşmə ehtimalı yüksəkdir. Bununla belə, təcrübədə hər belə banka konkret yanaşmaq lazımdır. Onu da unutmaq lazım deyil ki, hazırda Maliyyə Bazarlarına Nəzarət Palatası bankların bağlanmasından yayınmağa və bununla da özü haqqında müsbət imicin formalaşmasına nail olmaq istəyir. Hazırda nəinki bu 4 bank, bir çox bankımız faktiki müflisdir. Amma Palata onların rəsmi müflisləşməsinə imkan vermək istəmir. Sadəcə Azərbaycan Beynəlxalq Bankında olduğu kimi orada da öhdəliklərin könüllü restrukturizasiyasını həyata keçirmək istəyir. Başqa sözlə, belə bankları oradakı sahibkarların vəsaiti hesabına xilas etmək istəyir. Məsələn, tutaq ki, hansısa şirkətin ”Bank VTB"də 1 mln. vəsaiti var və həmin şirkətə deyirlər ki, vəsaitin yarısından vaz keç, qalanını sənə qaytaraq. Necə ki, Beynəlxalq Bankın xarici kreditorlarına bunu deyirlər".

**İqtisadçının sözlərinə görə, istənilən halda vətəndaşların əmanətləri üçün təhlükə olmayacaq:** “Onsuz da əmanətləri sığortalanıb və elə məqsəd də həmçinin odur ki, səmərəsiz fəaliyyət göstərən Əmanətlərin Sığortalanması Fondunun üzərinə sığortalanmış əmanətləri qaytarmaq üzrə əlavə yük düşməsin. Yəni bu banklar bağlanmasa belə, oradakı sahibkar və hüquqi şəxslərin vəsaitləri ciddi təhlükədədir”.

**Ə.Həsənov qeyd etdi ki, bu 4 bank elə bank sistemimizin güzgüsüdür:** “Onlardan üçü - "Bank of Baku", “Bank VTB” və “Bank Respublika” əsasən əhali, “Xalq Bank” isə şirkətlər ilə işləyən bank kimi tanınırlar. Gəlin sonuncudan başlayaq. **“Xalq Bank”** bərbad idarəetmə sisteminə, zəif kadr potensialına və sair mənfi cəhətlərə malik olan bir bankdır. Şirkətlərə də əsasən tanışlıqla və digər mənfi zəmində kreditlər verib. İndi də yığa bilmirlər. Ona görə də vəziyyəti çox pisdir. Onun xilası iki halda mümkündür: birincisi, səhmdarları ona əlavə vəsait versə, ikincisi, Palata yuxarıda qeyd etdiyim könüllü restrukturizasiyası adı altında onun sahibkarlar müştərilərinin pulunu alıb banka bağışlasa... Böyük ehtimalla hər iki variant əsnasında bu bank daha sabit banklardan birinə qoşulub sıradan çıxacaq. "Bank VTB" də bir sıra məqamlara görə “Xalq Bank”a oxşardır. Özü də gizlətmir ki, daxilində korrupsiya belə yüksək səviyyədədir. Bu bankda ciddi idarəetmə problemləri var. Səhmdarları olan Rusiyanın VTB qrupu və yerli “Ataholdinq” arasında da fikir ayrılığı var. Reallıqda bank Rusiyadan idarə olunur. Rusiyadan göndərilən rəhbər şəxslər bankdakı yerli əliəyri kadrlarla əlbir olub kimə və necə gəldi kredit paylayıblar, həmin kreditlər də indi qayıtmır. “Ataholdinq” də haqlı olaraq VTB-yə etirazını bildirir ki, pullar haradadır?! Üstəlik son vaxtlar bu banka müflis olmuş ən iri bankın - “Bank Standard”ın kadrları axışır. Bir bankı viran qoyandan sonra indi də VTB-yə daraşıblar".

**İqtisadçının sözlərinə görə, bu bankın taleyi iki cür ola bilər:** “Ya ”Ataholdinq" pulunu götürüb səhmdarlar sırasından çıxacaq və Rusiya VTB-si banka əlavə vəsait ayırıb fəaliyyətini pis-yaxşı davam etdirəcək ki, imicinə xələl gəlməsin, ya da Rusiya VTB-si bankı bağlayacaq və formal olaraq o hansısa yerli banka qoşulacaq".

**Əkrəm Həsənov onu da vurğuladı ki, “Bank of Baku" ölkənin ən yaxşı idarə olunan və korrupsiyasız banklarından biri idi:** ”Lakin ötən illər ərzində bu bankı xeyli güclü kadrlar tərk edib. Yeni kadrlar isə 15 il bundan əvvəl qurulmuş strategiyanı (pərakəndə bankçılıq) yeni şəraitə uyğunlaşdırmadan davam etdiriblər. Nəticəsi göz qabağındadır: məsuliyyətsiz kredit siyasəti ona gətirib ki, əhaliyə verdikləri kreditləri yığa bilmirlər. Böyük ehtimalla yaxında bu bank başqa banka qoşulacaq. “Bank Respublika” uzun illər bir şəxsin peşəkarlığı sayəsində uğurlu işləyə bilirdi, o da idarə heyətinin sədri Xədicə Həsənova idi. X.Həsənova bank sistemimizin ən güclü 4-5 top-menecerlərindən biridir. Amma ilin əvvəlində o, bankdan getdi və bankın onsuz da çətin vəziyyəti daha da ağırlaşdı. Yəqin ki, bu bank da daha iri banklardan birinə qoşulacaq. Ümumiləşdirsək, bütün bu proseslər bankların sayının azalmasına aparacaq. Amma müflisləşmə yolu ilə deyil... Çünki Palataya bu sərf etmir. Daha çox sahibkarların həmin banklardakı pullarının mənimsənilməsi hesabına onların digər banklara qoşulması yolu ilə baş tutacaq. Yəni, həm bu bankların mövcud səhmdarlarını, həm də sahibkar müştərilərini sadəcə fakt qarşısında qoyacaqlar. Sahibkarlara və şirkətlərə məsləhətim budur ki, indidən daha iri və sabit banklarda xidmət olunmağa başlasınlar. Onsuz da yekunda belə olacaq. Sadəcə indi bunu etsələr, proses onlar üçün itkisiz başa gələcək. Digər tərəfdən, bank sistemində rəqabətin zəifləməsi xoşagələn hal deyil və bütövlükdə bank sistemimizi çox ağır illər gözləyir".

❑ Nərgiz LİFTİYEVA



# Elçibəy 24 il öncə Kələkiyə getməsəydi...

## Qabil Hüseynli: “Bu, Azərbaycan dövlətçiliyi üçün təhlükəli addım idi”

**Bu gün-iyunun 17-si Əbülfəz Elçibəyin prezidentlik postunu qoyub Kələkiyə getməsindən 24 il keçir. Lakin illər keçsə də, bu hadisə indi də müzakirə edilməkdədir və hələ də Elçibəyin gedişi birmənalı qarşılanmır.**

Bəzi şəxslər hesab edirlər ki, Elçibəy o dövrdə baş verən siyasi prosesləri qaydasına salmaq üçün əlindən gələni edib. Və hətta bildirilir ki, Əbülfəz Elçibəy Bakıda qalsaydı, ya öldürülməli, həyatına sui-qəsd edilməli idi - çünki onu qoruyacaq mexanizmlər də artıq minimum vəziyyətində idi - yaxud da hansısa təhdid, şantaj, qorxu və ya silah gücünə istefaya məcburetmə məsələləri də ola bilərdi. Lakin buna əks mövqedə olanlar da var. Onlar hesab edirlər ki, istənilən halda Elçibəyi xalq seçmişdi və o, xalqa qarşı hörmətsizlik edib, heç kimə demədən bu cür addım atmamalı idi.

**O dövrdə AXC hakimiyyətində təmsil olunan şəxslərdən biri isə “Yeni Müsavat”a deyib ki, əslində Elçibəyin Bakıdan xəbərsiz getməsi doğru fikir deyil. Çünki deyilənə görə, prezident Bakıdan Kələkiyə getməsini bir neçə şəxslə məsləhətləşib:**

“Əbülfəz bəyin Kələkiyə gedəcəyindən məlumatlı olanlar var idi. Əbülfəz bəyin Naxçıvana gedəcəyi ilə bağlı bir neçə saat öncə prezidentin şəxsi mühafizə xidmətinin rəisinə məlumat verilmişdi. Prezidentin Bakını tərk eləməsi üçün hazırlıq işləri görülmüşdü. Onun aeroportdan Naxçıvana yola salınmasında Dövlət Mühafizə Xidmətinin rəisi Vaqif Axundov da iştirak edib”.

**Politoloq Qabil Hüseynli** “Yeni Müsavat”a bildirib ki, Elçibəyin hakimiyyətinin son dönəmlərində cəmiyyətdə dərin bir böhran yetişmişdi: “Həmin dövrdə Sürət Hüseynovun xəyanəti-Qarabağ bölgələrindən qoşunlarını geri çəkməsi nəticəsində Azərbaycan torpaqlarının işğalı dövrü başlamışdı. Yeni ölkənin milli müqəddəratı sual işarəsi altında idi. Həmin dövrdə xalqın Heydər Əliyevə olan sevgisi və məhəbbəti, özünün zirvə nöqtəsinə çatmışdı. O zaman AXC Heydər Əliyevi hakimiyyətə dəvət etdi və o, Ali Sovetin sədrliyinə seçildi. Ancaq bundan sonra Sürət Hüseynovun 4 iyun hadisələrinin ardınca Gəncədə bir növ hakimiyyət içərisində hakimiyyət qurması, mərkəzi hakimiyyəti təhdid edərək, Elçibəyin istefasını tələb etməsi sonda prezidentin Kələkiyə getməsi ilə nəticələndi. Bundan sonra isə Heydər Əliyev xalqın ağır günündə hakimiyyətin bütün məsuliyyətini öz üzərinə götürmək məcburiyyətində qaldı. Kələkiyə gedən Elçibəy, gedəcəyi barədə heç dəvət etdiyi mərhum Heydər Əliyevə də məlumat verməmişdi. Həmin dövr çox ağır və fəlakətli idi. Bir tərəfdən erməni ixtilafı rusların dəstəyi ilə miqyasını genişləndirir, o biri tərəfdən isə müəyyən separatçı qüvvələr fəaliyyətdə idilər. Məsələn, Ələkrəm Hümmbətov və buna bənzər digər qruplaşmalar ölkə daxilində çaxnaşma yaradırdı. Heydər Əliyevin səyləri nəticəsində həm ”Talış-Muğan Respublikası" ideyası iflası uğradıldı, həm də erməni hücumlarının müəyyən mərhələdə qarşısı alındı və dayandırıldı".

**Politoloq söyləyib ki, həmin dövrdə Heydər Əliyev dövlətin xilası naminə çox böyük əzmkarlıq göstərdi:** “Nəticədə böyük işlərin bünövrəsi qoyuldu. Beləliklə də Azərbaycan dövlətçiliyi tamamilə süqut etməkdən qorundu. Düşünürəm ki, heç bir prezident postunu tərk etməli deyildi. Çünki ən azından onu xalq seçmişdi və xalqın ona təqdim etdiyi hakimiyyəti, xalqla məsləhətləşib tərk etməli idi. Elçibəyin o dövrdə Kələkiyə getməsini həm Azərbaycan xalqına qarşı hörmətsizlik, həm də Azərbaycan dövlətçiliyi üçün təhlükəli bir addım hesab edirəm. Yaxşı ki, özü gedənə qədər Heydər Əliyevin Ali Sovetin sədrliyinə gətirilməsi məsələsi həll olunmuşdu”.

❑ Əli RAİS



# Optimistlərin dəyişməsi

Samir SARI

**Əvvəllər əksər dostlar çox optimist idilər, "ümid var gələcəyə" deyirdilər. Yaşları irəliləyib, enerjiləri geriləyib, nədir, indi çox pessimistdirlər.**

Yaxşı xatırlayıram, 20 il öncə onlar toplantı keçirər, Çində uyğurların dözülməz vəziyyətini, İranda azərbaycanlıların ana dilində məktəbi olmamasını, Bosniyada etnik zəmində törədilən qırğını və sair bu kimi məsələləri ciddi-ciddi müzakirə edər, bəyanat verərdilər. Onlar dünyanı düzəltmək eşqindəydilər.

İndi həmin şəxslərin sosial şəbəkədəki statuslarını oxuyuram, uyğur dərdi, İranda türk dilində məktəb problemi yada düşmür, adamlar öz məktəblərimizdəki problemlərdən, öz məhəllələrindəki dərdlərdən yazırlar.

Hanı o dünyanı düzəltmək eşqi ilə alışıb-yanan gənclər? Onlar, türkün sözü, mazidə qalıb. İndi əsas məsələ ailə-məişət qayğılarıdır.

Görün, zaman entuziazmı aşıb-daşan gəncləri dünya miqyaslından necə endirib ailə xadimi elədi? Ey gidi dünya.

Ən pisi odur ki, hazırda Çində uyğur, İraqda türkmən problemini müzakirə edəcək başqa gənclər yoxdur. Yalnız az sayda dünyanı dəyişməyə çalışan, qlobal problemləri həll etmək istəyən gənclər hazırda Suriyada, İraqda din davası aparırlar, cihada qoşulublar.

Onları saymasaq, indiki gənclərin çoxu həm praqmatikdirlər, həm də sələfləri kimi optimist deyillər, əsasən pessimistdirlər, yaxşı gələcəyə çox da ümid bəsləmirlər, səmaya motoskilet sürmək xəyalı qurmurlar.

İndikilər hesab edirlər ki, nə dünyanı düzəldə bilərlər, nə də ölkəni, ən yaxşısı birtəhər aradan çıxıb düzəlmiş dünyaya, firavan Avropaya inteqrasiya olunmaqdır. Düşüncə budur ki, optimizmə əsas verəcək həyat oralardadır.

O gün keçmiş optimistlərdən biri ilə söhbət edirəm, deyirəm, bəy, necə oldu ki, təkcə öz ölkəmizin yox, əkə-bükə diktaturalarda belə rejimlərin dəyişəcəyinə, demokratiyanın bərqərar olunacağına bəslənilən ümid birdən-birə puç oldu, getdi.

Qardaş deyir, ümidlər birdən-birə puç olmadı, bəy, yavaş-yavaş oldu, hər seçkidə bir az çilikləndi, xırdalandı, axırda toz kimi oldu, sonra da yel vurdu, göyə sovruldu.

Söhbət irəliləyir, sabiq optimist deyir, sən adicə yollara fikir ver, hər 10 sürücüdən 9-u qaydanı pozur, başqasının yoluna, haqqına girir, bunu norma sayır, hələ sonra da başqalarına fəxrlə danışır. "Adicə yol hərəkəti qaydalarına riayət etməyən yüz minlərlə sürücünün olduğu ölkədə sən demokratik seçki keçirə bilərsən?" - adam kontr-sualla çıxış edir.

Baxırsan ki, haqlıdır, doğrudan da supermarketdə önündəki iki nəfərin ödəniş edib çəkilməsini gözləyə bilməyən və mütləq növbəni pozub qabağa düşməyə çalışan qanacaqsızların, "Allahdan başqa heç kəsdən qorxum yoxdur" deyə yekə-yekə danışan, ancaq sahə müvəkkilini görəndə... sarısını udan qorxaqların, şəhərin mərkəzində (məsələn, R.Behbudov küçəsində) üçotaqlı (azı 200 min manatlıq) evi ola-ola KİV DDF-dən müftə mənzil almaq üçün sənəd təqdim edən kəmfürsətlərin, bisavad övladlarına xaricdəki və daxildəki "kitayski" universitetlərdən saxta diplom almağa çalışan əliəyrilərin, səhər-səhər kiməsə kələk gəlmək üçün evindən çıxan dələduzların, qıyqacı baxan hər kəsi vurmaq üçün cibində bıçaq gəzdirən potensial qatillərin, ömrü boyu qul kimi çalışaraq bir gün görməyən, ancaq hələ də sovet nostaljisi ilə yaşayan təqaüdçülərin, istənilən seçkini yüksək səviyyədə saxtalaşdırmağı bacaran, bunu etməyi normal sayan onminlərlə saxtakarın, qanunsuz işini aşırmaq üçün rüşvət verməyə hazır olan milyonlarla əliəyrinin yaşadığı ölkədə demokratiya bərqərar etmək çox çətindir.

Baxırsan ki, ölkənin 9 milyon vətəndaşının 8 milyon 900 mininə demokratiya-filan lazım deyil. Düzdür, hər kəsin öz işinə gələndə ədalətə ehtiyacı olur, amma adamın işi düzəldisə, başqaları cəhənnəmə olsun.

Bax, bütün bunlardır insanların qolunu soyudan, pessimist edən. Hələ yüzlərlə başqa xırda detallar da var - A-dan Z-yə qədər.

**Yəni belə ölkədə optimist olmaq çətindir. Belə çıxır ki, yenə biz şanslıyıq, ən azı on il optimist-optimist yaşamışıq - axırı pessimist qurtarsa da.**

# Avropa Parlamentinin qətnaməsi aranı qatdı

## Hakimiyyət düşərgəsindən sərt cavablar verildi; XİN: "Cəmi 20 dəqiqəyə yaxın davam edən müzakirələr nəticəsində qəbul edilmiş bu qərəzli və uydurma xarakterli sənəd heç bir hüquqi qüvvəyə malik deyil"

**Avropa Parlamentində jurnalist Əfqan Muxtarlı və Azərbaycanda media azadlığı ilə bağlı qətnamə layihəsi səsə qoyularaq qəbul olunub. Müzakirə jurnalist Əfqan Muxtarlı və Azərbaycanda media azadlığı ilə bağlı keçirilib. Yekun olaraq qətnamə qəbul olunub. Bu barədə "Azadlıq" Radiosu məlumat yayıb. Qətnamədə bildirilib ki, araşdırmaçı-jurnalist Əfqan Muxtarlı Tbilisidə mayın 29-da yoxa çıxıb və bir neçə saat sonra Bakıda peyda olub.**

Sənəddə Əfqan Muxtarlının oğurlandığı bildirilir və bu hadisə kəskin şəkildə pislənir, bunu insan haqlarının ciddi şəkildə pozulması adlandırırlar.

Qətnamədə həmçinin deyilir ki, Gürcüstan hakimiyyəti, bu ölkədə yaşayan 3-cü ölkə vətəndaşlarına və ya öz ölkəsində siyasi və ya insan haqları fəaliyyətinə görə təqib olunaraq siyasi sığınacaq istəyənlərin təhlükəsizliyini təmin etməlidir.

Azərbaycan hakimiyyətinə müraciət edilir ki, təxirəsalınmaz qaydada Əfqan Muxtarlıya qarşı bütün ittihamları ləğv etsin və jurnalisti azadlığa buraxsın.

Sənəddə eyni zamanda deyilir ki, hüquq müdafiəçiləri Leyla Yunus və Arif Yunus Hollandiyada sığınacaq aldıqları halda mayın 17-də verilən məhkəmə qərarı ilə onlardan Azərbaycana qayıtmaq tələb olunur.

Qətnamədə bloqqer və ictimai fəal Mehman Qələndərlinin aprelin 28-də, həbsxanada baş vermiş ölümünü araşdırmaq çağırışı edilir. Həmçinin digər siyasi məhbus sayılan şəxslərin, İlkin Rüstəmzadə, Rəşad Ramazanov, Seymur Həzi, Qiyas İbrahimov, Mehman Hüseynov, Bayram Məmmədov, İlqar Məmmədov, Araz Quliyev, Tofiq Həsənli, Elgiz Qəhrəmanov, Əfqan Sadıqov və digərlərinin azadlığa buraxılması, İntiqam Əliyev və Xədicə İsmayılovaya qarşı bütün ittihamların ləğv olunması tələb olunur.

Sənəddə Avropa Birliyi və Azərbaycan arasında yeni əməkdaşlıqla bağlı razılaşma yada salınır və bildirir ki, demokratik islahatlar, qanunun aliliyi, yaxşı dövlət idarəçiliyi, insan haqları və fundamental azadlıqlar yeni razılaşmanın kökündə dayanır. Yada salınır ki, yeni razılaşmadan əvvəl danışıqlar boyunca Avropa Parlamenti situasiyanı yaxından monitorinq edəcək.

**Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev** Avropa Parlamentinin qəbul etdiyi qətnaməyə Nazirliyin rəsmi münasibətini açıqlayıb. "AzərTAc"a açıqlamasında H.Hacıyev deyib ki, 2017-ci il iyunun 15-də Avropa Parlamenti tərəfindən Əfqan Muxtarlı ilə bağlı qətnamə qəbul edilib. Cəmi 20 dəqiqəyə yaxın davam edən müzakirələr nəticəsində qəbul edilmiş bu qərəzli və uydurma xarakterli sənəd heç bir hüquqi qüvvəyə malik deyil, hər hansı hüquqi və digər nəticə doğurmur.

Nazirlik rəsmisi eyni zamanda deyib ki, qətnamənin qəbul edilməsinin təxirə salınması ilə bağlı keçirilmiş səsvermədə səslər arasındakı fərqin az olması Avropa Parlamentində Azərbaycanla əlaqələrə əhəmiyyət verən kifayət qədər deputatın olduğunu göstərir. Belə ki, sözügedən sənədin təxirə salınması təklifinə 272 deputat dəstək verib və 27 nəfər bitərəf qalıb.



### Müxalif partiyanın sədrindən "artıq Avropanın nə səmimiyyətinə, nə ədalətinə, nə elan etdiyi dəyərlərə sadiqliyinə inanmıram" bəyanatı gəldi

Azərbaycanın müxalifətdə olan siyasi qurumlarından olan AĞ Partiyanın sədri Tural Abbaslı isə AP-nin qətnaməsinə belə münasibət bildirdi: "Avropa Parlamenti Azərbaycandakı siyasi həbslər barədə qətnamə qəbul edib. Bu hakimiyyətə xəbərdarlıq baxımından bəlkə də faydalıdır. Ancaq, mən artıq Avropanın nə səmimiyyətinə, nə ədalətinə, nə elan etdiyi dəyərlərə sadiqliyinə inanmıram. Məncə, Avropanın bütün bu "demokratiya naminə təzyiqləri" növbəti kürü dolu çantalarını, gizli hesablara köçən "qonorar" dollarlarını və yaxud da daha sərfəli neft-qaz müqavilələri əldə edənə qədərdir. Necə ki, "demokratiya adası" Gürcüstan 5-10 manata görə "demokratik dəyərlərindən" imtina etdilər. Odur ki, kimlərsə çox da eyforiyaya qapılmasınlar".

**Hüquq müdafiəçisi Əvəz Həsənov** isə bildirdi ki, son bəyanat uzun müddət Azərbaycanda vətəndaş cəmiyyəti və siyasi partiyalara tətbiq olunan məhdudiyyətlərlə əlaqəli Avropa Birliyinin narahatçılığını göstərən bir sənəddir. Eyni zamanda konkret olaraq Əfqan Muxtarlının müəmmalı şəkildə Azərbaycana gətirilməsi də bu bəyanatı tezləşdirib və sərtləşdirir: "Azərbaycan və Gürcüstan faktiki olaraq ağır ittihamlar, sığınacaq axtaran şəxsin qaçırılması ittihamı ilə üzləşib. Bəyanatda digər şəxslərlə əlaqəli tələblərdən fərqli olaraq Əfqan Muxtarlının məhkəmə prosesi Avropa Birliyi ilə Gürcüstan tərəfindən də izlənəcək. Çünki Gürcüstanın da imicinə xələl gətirəcək hal baş verib. Azərbaycan hətta cinayətdə şübhəli bildiyi bir şəxsin ölkəyə gətirilməsində səy göstərməklə özünə haqlı saysa da, Gürcüstanın öz ölkəsindən sığınacaq axtaran şəxsin müəmmalı yoxa çıxmasına cavab verməli olacaq".

**Gənc Demokratlar İnstitutunun rəhbəri Yeganə Hacıyeva** isə qətnamə anti-Azərbaycan qətnamələri silsiləsindən növbətisidir: "Avropa Parlamenti Avropa Birliyinin icraçı siyasi institutlarından biridir. Hazırda isə Azərbaycanla AB arasında sazişin imzalanması üçün danışıqların getdiyi bir vaxtda AP-nin belə bir qətnamə qəbul etməsindən belə bir fikir yaranır ki, Avropa Parlamenti Avropa Birliyinin siyasətinin həyata keçirilməsinə mane olur. Bu qətnamə Azərbaycanı AB-dən küsdürmək və uzaq salmaq üçün addımdır".

**Milli Məclis sədrinin birinci müavini Ziyafət Əsgərov** isə APA-ya deyib ki, Avropa Parlamentində Azərbaycana qarşı belə bir addım atılması təəssüf doğurur. Qətnamənin mətni ilə tanış olduqdan sonra məndə belə bir təəssürat yarandı ki, bu sənəd yoxlanılıb təsdiqlənməmiş məlumatlar, uydurma faktlar əsasında hazırlanıb.

Z.Əsgərovun sözlərinə görə, adı çəkilən qətnamənin qəbul edilməsi ona dəlalət edir ki, Azərbaycan Respublikasının həyata keçirdiyi müstəqil siyasət Avropada fəaliyyət göstərən antiazərbaycan qüvvələri, xüsusən erməni lobbisini narahat edir. Bu qüvvələrin təsiri və təzyiqi altında Avropa Parlamenti kimi ciddi qurum tərəfindən belə bir hərəkətə yol verilməsi Azərbaycanda anlaşılmazlıq doğurur: "2016-cı ilin sentyabr ayından Azərbaycanın "Avronest"də fəaliyyətinin bərpa olunduğu və Azərbaycan Milli Məclisi ilə Avropa Parlamenti arasında əlaqələrin yüksələn xətt üzrə inkişaf etdiyi bir dövrdə bu cür qətnamənin qəbul edilməsi ikitərəfli münasibətlərə xələl gətirməyə bilməz. Bunu da qeyd etməyi lazım bilirəm ki, Azərbaycan Avropa İttifaqının üzvü deyil və onun qarşısında heç bir öhdəlik daşımır. Avropa Parlamentinin qətnaməsi Azərbaycan üçün heç bir əhəmiyyət kəsb etmir. Ümid edirəm ki, Avropa İttifaqında və Avropa Parlamentində olan sağlam qüvvələr Azərbaycana qarşı yönələn bu cür qərəzli və bədxah hərəkətlərin qarşısını alacaqlar".

**YAP-çı deputat Aydın Mirzəzadə** isə moderator.az- bildirib ki, Avropa Parlamenti yenə də öz statusuna uyğun olmayan bir qərar qəbul edib: "Avropa Parlamenti nədənsə vaxtaşırı özünü Avropa məkanına daxil olmayan dövlətlərin prokuroru qismində aparır. Avropa Parlamenti Avropa Birliyinə daxil olan ölkələrin daxili məsələlərinə dair formalaşdırılan Parlament Assambleyasıdır. Lakin bu qurum digər ölkələrlə bağlı da aşkar siyasi motivli qərarlar qəbul edir. Qəbul edilən qərarların məzmunu da bunun hüquqşünaslar tərəfindən hazırlanmadığını göstərir. Azərbaycana qarşı tələblər irəli sürülür, ondan qeyri-şərtsiz müəyyən addımlar atmaq tələb olunur və s. Hesab edirəm ki, Avropa Parlamentinin özünün avropalaşmasına çox böyük ehtiyac var. Azərbaycan suveren dövlətdir və öz daxili məsəlləri ilə bağlı müstəqil qərarlar qəbul edir. Azərbaycan daxilindəki məsələyə maraq göstərən qurumların diqqətini hansısa məsələ cəlb edirsə, o zaman onlar Azərbaycan dövləti ilə əlaqəyə girib bu məsələlərlə bağlı müəyyən informasiya ala bilərlər. Verilən qərar Avropa Parlamentinin statusuna uyğun deyil, hüquqi anlayışdan uzaqdır. Görünən odur ki, Avropa Parlamentindəki müəyyən dairələr ölkəmizi özlərinin forpostuna çevirmək niyyətindən əl çəkmir".

❑ Etibar SEYİDAĞA

YENİ MÜSAVAT
N 129 (6743) 17 iyun 2017

**Azərbaycanda büdcə pullarının nağdılaşdırılaraq ələ keçirilməsi sxemi detallı şəkildə ortalığa çıxıb. "Obnaliçka" - nağdlaşdırma əməliyyatlarının iştirakçıları, onları həbs edib, rüşvət müqabilində azad edən MTN-çilər Sabunçu Rayon Məhkəməsinin binasında olduqca ilginc ifadələri dilə gətiriblər. Bu ifadələri illərdir mətbuatda yazılanların təsdiqi də hesab etmək olar.**




# Müdafiə Sənayesi Nazirliyinin adı qarışan müdhiş "obnaliçka" əməliyyatının sensasion təfərrüatları

## "Yeni Müsavat"ın MSN-dəki nağdlaşdırma haqda 2009-cu ildə yazdıqları "MTN işi"ndə təsdiqləndi

Bakı Şəhər Hərbi Məhkəməsinin icraatında olan MTN-in sabiq baş idarə və idarə rəisləri - generallar Sübahir Qurbanov, Teymur Quliyev, Natəvan Mürvətova, həmin qurumun vəzifəli şəxsləri Füzuli Əliyev, Zaur Məmmədov, Natiq Alıyev, Fərhad Atayev, Anar Şirəliyev, Eşqin Əliyev, Elşad Əzizovun barəsində olan cinayət işi üzrə sonuncu məhkəmə proseslərindən birində İlkin İbadov ifadə verib. O, hazırda iş üzrə zərərçəkən statusundadır. İfadəsində deyib ki, 2015-ci ilin əvvəllərinə qədər dayısı oğlu, epizod üzrə əsas zərərçəkmiş sayılan Kamal Seyfullayevin rəhbərlik etdiyi iki şirkətdə - "Bakı-Tikinti" və "Alfa-Tikinti" şirkətlərində direktor vəzifəsini icra edib.

Məhkəmədə bu şirkətlərin yalnız adlarının tikinti şirkəti olması üzə çıxıb. Faktiki isə bu şirkətlər yarandığı gündən 1 tikinti belə həyata keçirməyiblər.

*Bəs bu şirkətlər əslində nə işlə məşğul olublar?*

İ.İbadov 2014-cü ilin dekabrında Kamal Seyfullayev zəng edib və onu yanına çağırıb. Birgə "Texnikabank"ın Tibb Universitetinin yaxınlığında yerləşən "Xəzər" filialına gediblər. Oradan 3 ağzına kimi dolu kisədə pul götürüblər. 2 gün ərzində dayıoğlu ilə bibioğlu bankdan cəmisi 18 milyon manat büdcə pulunu nağd şəkildə alıblar. Və pulun izi "MTN işi"nin cildlərinə qədər gəlib çatıb.

Pulun izinin üzərinə səpələnən tozu məhkəmədə vəkillər üfürməyə cəhd etsələr də, bunun üçün vəsatətlə çıxış etsələr də, hakimlə dövlət ittihamçısı hesab ediblər ki, həmin vəsatətlərə baxılmasa yaxşıdır.

Məhkəmədə hakimlə dövlət ittihamçısının mövqeyi itmiş pulların izini azdıran İ.İbadovla K.Seyfullayevin də marağı çərçivəsinə həddən artıq uyğun görünüb.

İ.İbadov ifadəsində həmin gün K.Seyfullayevlə banka getdiklərini, oradan külli miqdarda pul çıxardıqlarını söyləyib.

"Getdik banka. Mən dayanmışdım küçədə, o isə içəridə söhbətini edirdi. Bankdan pul götürərək inkassator maşınına qoyduq və pulları tanımadığım bir şəxsə təhvil verməyə gəldik. Oradan ayrılarkən bizi tutdular", - deyə İ.İbadov bildirib.

**Əlavə edib ki, onu MTN-də 3 gün saxlayıblar:** "Mənim Kamalın nazirliyin əməkdaşları ilə apardığı söhbətlərdən xəbərim yox idi. 3 gündən sonra bizi buraxdılar".

O, MTN-dən çıxarkən Kamal Seyfullayevin "müflis oldum" dediyini əlavə edib və qeyd edib ki, nazirliyin əməkdaşları dayısı oğlundan 2 milyon manat tələb ediblər.

Dövlət ittihamçısının suallarını cavablandırarkən İ.İbadov bildirib ki, direktoru olduğu MMC-lərin təsisçilərinin kim olduğunu bilmir, lakin Kamal Seyfullayev təsisçi olmasa da, həmin şirkətlərə rəhbərlik edib. Eyni zamanda, zərərçəkmiş direktoru olduğu şirkətlərin yarandığı ili xatırlaya bilməyib. Sözlərinə görə, bankdan çıxdıqdan sonra onlar inkassator maşını ilə "Olimpik Star" idman sarayının yaxınlığından sola tərəf hərəkət ediblər və qarajların yaxınlığında inkassator maşınından pullar Kamal Seyfullayevə məxsus "Niva" avtomobilinə yüklənib. Sonra isə tanımadığı hündür bir şəxs gələrək, pul kisələrini Kamaldan götürərək aparıb.

İ.İbadov vəkillərin suallarını cavablandırarkən direktoru olduğu 2 şirkətdən birinin heç olmasa bir tikinti işini xatırlaya bilməyib.

**Suallara cavab olaraq deyib ki, pul çıxarmaq üçün bir çox banklara gedib:** "Çox banka getmişəm. Hara pul vururdularsa, ora da gedirdim".

"O pulları niyə vururdular" sualına isə "Nəsə almaq üçün, nəsə eləmək üçün. Mən də gedib götürürdüm" cavabını verib.

Deyib ki, pulların kimə çatdığını bilmir, özü isə direktor olaraq maaş alıb.

İ.İbadovun dayısı oğlu Kamal Seyfullayev ifadəsində deyib ki, kommersiya işi ilə məşğul olub və həmin işə görə 2014-cü ilin dekabr ayının 25-də MTN-ə aparılıb. Orada 3 gün saxlanıldıqdan sonra zərərçəkmişdən 2 milyon manat pul istənilib. Pulu verə bilməyəcəyini dedikdə, onu 1 kiloqram heroinlə təhdid edərək, 12-15 il müddətinə həbs cəzası ilə hədələyiblər. "Bilirdilər ki, bankda pul var, gedib götürdülər, o gündən də müflis oldum və indiyə qədər camaatın borcunu qaytarıram", - K.Seyfullayev ifadəsini bu sözlərlə bitirib.

Dövlət ittihamçısının "Rəhbərlik etdiyiniz tikinti şirkətlərinin təsisçiləri kim idi" sualına cavab olaraq bildirib ki, təsisçilərin adlarını çəkə bilməz, lakin MMC-lərin fəaliyyətinə özü rəhbərlik edib.

K.Seyfullayev bankdan çıxarılan 3 kisə pulun mal-materialların, fəhlələrin pulu olmasını iddia etsə də, "Kimə verdiniz o pulu" sualına "Bu mənim şəxsi işimdir və kommersiya sirridir" cavabını verib.

K.Seyfullayev istintaqa verdiyi ilk ifadəsində deyib ki, 2 milyon manat pulu Novxanıdakı bağından götürüb və MTN-çilərə verib. Məhkəmədə isə deyib pulu Bankdan götürüb verib. O, bu ziddiyyəti aydınlaşdırmayıb.

Vəkilin rəhbərlik etdiyi şirkətləri kimdən aldığı və həmin şirkətlərin rəhbərlərinin kim olması barədə suallarını zərərçəkmiş cavablandırmayıb və "xatırlamıram" kimi absurd cavabla kifayətlənib. "Məktəb tikmisiniz" sualına isə Kamal Seyfullayev "bu mənim kommersiya sirrimdir" cavabını verdikdə vəkilin səbri çatmayıb: "Siz hansı kommersiya sirrindən danışırsınız? Nə şirkət adınıza deyil, MMC-lərlə heç bir hüquqi əlaqəniz yoxdur, sizin hansı kommersiya sirriniz ola bilər?"

Vəkilin bu sualından sonra K.Seyfullayev özünü pis hiss etdiyini deyib. Bankda pulları kimin imzası ilə götürməsi sualına cavab veriv ki, o adamların adlarını çəkə bilməz və bu "kommersiya sirri"dir.

Məhkəmədə üzə çıxıb ki, K.Seyfullayev MTN-çilərdən şikayət edib və sonradan şikayətini geri götürüb. Bundan sonra İrana gedən K.Seyfullayev epizod üzrə şahid Yasin Muxtarova İrandan zəng edib və bildirib ki, "sənin zibilinə düşmüşəm, gəl, qurtar".

Cinayət işinin materiallarına görə, İ.İbadovla K.Seyfullayevin "Texnikabank"dan götürdükləri 3 kisə pul Müdafiə Sənayesi Nazirliyinə (MSN) aid dövlət büdcəsindən ayrılmış vəsaitlər olub.

K.Seyfullayev bu pul əməliyyatlarından cəmi 50-100 min manat qazanıb.

Bəs MSN-də 2009-cu ildə nağdılaşdırılaraq mənimsənilən 8 milyonun hesabını soran olacaq?

MSN-dəki nağdılaşdırma əməliyyatı haqda "Yeni Müsavat" qəzeti 2009-cu ilin martından başlayaraq silsilə yazılar dərc edib. Həmin yazılardan biri "Nazir Yavər Camalovun müdhiş yeyintisi" adlanırdı.

Həmin yazıdan sitat:

"Müdafiə sənayesi naziri Yavər Camalovun 25 dekabr 2007-ci ildə verdiyi 426 saylı əmr əsasında zavodların balansına verilmiş yeni alınmış avadanlıqların qiymətləri ilə bu avadanlıqları satan firmaların həmin avadanlıqlara qoyduğu qiymətlərin müqayisəsini ortaya çıxaran cədvəl də əlavə olunub.

Yazıda həmin cədvəlin bir hissəsini də təqdim edirik. Cədvəldən göründüyü kimi, alınan avadanlıqların qiyməti 4,7 faizdən başlayaraq, 89 faizə qədər şişirdilib. Təkcə 12 dəzgahın alınmasından 3 milyon 892 min manat vəsait mənimsənilib. Nazirin 426 saylı əmrində göstərilən avadanlıqların alışında, şişirtmə orta hesabla 8 dəfə qəbul olunarsa, avadanlıqların alınmasına sərf olunduğu göstərilən 9 milyon 399 min 558 manatın 8 milyon manatı mənimsənilib. Müdafiə sənayesinin inkişafı məqsədilə büdcədən ayrılmış vəsaitin mənimsənilməsi prosesində istifadə olunan ikinci variant nazirliyin tabeliyində olan zavodların istehsal etdiyi məhsulların satışından əldə olunan pulların yeyilməsi və istehsal müəssisələrinin yaradılması üçün ayrılan vəsaitlərin oğurlanmasıdır. Nazirliyin işçiləri bildirirlər ki, həmin vəsaitlər demək olar ki, bütövlükdə zavod direktorları tərəfindən həmin an nağdılaşdırılır və nazirin birinci müavininə (Yəhya Musa oğlu Musayev) qaytarılır. Onların sözlərinə görə, zavodların hesab açdıqları banklar yoxlanılarsa, həmin nağdılaşma əməliyyatları görünər. Zavodlar isə tələm-tələsik, kobudcasına, böyük səhvlərə yol verərək həmin vəsaitləri silirlər. Səthi bir yoxlama bu faktları aşkara çıxaracaq.

Yeyinti prosesində istifadə olunan üçüncü yol isə ölkə prezidentinin sərəncamından sui-istifadədir. Nazirliyin işçilərinin sözlərinə görə, prezident müdafiə sənayesinin inkişafını təmin etmək, zavodların büdcəyə və banklara olan borclarını dondurmaq üçün sərəncam verib: "Bu sərəncam demək olar ki, zavodları maliyyə böhranından çıxararaq istehsal müəssisələri qurmaq üçün münbit şərait yaradır. Təəssüf ki, nazirliyin rəhbərliyi bu imkandan başqa məqsəd üçün istifadə edir. Nazirliyin göstərişi ilə MSN-in tabeliyində olan bütün zavodlar böyük məbləğlərdə kredit götürüblər. Həmin kreditlərin 70-80 faizi nağdılaşdırılaraq nazirliyin rəhbərliyinə rüşvət olaraq verilib. Zavodlar alınmış kreditlərin rüşvət hissəsini silmək məqsədilə guya təmir işlərinin aparıldığı haqda saxta sənədlər hazırlayıblar. Həmin sənədlərdə sexlər yerləşən binaların damlarının əsaslı təmir olunduğu göstərilir. Halbuki yağış yağan kimi, sexlərdə bütün avadanlıqlar su altında qalır".

Şikayətçilər dediklərinin təsdiqi kimi məktublarına nazir Y.Camalovun 426 saylı əmrini də əlavə ediblər. Həmin əmrdən görünür ki, 8 may 2007-ci ildə alınmış və dəyəri 1 milyon 872 min 830 manat 10 qəpik olan 5 dəzgah nazirliyin tabeliyində olan "İqlim" Elmi-İstehsalat Birliyinə, 717 min 52 manat 56 qəpik qiyməti olan 2 dəzgah isə "Elektron" Hesablayıcı Maşınlar Zavodunun balansına verilib. Eyni zamanda 11 may 2007-ci il tarixli, 018 nömrəli müqavilə üzrə 4 milyon 616 min 84 qəpiyə, 21 may 2007-ci il tarixli 20 nömrəli müqavilə 923 min 122 manat 80 qəpiyə və nəhayət, 24 oktyabr 2007-ci il tarixli, 039 nömrəli müqavilə üzrə 1 milyon 377 min 966 manat 10 qəpiyə alınmış dəzgah və avadanlıqlar MSN-in balansından çıxarılaraq Qeyri-Standart Avadanlıqlar üzrə İstehsalat Birliyinin "İskra" zavodunun balansına verilib.

"Avadanlıqların balansdan-balansa verilməsi haqqında" olan əmrin icrasına nəzarət isə şikayətdə adı hallanan Y.Camalovun 1-ci müavini Y.Musayevə həvalə edilib. Şikayətdə göstərilən cədvəldə isə şişirtmələrin konkret hansı dəzgahların alınmasında həyata keçirilməsi də qeyd olunub. Məsələn, özəl firmalar 3 koordinatlı frez dəzgahının 1 ədədini 43 min 200 manata satsalar da, MSN bu qiymətə aldığı 3 dəzgahın hər birini 332 min 324 manata rəsmiləşdirməklə 7,6 dəfə şişirtməyə yol verib. Alınan 4 koordinatlı 3 frez dəzgahının bazar qiyməti 43 min 200 manat olsa da, MSN-in sənədləşdirilməsində onların hər birinin qiyməti 384 min 728 manat 16 qəpik göstərilib. Bu dəzgahların alınmasında 8,9 dəfə şişirtməyə yol verilib. Bazar qiyməti 44 min 455 manat olan pardaxlama dəzgahı isə 212 min 500 manata rəsmiləşdirilməklə qiyməti 4,78 dəfəyə kimi şişirdilib. 22 min alış qiyməti olan xonlama dəzgahının rəsmiləşdirilməsi zamanı isə fantastik şişirtməyə yol verilib. Dəzgahın qiyməti 1 milyon 960 min manata rəsmiləşdirilib. 4 ədəd torna dəzgahı üçün 60 min 200 manat ödənilsə də, MSN-in sənədləşməsində bu məbləğ 917 min 41 manat 2 qəpik kimi göstərilib".

Qayıdaq məhkəmə prosesinə.

Məhkəmədə aydın olur ki, K.Seyfullayev dövlətin 18 milyon manat pulunu 2 gün ərzində çıxarıb "buxarlandırsa" da, bu gün də əməlinə görə cavabsız qalacağına əmindir. Odur ki, məhkəmədə Azərbaycanın istintaq orqanlarına meydan oxumaqdan da çəkinməyib. Deyib ki, bilərəkdən heç kimin adını çəkmək istəmir.

Digər tərəfdən məlum olub ki, "Texnikabank"dan 2014-cü ilin dekabr ayında K.Seyfullayevin adına hər hansı pul hərəkəti olmayıb və hesabı mövcud deyil.

*Bəs MSN-nin 3 kisə pulunu K.Seyfullayevə kim və nəyə görə verib?*

Bu sualın araşdırılmasının qarşısı məhkəmədə alınıb.

Təqsirləndirilən Füzuli Əliyev məhkəmədə Vergilər Nazirliyinə verilmiş sorğuya alınmış cavabda yazılanlardan danışıb. Deyib ki, həmin cavaba görə işdə K.Seyfullayevin sahibi olduğu kimi adları keçən şirkətlərin heç birinin aidiyyatı yoxdur.

MTN-çi K.Seyfullayev haqda bunları hakimin diqqətinə çatdırıb: "Kamal Sefullayevi 2005-ci ildən tanıyıram. Bu adam "obnaliçka" ilə məşğul olan məşhur maklerdir".

İş üzrə şahid qismində ifadə verən "Texnikabank"ın "Xəzər" filialının müdiri olmuş Fərid Məmmədov deyib ki, 2014-cü ilin dekabr ayının 24-25-də Kamal Seyfullayevə rəhbərlik etdiyi şirkətlərin adına köçürülən 18 milyon manat vəsait verib.

Təqsirləndirilən MTN-çi F.Əliyev K.Seyfullayevin vasitəsi ilə nağdlaşdırılan milyonlarla manat büdcə pullarının kimin cibinə getdiyindən xəbərdar olmasını gizlətməyib: "Əsl həqiqəti mən də bilirəm, Kamal Seyfullayev də bilir, qismən vəkillərə də məlumdur. Bu şirkətlərin kimə məxsusluğu barədə heç kim danışmaq istəmir. Həmin şirkətlər məhz bu əməliyyatların keçirildiyi 2014-cü ildə yaradılmışdı. Hər il belə şirkətlərin neçəsi açılır, neçəsi bağlanır, mən bilirəm. Bu şirkətlərin kimə məxsus olmasını siz də bilirsiniz və onların Kamal Seyfullayevə heç bir aidiyyatı yoxdur. Çünki sabah məhkəmə həmin şirkətlərin dövriyyəsini çıxarsa, məlum olar ki, o şirkətlərin işi hər gün pul çıxarmaqdan ibarətdir. Kamal Seyfullayev bu işdə yalnız maklerlik edib. Mən bu barədə geniş ifadə verəcəyəm, lakin bilirəm ki, bank əməkdaşı da bilir ki, Kamal Seyfullayevin adına heç bir hesab olmayıb".

F.Əliyevin bildikləri haqda ətraflı danışması məhkəmənin təxirə salınması üzündən baş tutmayıb. Çox güman ki, F.Əliyev bu haqda danışmayacaq da. Sadəcə özünü xilas etmək üçün bildikləri bir şeylər olduğunu ortaya atdı və dayandı. Məhkəmədə onun bildiklərini ətraflı danışmasını istəyən tərəf yoxdur. O səbəbdən ki, danışsa, hər gün həyata keçirilən nağdlaşdırma əməliyyatlarının bütün iştirakçıları, ən əsası isə başında dayananları da istintaqa cəlb etməkdən başqa yol qalmır.

**Bunu etmək həvəsində olan qurum MTN ləğv olunana qədər də olmayıb, bu gün də yoxdur, çətin ki, yaxın gələcəkdə də olsun. Ortada 18 milyonluq nağdılaşdırmanın detalları var, araşdırma bir qədər də genişləndirilsəydi, 18 rəqəmin ardına sıfırlar artırılmalı, bir çoxlarının iri vəzifələri də MTN kimi sıfırlanmalıdır.**

❑ **E.MƏMMDƏLİYEV**

YENİ MÜSAVAT
N 129 (6743) 17 iyun 2017

# Torpaqlarımızın itirilməsinə hakimiyyətsizlik səbəb olub, yoxsa...

## Sabir Rüstəmxanlı: "Müharibə şəraitində yaşayan ölkədə hökmən milli birlik lazımdır"

**Azərbaycan əraziləri işğal olunduqdan sonra zaman-zaman müxtəlif illərin iqtidarının bir-birini ittiham etdiyinin şahidi oluruq. İlk prezident Ayaz Mütəllibov iqtidarının tərəfdarları AXC-Müsavat hökumətini, bu hakimiyyət də həm özündən əvvəlki Mütəllibov iqtidarını, həm də özündən sonrakı indiki hökuməti suçlayır.**

Hazırkı iqtidar da özündən əvvəlki iqtidarları günahlandırır. Mövcud durumu aradan qaldırıb, bütün gücü düşmənə qarşı səfərbər etməyin vacibliyini vurğulayanlar çox olsa da, son 24 il ittihamları aradan qaldıra bilməyib.

**VHP sədri, xalq şairi Sabir Rüstəmxanlı** partiyasını yaradanda bu birliyi nəzərdə tutduğunu bildirdi: "Vətəndaş Həmrəyliyi Partiyasını yaradanda bu birliyi nəzərdə tutmuşdum ki, müharibə şəraitində yaşayan bir ölkədə hökmən milli birlik lazımdır. Ayrı-seçkilik salan etnik qarşıdurmalar və bu tipli problemlərin meydana çıxmasına imkan vermək olmaz. Azərbaycançılıq ideyasını da bu şəkildə qəbul etmişik ki, ölkənin bütün vətəndaşlarına bir gözlə baxmaq lazımdır. Ümumi vətən ideyası hər şeydən yüksəkdə dayanmalıdır. Çox təəssüflər olsun ki, hakimiyyət ehtirasları 1988-ci ilin meydan hadisələrindən görünməyə başlamışdı. Qarabağ uğrunda millət meydanlara yığışmışdı. O zaman meydanı idarə edən şəxslərdən biri idim. Çadırlarda hansı havanın oynadığı, hansı söz-söhbətlərin getdiyini müşahidə etmək imkanım var idi. O vaxtdan görünürdü ki, ermənilər torpaq iddiasında, bizimkilərin də bəziləri hakimiyyət iddiasındadırlar. Burada o vaxtkı rəhbərlərin səriştəsizliyi, Kremlin tapşırığı ilə millətdəki son ov silahlarının belə yığılması, Ermənistandan qovulan azərbaycanlıların Qarabağda deyil, Bakıda yerləşdirilməsi ilə sanki süni şəkildə bir münaqişə ocağı yaradılırdı. Bakıda milli qırğın törətmək istəyənlər var idi. Çox işlər var idi. Təəssüflər olsun ki, baş verənlərin qarşısını almaq mümkün olmadı. Bu gün də bu, davam edir. Çox iyrənc şəkil alıb. Adamlar belə söz-söhbətlərə qulaq asmaqdan yorulublar. Kim günahkardırsa, bu geridə qalan məsələdir. Günahı olanlar cəzalarını alıblar, ifşa olunublar. Azərbaycan müxalifəti və iqtidarının durumu ortadadır. Ölkədə nələrin baş verdiyini də hər kəs görür. Amma bu gün bunların hamısının gecə-gündüz təhlil olunmasına, qarışıqlı ittihamlara heç bir ehtiyac yoxdur. Xırda, xoş niyyətli tənqidlər ola bilər. Siyasi mübarizənin qayda-qanunları var. Amma bizdə bunların hamısı düşmənçilik səviyyəsindədir. Təkcə iqtidar-müxalifət qarşıdurması getmir, bu gün müxalifətin daxilində bir-birilərini yeməyə hazır olan qüvvələr, rəqiblərini yer üzündən silməyə hazır olanlar var. Vaxtilə çiyin-çiyinə dayanan insanlar bu gün bir-birilərini didməyə hazır vəziyyətə gəliblər. O zaman Xalq Cəbhəsində ilk qopmalar başlayanda fikrim var idi ki, müharibə şəraitini düşünüb bir müddət siyasi partiyalar yaratmaq işlərini təxirə salmaq lazımdır. Çünki bunların arxasında nələrin dayandığını yaxşı görürdük. Siyasi prosesləri ölkənin müdafiəsinə yönəltməyin vacibliyini dərk edib, bunları dilə gətirirdik. Amma əfsuslar olsun ki, o zaman siyasi şüarlarla reallığı nəzərə almayıb, belə situasiyalarda xalqların necə davrandığını düşünməyib, bizdə sanki heç nə olmamış kimi partiyalarını yaratmağa başladılar. Sonradan bu partiyaların bir çox bəzilərinin əlində oyuncağa çevrildilər. Hakimiyyət davası aparanların bir çoxu alət oldular. Bu da uzun müddət sağalmayacaq yaralar açdı. Birlik şansları sıfıra düşdü".



**S.Rüstəmxanlı iqtidarla müxalifət arasında hökmən səmimi dialoqun olmasına ehtiyac duyduğunu da dilə gətirdi:** "Vətən, ölkəmizin gələcəyi naminə bu dialoq açılmazdır. Heç kim heç kimi həyatdan silib ata bilməz. Kimsə deyə bilməz ki, müxalifət tamam yox olub. Kim hakimiyyətdə yoxdursa, müxalifət düşərgəsindədir. Hər kəsin öz qayğıları, problemləri var. Milli ideyalarımızı nəzərə alıb, müxalifət də öz daxilində birlik yaratmalıdır. Şəxsi ambisiyaları, məqsədləri bir kənara qoyub, hökmən vahid birlik yaradılmalıdır. Milli barış, birlik zərurətdir. Azərbaycanın gələcəyi üçün yeganə yol budur. Mən prosesləri bu cür görürəm".

❑ Cavanşir ABBASLI

# "Azərbaycan yeganə dövlətdir ki, yalnız büdcə hesabına məscidlər tikir"

## Ekspert: "Taxıl üçün pul tapa bilmədiyimiz dövrdə Bibiheybət məscidi bərpa edildi"

**Prezident İlham Əliyevin tapşırığına əsasən Çocuq Mərcanlı kəndində Şuşa məscidinin bənzəri olan məscid tikilib. Bu müqəddəs ocağın inşası işğalçı Ermənistana və beynəlxalq aləmə bir mesajdır ki, Azərbaycan İslam dünyasının bir parçasıdır və öz tarixi keçmişinə sadiqdir.**



Mövzu ilə bağlı "Yeni Müsavat"a danışan **politoloq Mübariz Əhmədoğlu** bildirib ki, Azərbaycan hökumətinin İslama qarşı münasibəti hər zaman normal olub. Politoloq bir neçə faktlara diqqət çəkib: "Ötən illərə nəzər salsaq görərik ki, mərhum prezident Heydər Əliyev hakimiyyətə gəldikdən sonra Azərbaycan taxıl üçün pul tapa bilmədiyi dövrdə, Bibiheybət məscidi bərpa olundu. Ancaq bu ayrı məsələdir ki, Azərbaycandakı İslama siyasi və qərəzli münasibət də var. Çox təəssüf ki, bu cür münasibətin daşıyıcıları bizim öz ölkəmizin vətəndaşlarıdır. Eləcə də o da faktdır ki, vətəndaşlarımızı siyasi İslama yönəldənlər isə bəzi qonşularımız, xarici ölkələrdir. Bu baxımdan onlar özlərinə lazım olduğu zaman Azərbaycan hakimiyyətinin İslam dininə münasibətini fərqli formalarda qabardırlar. Yuxarıda vurğunu öz vətəndaşlarımızın üzərinə qoymaqda səbəbim var. Belə ki, İranda prezident seçkilərini yaxından izlədik və bəlli oldu ki, Azərbaycanda bir qrup dindar əslində İranda Ruhaninin məğlub olması, Rəisinin isə qələbə çalması istiqamətində çalışırmış. Bunlar Ruhanini ona görə istəməyiblər ki, o, prezident olduğu dönəmdə Azərbaycanla münasibətləri normallaşdırıb. İslamın birinci kəlməsi "salam"dır və bu sözün mənası sülh deməkdir. Dinimiz boynumuza hökm qoyub ki, rastlaşdığım müsəlmana "salam" deyim. Eləcə də qarşı tərəfin də borcudur ki, buna qarşılıq versin. İndi isə İslam dövlətinin başçısı Azərbaycanla münasibətləri normallaşdırıbsa, bu günahdırmı? Qeyd etdiklərim onu göstərir ki, Azərbaycanda xəstə düşüncəli insanlar da var. Bunları görəndə başa düşürsən ki, ölkədə adını mömin qoyan bir qrup adamın anlayışındakı İslam real, həqiqi İslamdan nə qədər uzaqdır".

**Politoloq bildirib ki, prezident İlham Əliyev də dinlə bağlı ölkədə xeyli işlər görüb:** "İlham Əliyev dövlət büdcəsinin hesabına ölkədə yeni məscidlər tikdirib, bir qismini də bərpa etdirib. Yəni bütün bunların hamısı göstərir ki, İlham Əliyev hökuməti də həqiqi İslam ideyalarının yaranması istiqamətində fəaliyyət göstərir. Azərbaycan İslam cəmiyyəti olan yeganə dövlətdir ki, dindarların pulu dövlət büdcəsinə dini parametrlər üzrə daxil olmur. İranda, Türkiyədə və digər dövlətlərdə dindarlar dövlətin büdcəsinə pul verirlər. Azərbaycan yeganə dövlətdir ki, başqa sahələrdən qazandığı vəsaitin hesabına məscidlər tikir, dinin inkişafına maliyyə ayırır. Azərbaycan hakimiyyətinin İslam dininə münasibəti müsbət olub və bu gün də davam etməkdədir".

**Politoloq hakimiyyətin ölkədə dini sabitliyin yaradılması istiqamətində atdığı addımlardan da danışıb:** "Kimsə istəyirsə ki, İslam adı ilə Azərbaycanda çaxnaşma yaratsın, bu qrupların hansı xarici dövlətlərin maliyyələşdirməsindən asılı olmayaraq onlar ciddi şəkildə nəzarətdə saxlanılır. Ölkədə dini sabitliyi təmin etməyin bir tərəfi dinə müsbət qayğı, təbliğatdırsa, digər tərəfi isə dini xuliqanları neytrallaşdırmaqdır. Əsil İslama görə vətəndaşının qayğısına hakimiyyət qalmalıdır. Yoxsa beş-altı adamın küçədə qışqırması heç kimə fayda verməz. Qarşıda "Qüds günü" də gəlir. Bu "Qüds günü" ideyasını dəstəkləyən dövlətin maşınları hər gün baxırsan ki, Dağlıq Qarabağdadır. Necə olur ki, sən Qüdsü müdafiə edirsən, ancaq müsəlman dövlətinin torpağını işğal edən erməninin əleyhinə çıxmırsan. Bu bir yana, hətta onlara yardım da edirlər. Bizim dindarlar da bunu anlasınlar ki, bizim İslam dini də ən azından dövlətçiliyin zəifləməsinə xidmət etməməlidir və ona görə də işlərini bu istiqamətdə qurmalıdırlar".

❑ Əli RAİS



# Ötən ay 264 əcnəbinin Azərbaycana girişi məhdudlaşdırılıb

**May ay ərzində 1856 əcnəbi tərəfindən Azərbaycanda olma, habelə müvəqqəti və daimi yaşama qaydalarına əməl etmədən inzibati qanunvericiliyin tələblərinin pozulması halları müəyyən edilib.**

Dövlət Miqrasiya Xidmətindən APA-ya verilən məlumata görə, onlardan 27-nin Azərbaycan ərazisində müvəqqəti və ya daimi yaşamaq üçün əsas verən sənədləri itirildiyindən yenisi ilə əvəz olunub, 220 nəfərin ölkə ərazisində yaşamaları leqallaşdırılıb.

İnzibati qaydada ölkə ərazisindən çıxarılmamaqla cərimə tətbiq olunma ilə bağlı 887, inzibati qaydada ölkə hüdudlarından kənara çıxarılmaqla cərimə tətbiq olunma ilə bağlı 458, Miqrasiya Məcəlləsinin 16.1.8-ci maddəsinə əsasən ölkə ərazisinə girişinin məhdudlaşdırılması ilə bağlı 264 şəxs barədə qərarlar qəbul edilib.

Ay ərzində Dövlət Miqrasiya Xidmətinə əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən ölkədə müvəqqəti olma müddətlərinin uzadılması, müvəqqəti və daimi yaşamaq üçün icazələrin verilməsi, vətəndaşlığa qəbul, xitam, bərpa, eləcə də vətəndaşlıq mənsubiyyətinin və qaçqın statusunun müəyyənləşdirilməsi, həmçinin əmək fəaliyyətinin həyata keçirilməsi üçün iş icazələrinin verilməsi və mövcud iş icazələrinin müddətlərinin uzadılması ilə bağlı 7667 müraciət daxil olub. Müraciətlərin hər biri ayrı-ayrılıqda Azərbaycan qanunvericiliyinin tələblərinə uyğun olaraq araşdırılıb və müvafiq qərarlar qəbul edilib.

**Ötən ay ərzində olduğu yer üzrə qeydiyyatla bağlı 56 600 əcnəbinin müraciəti qeydə alınıb.**

YENİ MÜSAVAT
N 129 (6743) 17 iyun 2017

# Rusiya xarici siyasətinin "erkək Tükəzbanı"

## Mariya Zaxarova Lavrovun komandasına necə düşdü...



**DOSYE: Mariya Zaxarova. Rusiya XİN-in rəsmi sözçüsü. Doğum tarixi - Moskva, 24 dekabr 1975. Çəkisi: 59 kq. Amma... amma əsl çəkisini onu bağrına basıb qucağında gəzdirənlər bilər. BOYU: 170 sm.**

**GEYİM ZÖVQÜ:** Rusiyanın "Akimbo" tekstil şirkəti Zaxarovanı çoxdan gözaltı edib. Vaxtaşırı Mariyanın ünvanına öz məhsullarını, qadın geyimlərini göndərir. Yəni bu qadın Rusiya tekstil sənayesinin bir növ modelyeri, manikenidir həm də. Barter razılaşmaları əsasında öz geyim qarderobunu zənginləşdirir. Vaxtaşırı gedir "Akimbo"nun tikiş sexlərinə. Orda bəzi sənədləri imzalayır.

***

Qısası, istəyirsiz Zaxarovanın saqqızını oğurlayasız? İstəyirsiz Qarabağ mövzusunda o bizə xatir bir neçə qısa cümlə kəkələsin? Bakıda, yaxud Türkiyədə yaxşı, münasib bir lüks geyim şirkəti tapın bu qadına. Nə bilim... bəlkə məsləhətim çox sadəlövh görünəcək sizə. Ancaq məncə, Zaxarova ilə biz öz yeni dialoqumuzu məhz bu vacib nöqtədən başlasaq, hamımız üçün yaxşı olar. Zaxarova həm yeni tekstil sənayemizin reklamını yapar Moskvada, həm milli maraqlarımızı müdafiə edər öz gərgin brifinqlərində.

**LAVROV KOMANDOSLARI:** "Smolensk" meydanındakı Rusiya XİN-in möhtəşəm göydələni Stalin yadigarıdır. Binanın doqquzuncu mərtəbəsində Sergey Lavrovun rəsmi iş otağı yerləşir. Kabinetə icazəsiz-filansız girib çıxanların hamısı, o cümlədən Mariya Zaxarova, digər əməkdaşlar arasında "Lavrov komandosları" kimi tanınır. Sonuncuları təkcə siyasət deyil, həm də ekstrim idman növləri birləşdirir. Komanda üzvləri, o cümlədən Mariya Zaxarova, öz məzuniyyətlərini iti axarlı Sibir, Altay, Kareliya çaylarının kənarlarında keçirirlər adətən. Rezin qayıqlara hava doldurub, qısa avarlarını vururlar qoltuqlarına. Atılırlar vəhşi suların qoynuna. Bir saman çöpü kimi çay üzərində axa-axa dəqiqəbaşı çopur qayalara çırpılırlar. Başlarındakı dəmir dəbilqələr üzərində vahid şüarları da var -"Vəhşi sular, geri çəkilin".

İstəyirsən Lavrovun ən yaxın ətrafına, canından bezmiş komandasına düşəsən? Gərək hökmən... mütləq bu qorxulu ekstrim idman klubuna üzv yazılasan. Canını dişinə tutub, özünü vəhşi suların axarına atasan. Rusiya XİN-indəki müasir karyera pilləkanı beləcənə qurulub.

**HƏLLEDİCİ AN:** Mariya Zaxarova bir gün Rusiya XİN-in bu vacib damarını tapıb özünü atır vəhşi dağ çaylarının burulğanına. Nəticədə, necə deyərlər, düşür Lavrovun radarına. Bir gün Lavrov ilə birgə rezin qayıqda iti sürətlə üzü aşağı üzür. O qayaya çırpılır, bu qayaya dəyir. Sanki o dünyaya gedib-qayıdır. Qayıqdakılar axır Mariyanı özününkü bilib, komandaya üzv yazırlar.

MÜƏMMALI ƏRİ: O, hadisələrin də gur, vəhşi axarını sevir. 2005-ci ildə BMT-dəki Rusiya nümayəndəliyinin mətbuat katibi vəzifəsini qazanınca gözü doymur. Sakitləşmir. İstəyir məhz Nyu-Yorkda öz toy məclisini keçirtsin. Qonorar-filan soruşmadan məşhur fotoqraf Nikolay Komissarova öz toy məclisinin tam erotik, şəhvət dolu foto-sessiyasını sifariş verir. Təzəlikcə çap edilmiş bu köhnə fotolarda Zaxarova ilk dəfə öz əri Andrey Mixayloviç Makarovu utanıb-çəkinmədən cəmiyyətə təqdim edib. Vəhşi ehtiras səhnələri ilə zəngin bu fotolara inanmıram kimsə laqeyd münasibət bildirsin.

HİYLƏGƏRDİ. Yamanca pendir sevəndi. Öz pendir tədarükünə adətən kiçik provokasiyalardan başlayır. Brifinqlərində Rusiya pendir istehsalçılarını bilə-bilə aşağılayır misal üçün. Nəticə özünü çox gözlətmir. Rusiyadakı əksər pendir istehsalçıları başlayırlar öz məhsullarını qutu-qutu, səbət-səbət Zaxarovaya göndərməyə. Aldığı sovqatları o tərifləməyi də unutmur. Sözarası deyir bəs Krasnodarda yaxşı pendir istehsalçıları var.

Oxşar üsul ilə vaxtaşırı Azərbaycana da sataşır. İstəyir biz də onun ünvanına qutu-qutu, səbət-səbət ləziz nemətlərimizi göndərək.

**TALE ZƏRBƏSİ:** Krım barədə danışarkən həmişə ağzına çullu dovşan sığmır. Ağzından od-alov püskürür. Krım sakinləri barədə heç nə deyə bilmərəm. Ancaq Krım köpəkləri özünəməxsus şəkildə cavab veriblər Mariya Zaxarovaya. Yazığın qızı Maryananı bir gün cürət edib Sevastopolda möhkəm dişləyiblər. O gündən etibarən Zaxarova Krım mövzusunda ehtiyatla danışır. Qısası, bu qızın canında mistik xof var. Onu ancaq mistik silah ilə susdurmaq mümkündü.

**BREND-QADIN:** "Rusiya Siqar İttifağı" prezidenti Andrey Loskutov Mariya Zaxarova brendini bir başqa cür tirajlayıb. Üzərinə Mariyanın fotosu yapışdırılmış bahalı Havana siqarlarını xüsusi cəh-cəlal ilə xaricdəki Rusiya səfirliklərinə göndərib. İndi Rusiya səfirləri uzun siyasi söhbətlər zamanı qəfil bu siqarları öz həmsöhbətlərinə təklif edirlər.

Üzərində Mariya Zaxarovanın şəkli parıldayan həmin bahalı siqarlar adətən xaricdə şok effekti yaradır. Tüstüsü rusafobların başını ağrıdır.

**İKİNCİ VƏTƏNİ:** Çin. Valideynləri uzun zaman Pekindəki Sovet səfirliyində müxtəlif məsul vəzifələr tutublar. Mariya, səfirlik binasında böyüyüb başa çatıb. Təhsilini Pekindəki 55 saylı orta məktəbdə çin dilində başa vurub. Valideynləri uşaqlıqda bu qızın qulaqlarını müxtəlif çin nağılları ilə doldurublar. Sonra, 90-cı illərin ac vaxtlarında bu nağıllara daha praktik yanaşıblar. Nağılları ayrıca kitab şəklində çap edib, yaxşıca pul qazanıblar.

Zaxarovanın nənəsi bir gün Çinə gəlib burdakı dərzilərin tikiş texnologiyalarını öyrənir. 90-cı illərdə Zaxarovların bu təcrübəsi ailəni labüd fiziki aclıqdan qurtaracaq. Ailə, Çin tikiş texnologiyalarını istehsala tətbiq edib yerli məhsuldarlığı birə iki artıracaq.

*Kim olacaq bu ssenarinin müəllifi? Təbii ki, Mariya Zaxarova!*

Bayaq yuxarıda adını çəkdiyimiz "Akimbo" tikiş fabriki bəlkə elə bu təcrübənin yadigarıdır. Zaxarovların bir növ gizli biznes sahəsidir. Mariya Zaxarova vaxtaşırı "biznes ilə məşğul olmaq bizim kimilərə yasaqdır" ifadəsini işlədərkən bəlkə buna görə dərindən bir ah çəkir bəzən?

**"ERKƏK TÜKƏZBAN":** Mariya uşaqlıqda gah kosmonavt olmaq istəyib, gah balerina. Moskva Beynəlxalq Münasibətlər İnstitutuna daxil olarkən Çin dilini mükəmməl bilməyi Mariyanın xeyli karına gəlib. Çin dili Mariya üçün həmişə bir növ "çörək ağacı" olub. Eşidin, bilin - o, Kreml ekskursiyalarına gələn Çin turistlərinə bir vaxt bələdçilik, tərcümanlıq da edib hətta. Qazandığı qəpik-quruşla həm nənəsini saxlayıb, həm öz ənnik-kirşan xərclərini çıxarıb.

**BOY-FRENDLƏRİ:** Əri Andrey Makarov, daha çox boy-frendə bənzəyir, nəinki ailə başçısına. "Ekspress-qazeta"nın müxbiri Yelena Kremensova iddia edir ki, məşhur imicmeyker Petr Lidov guya Zaxarovanın növbəti alovlu sevgilisidir. Sübut-dəlil olaraq İnstqram-dakı məhrəm şəkillərini nümunə göstərir. İddia Moskva mətbuatına sıçrayınca, dönür zarafata. Dostlar, tanışlar Zaxarovanın ünvanına saysız təbriklər yağdırıb, yazığı lap çaş-baş edirlər. Qız məcbur qalır mətbuata öz yazılı etirazını bildirsin.

**FƏRDİ TƏCRÜBƏSİNİ İCTİMAİLƏŞDİRMƏYİ BACARIR:** Rusiya XİN-i "Zaxarova" brendini tirajlayarkən uzaq hədəfləri güdüb. İlk olaraq öz danışıq tərzini, öz qrammatikasını dəyişib bu sarışın dəli afətin dilində.

**MƏŞHUR İFADƏLƏRİ:** "Məncə, Rusiya hakerləri Amerikada cəmi iki ünvana qanunsuz müdaxilə etməyi bacarıblar. Bir, cənab Obamanın başına. Hə... bu sözsüzdü... Digər ünvanın adını növbəti brifinqimdə elan edərəm".

**ŞAİR HAZIRCAVABLIĞI:** Bir gün Zaxarovanın bu "qayası" Rusiya liberallarının qəzəbinə, "daşına" tuş gəlməli idi, ya yox? Elə də olur. Məşhur demokrat Dmitriy Bıkov bir gün qərar verir Zaxarovanı nəsrlə deyil, nəzm ilə tənqid etsin. O, Zaxarovanın ünvanına qısa bir şer yazır. Deyir, bu qadının danışığı Puşkin ruhuna qarşı açıq təxribatdı, vəssalam.

Şerin mürəkkəbi hələ qurumamış Zaxarova düşür ortalığa. Şerə, şer ilə cavab verir. Mövzu, dartışma anındaca mətbuatı işğal edir. Hamı, ağzının suyu axa-axa başlayır Zaxarovanın bədii istedadını tərifləməyə. Stanislav Belkovskiy, məşhur publisist, Mariyanın timsalında böyük şair itirdiklərinə heyfslənir. Zaxarovaya təklif edir, bundan sonra öz brifinqlərində poetik yarışmalara yer versin.

**XAMLIĞI:** Lakin ən böyük qələtini Zaxarova bizim Moskva müxbirlərimizə qarşı edib. Sözü verək burda bizim tanınmış imza sahibimiz Aysel Əlizadəyə: "Dünən Rusiya Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri, diplomat, tarix elmləri namizədi Mariya Zaxarova keçirilən brifinqdə APA informasiya agentliyinin Rusiyadakı rəsmi nümayəndəsi Fərid Əkbərovun Dilqəm Əsgərovla bağlı sualını ağzında qoyub. Tamamilə ayrı mövzuya keçərək imkan düşmüşkən Azərbaycanı "vurub". Jurnalistlərimizi kobud ifadələrlə aşağılayıb. Bizi xamlıqda ittiham etsə də həm onların, həm bizim dildəki "xamstvo"nun yekəsini elə özü edib".

**KOLLEKSİYASI:** Zaxarovanın saxsı çin çaydanlarından ibarət nəhəng kolleksiyasına Moskvada çoxları heyrandı. Ancaq mən bu incə kolleksiyanın gələcəyindən indidən çox narahatam. Fikriniz Fərid Əkbərov, yaxud Aysel Əlizadə kimilərə getməsin. Mədəni adamlardı, sözlərini mətbuatda deyib, day zora yer qoymurlar. Ancaq hamı belə deyil.

Qonaqlarından biri dözməyə də bilər oxşar təhqirlərə. Əl atar taxçadakı çin çaydanlarına. Götürüb bir-bir bu saxsı qabları Zaxarovanın başına çırpar.

Bəli. Çanaq bir gün mütləq bax bələlərinin başında çartlayır, biləsiz.

Zaxarovaya məsləhət görərdim bu çaydanlarını daha təhlükəsiz bir ünvanda saxlasın. Evinə çox da etibar etməsin.

❑ **HƏMİD HERİSÇİ**

YENİ MÜSAVAT
N 129 (6743) 17 iyun 2017



# Dakar narahatçılığı

Zamin HACI
zaminhaci@gmail.com

**Köhnə bir tanış var, təzəlikcə parkda qarşıma çıxdı, başı ilə şəhərin mərkəzi istiqamətində işarə eləyib dedi: "Dakardan xəbərin oldu da". Açığı, tanış bir az da dəm idi, cümlənin mənasını izah edənə qədər bir dəqiqəyə yaxın vaxt keçdi, o müddətdə mən bəlkə yalan olmasın, öldüm-dirildim.**

Dakar Seneqalın paytaxtıdır, mənim orda qohum-əqrəbam olmamalıdır. Təbii, internetdə sel kimi gələn "Əmoğlun Uqubele Cuqubele keçən ay ömrünü sənə bağışlayıb rəhmətə getmişdir. Kişinin ölərkən 1 milyon dolları qalıb, sənə vəsiyyət eləyib. Əgər bunu almaq istəyirsinizsə, Zamin müəllim, xahiş edirik filan-beşman nömrəli bank hesabına 100 dollar köçürəsiniz, biz də o 1 milyon dolları sizə göndərək, bu da bank faizidir, yoxsa əziz başın haqqı biz qəti fırıldaqçı deyilik, and olsun banan ağacına" və sairə məzmunda məktublara inansaq orda xeyli əqrəbam var. Ancaq inanmıram. Bəs o zaman Dakarın adı gələndə niyə dilxor oldum? Bəlkə Bakıdakı, sosializm dövründən yadigar qalmış və hazırda orda yaşayanlar üçün tam absurda çevrilən Dakar meydanında nəsə hadisə olub, bundan təşvişə düşmüşəm? Yox, yox, yenə yox. Səbəb xaricilər üçün gülməlidir, ancaq biz azərbaycanlılar üçün faciənin dibidir. Tanışım "Dakardan xəbərin var da" deyib, üstəlik başı ilə paytaxtın mərkəzi istiqamətinə işarə edərkən mənim fantaziya sarıdan korluq çəkməyən bu qara başıma belə bir fikir gəldi: "Yəqin internetə baxmamışam, dünyadan xəbərsizəm, hökumət də bu arada Paris-Dakar ralli yarışını Bakıya salmaq üçün tədbir görübdür".

Deməк, yenə xeyli müddət baş-beynimiz gedəcək, Azərbaycan xaricdə tanıdılacaq, daxildə unudulacaq, pensiyaçılar ac qalacaq, maaşlardan, büdcədən kəsilib turnirə axıdılacaq, yollara sarı zolaq çəkiləcək və sairə və ilaxır. Axı biz hazırda dünyada İdman Respublikası kimi tanınırıq, harda azmış, itmiş turnir olsa gəlib bizim qapıya çıxır. Hətta yeni turnirlər də uydururuq ki, çempionlar boş-bekar qalmasın. Örnək üçün, bütün idman növləri üzrə onsuz da Avropa çempionatları var ikən bizim hökumət bir gün yatıb-durdu və özündən Avropa Oyunları adlı turnir düzəltdi.

Özünü savadlı göstərmək istəyən oxucular (açığı, onları sevirəm) deyə bilər ki, axı Paris-Dakar adından məlum olduğu kimi, elə Paris və Dakar şəhərləri arasında olmağa məhkum bir yarışmadır, bunun bir ucunu hərləyib-fırlayıb gətirib Bakıya salmaq heç cür mümkün olmaz. Deyin, bizdə söz azadlığıdır. Ancaq deməyə nə verirlər? Normal yolları, yarış avtomobilləri, avtomobil sənayesi, hətta savadlı "avtoşları" da olmayan respublika Formula-1 yarışını keçirdə bilirsə, niyə Paris-Dakar rallisini də qayırmasın? Yadıma gəlir, hətta bir dəfə qış Olimpiadasında Azərbaycanı təmsil edən fiqurlu konkisürən cütlük var idi. Hansısa ölkədən buzun üstündən tapıb gətirmişdilər.

Sözümün canı odur ki, Azərbaycanda nəyinsə baş verməsi üçün sivil dünyada lazım olan şərtlər keçmir. Biz analoqsuz ölkəyik, o üzdən bizdə ilkin şərtlər qəti önəm daşımır. İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir - necə deyərlər.

Nəsə, mən bütün bunları cəmi bir dəqiqəyə yaxın müddətdə ağlımdan keçirtdim və nəhayət özümdə qüvvət tapıb sonuncu ölən ümidlə adamdan soruşdum ki, bu Dakar nə məsələdir. Tanış dedi xəbərin yoxdurmu, hamı Dakarın üstünə düşüb, müharibə bu gün-sabahlıqdır, bölgə qaynayır, kölgə oynayır, nə bilim, bəlkə toylayır. (Qafiyə tuturam, heç bir mənası olmayan söz yığınıdır, yola verin getsin; camaat belə düşük qafiyələrlə xalq şairi adı alır).

Birdən başa düşdüm ki, tanışım da qafiyə səsləşməsinə aldanıb və beynində Qatarla Dakarı səhv salıb. Bəlkə arağın da bu yanlışda rolu olmuşdu. Ondan xahiş elədim bir də içməsin. İçəndə isə geopolitik temalarla qəti maraqlanmasın.

**İndi söz əlaqədar tanışındır.**

# İşğalçıya savaş xəbərdarlığı: "Düşmən bilməlidir ki..."

**Naxçıvanda Azərbaycan və Türkiyənin ikitərəfli hərbi əməkdaşlıq çərçivəsində ortaq taktiki hərbi təlimlər başa çatıb. 5 min hərbçinin qatıldığı və maksimum döyüş şəraitinə yaxınlaşdırılmış budəfəki təlimlər son bir ayda iki qardaş ölkə arasında ikinci böyük hərbi manevrlər idi. Təsadüfi deyil ki, Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənov son vaxtlar intensivləşən belə hərbi manevrləri yüksək qiymətləndirib.**




# Bakının son müharibə hazırlıqları - ordu poliqonlara yeridilir

## Azərbaycan döyüş şəraitinə yaxınlaşdırılmış hərbi təlimləri intensivləşdirir; Naxçıvandan və Çocuq Mərcanlıdan İrəvana verilən ismarışların açması; **Metyu Brayza**: "Ermənistan işğalçıdır və Azərbaycan torpaqlarını tərk etməlidir..."

"Azərbaycan prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə ordu quruculuğu sahəsində ardıcıl tədbirlər görülür", - deyə nazir birgə təlimlərdən danışarkən vurğulayıb. O, hərbi təlimdə qarşıya qoyulan vəzifələri uğurla yerinə yetirdikləri üçün Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin şəxsi heyətlərini təbrik edib. "Ölkədə ordu quruculuğu sahəsində görülən işlərin tərkib hissəsi olaraq Naxçıvan Muxtar Respublikasının müdafiə potensialının gücləndirilməsinə xüsusi diqqət yetirilir. Əlahiddə Ümumqoşun Ordu yüksək döyüş qabiliyyətinə malikdir və düşmənə layiqli cavab verməyə qadirdir. Düşmən bilməlidir ki, Naxçıvanın müdafiəsində ən peşəkar ordu dayanıb", - deyə hərb nazirimiz işğalçı tərəfə aydın bir ismarış göndərib.

***

Maraqlıdır ki, Naxçıvanda iki qardaş ölkə silahlı qüvvələrinin ortaq təlimi başa çatsa da, bir neçə gündən sonra ordumuz növbəti iri təlimə start verəcək. Belə ki, Azərbaycan prezidentinin təsdiq etdiyi plana əsasən, iyunun 19-dan döyüş şəraitinə uyğunlaşdırılmış vəziyyətdə qoşunların döyüşə hazırolma qabiliyyəti, qüvvə və vasitələrin idarə olunmasının təşkili, onların qarşılıqlı fəaliyyətinin yoxlanılması məqsədilə 5 günlük genişmiqyaslı əməliyyat-taktiki təlimləri keçiriləcək.

Müdafiə Nazirliyinin məlumatına görə, təlimlərə 23 min nəfərədək şəxsi heyət, 120-dək tank və zirehli texnika, 180-dək müxtəlif çaplı raket və artilleriya qurğusu, reaktiv yaylım atəş sistemi və minaatan, 30-dək müxtəlif təyinatlı döyüş aviasiyası, eləcə də yeni növ radioelektron kəşfiyyat vasitələri və pilotsuz uçuş aparatları cəlb olunacaq. Təlimlər iyunun 24-dək davam edəcək.

Yada salaq ki, bundan bir qədər öncə Gürcüstanda üç ölkənin - Azərbaycan, Türkiyə və Gürcüstanın, daha öncə - may ayında isə yenə Azərbaycanla Türkiyə Silahlı Qüvvələrinin ortaq hərbi təlimləri keçirilmişdi. Həmçinin, NATO proqramı çərçivəsində Azərbaycan ayrıca tabor təlimləri keçirib. Diqqətçəkicidir ki, bu təlimlərin hamısı yalnız son iki ayda - arada qısa zaman fasilələri ilə reallaşıb.

***

May-iyun aylarında intensivləşən hərbi təlimlər əslində son müharibə hazırlıqları kimi də dəyərləndirilə bilər. Qarabağ danışıqlarının dalana dirəndiyi bir vaxtda bu, Azərbaycan üçün xüsusilə böyük önəm daşıyır. Çünki danışıqlarda güc amili indi heç vaxt olmadığı qədər önəm kəsb edir. Bu mənada ordumuzun intensivləşən hərbi təlimləri işğalçı tərəfə ciddi xəbərdarlıq mesajıdır.

İşğalçıya və onun havadarlarına başqa bir mühüm mesaj kimi bu günlərdə prezident İlham Əliyevin təzədən bərpa edilən Çocuq-Mərcanlı kəndinə baş çəkməsini qeyd eləmək olar. Kəndə qayıdış və orada aparılan tikinti işləri sözsüz ki, ordumuzun ötən ilin aprelindəki hərbi uğuru sayəsində mümkün olub. Ölkə başçısının "Bu gün Lələtəpədə və digər işğaldan azad edilən ərazilərdə Azərbaycan bayrağı dalğalanır. Gün gələcək bizim bayrağımız Şuşada dalğalanacaq" sözləri isə bu xüsusda ikiqat önəm daşıyır və düşmənə bir ismarışdır ki, ərazilər sülh yolu ilə azad olunmasa, güc variantına əl atılacaq.

Bu mesaj əlbəttə ki, həm də ATƏT-in Minsk Qrupu həmsədrlərinə ünvanlanıb. Prezidentin Çocuq-Mərcanlıya şəxsən baş çəkməsi həmçinin, o anlamına gəlir ki, əgər nizamlama prosesi uğurlu getsə, başqa kəndlərin əhalisi, eləcə də ermənilər öz yurd yerlərinə qayıda, Azərbaycan dövləti öz gücünə Dağlıq Qarabağ da daxil, münaqişə zonasındakı yaşayış məntəqələrini, infrastrukturu tam bərpa edə, ermənilər də daxil, bütün vətəndaşlarımızın rifahını təmin edə bilər. Dünyaya, vasitəçi dövlətlərə bundan güclü, bundan yaxşı mesaj?

Təəssüf ki, həmsədrlər hələ də situasiyanın kərtikliyinin fərqində deyillər. Əks halda, onların təzəcə başa çatan İrəvan və Xankəndinə səfərinin hansısa pozitiv nəticəsi olardı.

***

Bu arada ABŞ-ın Azərbaycandakı keçmiş səfiri, ATƏT-in Minsk Qrupunun sabiq həmsədri Metyu Brayzanın Dağlıq Qarabağa dair danışıqların gedişi ilə bağlı verdiyi şərh sülh prosesinə ümidsizliyi daha da artırıb. Hərçənd, Brayzaya görə, münaqişənin həllində 25 ildir irəliləyiş olmadığı barədə səslənən fikirlər doğru deyil.

Bunu o, Bakıda "Caucasus İnternational" jurnalının nəşrinin 5 illiyinə həsr edilmiş "Cənubi Qafqaz beynəlxalq arenada: region və ətrafında əməkdaşlıq və rəqabət" mövzusunda beynəlxalq konfransda çıxışı zamanı deyib. "Dağlıq Qarabağ konflikti regionun iqtisadi inkişafı və təhlükəsizliyi yolunda əsas maneədir. Ermənistan Azərbaycan ərazilərini işğal edib. O, bu əraziləri azad eləməli və Azərbaycanla ümumi dil tapmalıdır" - Brayza qeyd edib.

Keçmiş diplomatın sözlərinə görə, 10 il əvvəl münaqişənin həlli ilə bağlı əsas sənəd hazırlanıb və razılaşdırılıb. "Bu, yeganə işlək sənəddir və münaqişənin həllində fundamental balans yaradır. Problem odur ki prezidentlər bir-birinə etibar etmir. Münaqişənin həlli üçün tərəflərin güzəştə getməsinə ehtiyac var. Münaqişənin yeganə həlli vasitəçilik və liderlik yolu ilə mümkündür. Bunu da Rusiya və ya ABŞ üzərinə götürə bilər. Amma inanmıram ki, Tramp bunun öhdəsindən gəlsin. Buna çoxlu vaxt tələb olunacaq, ABŞ-ın siyasi rəhbərliyində isə bu işi görəcək siyasətçilər yoxdur", - deyə Brayza əlavə edib.

**Amerikalı sabiq diplomatın açıqlaması belə bir qənaəti bir daha möhkəmlədir ki, Qarabağa dair sülh anlaşması yaxında deyil. Deməli, müharibə, güc amili önə keçir. Deməli, Azərbaycanın müharibə hazırlıqlarını artırması, ordusunun döyüş qabiliyyətini gücləndirməsinə xüsusi önəm verməsi tamamilə yerinə düşür.**

❑ Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 129 (6743) 17 iyun 2017

# Naxçıvanda Türkiyə hərbi bazasının yaradılması yenidən gündəmdə

**Azərbaycanın tarixi ərazilərində son bir əsrdə ikinci erməni dövlətini qurmaq istəyən ermənilər indi də Naxçıvana qarşı sərsəm iddialarını yeniləməyə başlayıblar. Əslində ermənilərin Naxçıvana iddiası yeni deyil, sadəcə ötən əsrin sonlarında paralel olaraq Naxçıvanı zəbt etmək, yerli əhalini didərgin salmaqla bağlı planlar həyata keçmədikdən sonra erməni ideoloqları bir müddət fasilə götürmüşdülər.**

## Türkiyə-Azərbaycan hərbi təlimlərindən təşvişə düşən düşmən ölkədə Naxçıvana qarşı ərazi iddiası qaldırıldı; **Elxan Şahinoğlu:** "Əgər Türkiyə Qətərdə hərbi baza formalaşdıra bilirsə, demək, Azərbaycanda da hərbi baza yarada bilər"



Şübhəsiz ki, xəstə təfəkkürlü ermənilərin yenidən Azərbaycanın Naxçıvan bölgəsinə qarşı iddialar səsləndirməsi həm də Qarabağla bağlı məsələlərin arxa plana keçirilməsinə xidmət edir. Ermənilər bu iddiaların absurdluğunu özləri də bilir. Sadəcə düşünürlər ki, 1918-ci ildə Qarabağ iddialarının fonunda Zəngəzur-Göyçə ərazilərini qəsb edə bildikləri kimi, bu dəfə də Naxçıvan iddiaları ilə Qarabağın "müstəqilliyini" pərdələyə və Azərbaycana həzm etdirə biləcəklər.

Məsələnin mahiyyəti bundan ibarətdir ki, "Daşnaksutyun" partiyasının "Hay dat", yəni erməni məsələsi üzrə Kiro Manoyan Naxçıvan Muxtar Respublikasına qarşı iddia ilə çıxış edib. Məsələyə xüsusi məqalə həsr edən "Lragir"də Kiro Manoyanın aşağıdakı sözləri yer alıb: "Ermənistan Naxçıvanın güclə Azərbaycana birləşdirilməsi və onun beynəlxalq statusu barədə məsələ qaldırmalıdır". Manoyan iddia edib ki, iyunun 12-də Naxçıvanda başlamış birgə Azərbaycan - Türkiyə hərbi təlimlərini şərh edən Karo Manoyan iddia edib ki, bu, Ermənistanın Naxçıvan tərəfindən təzyiq altında saxlanmasının İran və Ermənistana nümayişidir. Ümumiyyətlə, Naxçıvanda yerləşmiş Əlahiddə Azərbaycan Ordusu erməni şərhçilərin yuxusuna haram qatıb. Bu qorxu xüsusilə Beynəlxalq Böhran Qrupu tərəfindən yayılan məruzədə Azərbaycanın Naxçıvanda ballistik raketlər yerləşdirməsi vurğulanandan sonra daha da artıb.

"Azərbaycan və Türkiyə artıq bir neçə dəfədir ki, nümayiş etdirirlər ki, Naxçıvandan yalnız Qarabağ deyil, həm də Ermənistan hədəfə götürüləcək", - deyə "Lragir"in məqaləsində bildirilir. Naxçıvan 1921-ci il oktyabrın 13-də Türkiyənin Qars şəhərində bir tərəfdən RSFSR, Ermənistan SSR, Azərbaycan SSR və Gürcüstan SSR, yəni sovet dövləti, digər tərəfdən isə Türkiyə arasında bağlanmış müqavilə əsasında Azərbaycanın tərkib hissəsi kimi tanınıb. Müqavilədə həm də göstərilir ki, Azərbaycan Naxçıvanı üçüncü dövlətə güzəştə gedə bilməz. Göründüyü kimi, Ermənistan bu müqavilənin qüvvədən salınmasına çalışır. Lakin **Azərbaycanın keçmiş dövlət müşaviri, politoloq Qabil Hüseynli** İstiPress-ə müsahibəsində ermənilərin bu bəyanatlarını mənasız söz yığını adlandırıb: "Ermənilər bu məsələdə heç bir uğur qazana bilməzlər. Onların iddiası ilə Azərbaycana qarşı heç bir hüquqi araşdırma tətbiq edilə bilməz. Yəni bu, beynəlxalq hüquqa zidddir". **Politoloqun fikrincə, ermənilər bu barədə bəyanatları səsləndirəndə sadəcə həyasızlıqla ara qatmaq istəyirlər:** "Biz də onların qarşısında bir qədər zəiflik göstəririk. İndiyə qədər Ermənistanın Azərbaycan torpaqlarının 20 faizini işğal etdiyini beynəlxalq müstəvidə sübut edə bilməmişik. Onlar Naxçıvandan danışanda biz də Azərbaycan Xalq Cumhuriyyəti ilə Ermənistan arasında İrəvanın icarəyə verilməsi barədə anlaşmanı ortaya çıxarmalıyıq. Sovet illərində də müəyyən Azərbaycan əraziləri Ermənistana güzəştə gedilib, Zəngəzurun və Göyçənin verilməsi ilə bağlı sənədlər var. Biz bu sənədləri ortaya çıxararaq ermənilləri susdurmalıyıq", - deyə Qabil Hüseynli vurğulayıb.

Bütün bunlar öz yerində. Amma Azərbaycan hərbi baxımdan da Naxçıvanın müdafiəsinə hazır olmalıdır. Çünki Ermənistan 1990-cı illər Qarabağ kimi Naxçıvanı da işğal etmək niyyətində idi. O vaxt SSRİ hərbi-sənaye nazirliyində işləyən bir rus hərbçinin söylədiyinə görə, Qorbaçovun ermənipərəst ətrafının xeyir-duası ilə ermənilərdən ibarət 80 minlik ordu düzəldilib və Vazianidə təlim keçilib. Həmin ordu Kürlə Arazın arası - Naxçıvan, Gəncə, Qarabağ bu ordu tərəfindən işğal edilməli idi. Bölgədən Moskvanın tələbi ilə azərbaycanlılardan ov tüfəngləri belə yığılmışdı. Amma Azərbaycan xalqı bundan duyuq düşmüşdü və könüllü dəstələr bu hücumun qarşısını almağa hazırlaşırdı.

31 dekabr 1989-da hərbçilərin Naxçıvanda İranla sərhədi açması da ermənilərin hücum planı ilə bağlı idi. Plana görə, ermənilər hücum edəcəkdi və Naxçıvan camaatı qaçıb İrana keçəcəkdi, yəni Naxçıvan işğal ediləcəkdi. Amma elə olmadı və ermənilərin Sədərəkdə Xalq Cəbhəsinin silahlı dəstələri qarşıladı, 300-dən çox erməni öldü və başı pozuq erməni dəstələri geri İrəvana qaçdılar. Bu cür fitnələr bir daha təkrar oluna bilər.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu** "Yeni Müsavat"a dedi ki, Azərbaycanla Türkiyə arasında imzalanan hərbi əməkdaşlıq haqqında sazişə əsasən 12-15 iyunda Naxçıvanda iki ölkənin silahlı qüvvələrinin birgə əməliyyat taktiki təlimləri keçirildi: "Üç mərhələdə keçirilən təlimlərdə 5 minə yaxın şəxsi heyət, 250-dən artıq zirehli və 500-ə yaxın avtomobil texnikası cəlb edildi. Azərbaycanın müdafiə naziri Zakir Həsənovun sözlərinə görə, təlimdə qarşıya qoyulan vəzifələr uğurla yerinə yetirilib. Bununla əlaqədar Həsənovun belə bir cümləsinə diqqət yetirməyə ehtiyac var: "Düşmən bilməlidir ki, Naxçıvanın müdafiəsində ən peşəkar ordu dayanıb". Elə buna görə də düşmən ölkə əl-ayağa düşüb, Naxçıvandakı təlimləri özü üçün təhdid adlandırıb".

**Ekspertə görə, əslində Azərbaycan-Türkiyə birgə hərbi təlimləri Rusiya-Ermənistan birgə hərbi təlimlərinə cavabdır:** "Ona görə də Ermənistan rəsmilərinin və ekspertlərinin həyəcan təbili çalması yersizdir. Digər tərəfdən Azərbaycan-Türkiyə birgə hərbi təlimlərinin məqsədi odur ki, əgər Ermənistan ordusu nə vaxtsa Naxçıvanı hədəf götürməyi ağlına gətirsə, qarşısında Azərbaycan-Türkiyə hərbi birliyini görəcək və bu halda elə bir zərbə alacaq ki, hələ uzun müddət özünə gəlməyəcək. Açıq demək lazımdır ki, Türkiyənin Naxçıvanda hərbi varlığı faktiki mövcuddur, bunu İrəvan da bilir, Moskva da. Sadəcə, məni bu varlığın rəsmiləşdirilməsinin tərəfdarıyam. Qoy bilsinlər ki, Türkiyə Naxçıvanın təhlükəsizliyinin sözdə və əməldə də təminatçısıdır. Prezident İlham Əliyevin təsdiq etdiyi plana əsasən iyunun 19-da döyüş şəraitinə uyğunlaşdırılmış vəziyyətdə qoşunların döyüşə hazır olma qabiliyyəti, qüvvə və vasitələrin idarə olunmasının təşkili, onların qarşılıqlı fəaliyyətinin yoxlanılması məqsədilə genişmiqyaslı əməliyyat-taktiki təlimləri də keçiriləcək. Bu təlimlərə də xeyli sayda canlı qüvvə və hərbi texnika cəlb olunacaq. Fikrimcə, həm Naxçıvandakı, həm də Azərbaycanın müxtəlif bölgələrində keçirilən hərbi təlimlər Ermənistana açıq mesajdır ki, onun Dağlıq Qarabağ münaqişəsinin həlliylə bağlı mərhələli həll planının qəbulunu sonsuzadək uzatması hərbi toqquşma ehtimalını yaxınlaşdırır".

**E.Şahinoğlu artıq konkret addımların atılmasını zəruri sayır:** "Türkiyənin Naxçıvanda hərbi baza yerləşdirilməsi elan olunmalıdır. Buna qarşı irəli sürülən əsas arqument bu idi ki, Türkiyə NATO üzvüdür və bu təşkilatın icazəli olmadan üçüncü ölkədə hərbi baza yarada bilməz. Ancaq bu arqumentin doğru olmadığı bəlli oldu. Çünki Türkiyə NATO rəyini öyrənmədən Qətər dövlətində hərbi bazasını formalaşdırdı. Bu Türkiyənin xaricdə ilk hərbi bazasıydı. Əgər Türkiyə Qətərdə hərbi baza formalaşdıra bilirsə, demək Azərbaycanda da hərbi baza yarada bilər. Türkiyənin Naxçıvanda hərbi baza yaratması Ermənistanı Naxçıvana qarşı təxribatlardan çəkindirər".

❑ **E.PAŞASOY**

# ÜAK-la bağlı məhkəmə qərarından şikayət edildi

## "Ümid edirik ki, apelyasiya şikayətindən sonra qeydiyyat məsələsi həll olunacaq"

**İyunun 15-də Ümumrusiya Azərbaycan Konqresi Rusiya Federasiyası Ali Məhkəməsinin 15 may tarixli qərarından Ali Məhkəmənin Apelyasiya kollegiyasına apelyasiya şikayəti verib. Bu barədə təşkilatın saytında məlumat yerləşdirilib.**

Qeyd edək ki, mayın 15-də Rusiya Ədliyyə Nazirliyinin müraciəti əsasında Ali Məhkəmə Ümumrusiya Azərbaycan Konqresinin qeydiyyatını ləğv edib.

"Artıq Ümumrusiya Azərbaycan Konqresi (ÜAK) olaraq apelyasiya şikayəti vermişik. Nə vaxt cavab veriləcəklərini isə bilmirik. İndi yay vaxtıdır. Ola bilsin ki, bizə verdikləri cavab yay tətilinə görə gecikə bilər". Bunu isə dünən modern.az-a açıqlamasında **ÜAK-ın icraçı katibi İlqar Hacıyev** deyib. Onun sözlərinə görə, apelyasiya şikayətində bütün məsələlər öz əksini tapıb: "Ümid edirik ki, apelyasiya şikayətindən sonra qeydiyyat məsələsi həll olunacaq. Çünki bu qərarla bağlı narazılığımızı bildirdik. Əvvəlki məhkəmə prosesində bizim şikayətimizə əhəmiyyət verilmədi. Budəfəki apelyasiya şikayətimizdə bütün narazılıqlarımız və tələblərimiz öz əksini tapıb".

**Politoloq Qabil Hüseynli** isə "Yeni Müsavat"a bildirib ki, apelyasiya şikayətinin bu dəfə də müsbət nəticəsinin olacağı ehtimalı azdır. Moskva açıq-aşkar nümayiş etdirdi ki, ÜAK məsələsində Azərbaycandan olan bütün müraciətlərə məhəl qoymaq niyyətində deyil: "Ali Məhkəmənin qərarının arxasında Rusiya hökumətindəki ən azı hansısa böyük bir qrupun dayandığı şübhəsizdir. İstəsəydilər ÜAK-ın sənədlərində hansısa problemlər varsa onun düzəlməsinə nail olardılar. Deməli, məqsəd heç də sənədlərin düzəldilməsi yox, ÜAK-ın bağlanması idi. Bunu da etdilər. Baş verənləri izləyəndə və Kremlin Azərbaycandan gözləntilərinin olduğunu nəzərə aldıqda ÜAK-la bağlı Ali Məhkəmənin qərarının ləğv ediləcəyi ehtimalının çox az olduğu qənaətinə gəlirik. Mənim fikrimcə, ÜAK-ın rəhbərliyi qurumun adını dəyişib yenu təşkilat elan edə və həmin təşkilatın qurultayını keçirib onu qeydiyyatdan keçirmək varinatına gedə bilər".

❑ **E.SEYİDAĞA**

YENİ MÜSAVAT
N 129 (6743) 17 iyun 2017

# Rusiya və Qərbin təzyiqlərindən qurtulmağın yolları

**Müstəqillik qazandığımız illər ərzində daim Rusiya və Qərbdən ölkəmizə yönəlik təzyiqlərin şahidi oluruq. Azərbaycan hökuməti nə qədər balanslı siyasət yürütsə də, bu təzyiqlərin qarşısını ala bilmir. Sanki ölkəmizi təsir dairələrində saxlamaq üçün Kreml və ABŞ başda olmaqla Qərb dövlətləri savaşır.**

Doğrudur, Qərbə nisbətən şimal qonşumuzun təzyiqləri daha təhlükəlidir. İmperiya maraqlarından zərrəcə əl çəkilməyən Moskva region dövlətlərinin müstəqilliyinə təhdid yaradacaq siyasət yürüdür, bəzi hallarda isə bunu açıq şəkildə büruzə verməkdən belə geri çəkilmir.

Mövcud durumu dəyişmək üçün ən müxtəlif fikirlər səsləndirilir. Çoxları artıq rəsmi Bakının balanslı siyasətdən geri çəkilib, konkret seçim etməsinin vacibliyini dilə gətirirlər. Qonşuluğunda yerləşən nəhəng dövlətin "quyruğunu" tapdalamamaq üçün Azərbaycanın hazırkı balanslı siyasətinin düzgün seçim olduğunu düşünənlər də az deyil.





**"Fərəc Quliyev:** "Balanslı siyasətdən daha çox, müttəfiqlərimizi seçməliyik"
**Elçin Mirzəbəyli:** "İstəsək də, istəməsək də təzyiqlərdən yan keçə bilməyəcəyik"

**Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, deputat Fərəc Quliyev** Qərbə nisbətən Rusiyanın ölkəmizə təzyiqlərinin daha güclü olduğunu bildirdi: "Son iki yüz ildə başımıza gələn bəlaların baiskarı birbaşa Rusiyadır. Bunun səbəbkarları Amerika və Qərb dövlətləri deyil ki. Rusiya hələ də Azərbaycanı öz təsir dairəsində saxlamaqda maraqlıdır. İndi gücsüz olduğundan Azərbaycanın müstəqilliyinə toxunmasa da, müxtəlif ittifaqlara cəlb etmək istəyi ilə bunu reallaşdırmağa çalışır. Güclənərsə, bunu müstəmləkə siyasəti kimi həyata keçirmək istəyəcək. İstəyir ki, ölkəmiz müstəqilliyini itirsin. O tərəfdən bununla bağlı açıq çıxışlar da olub. Amma Amerika və Qərb dövlətləri çalışır ki, Azərbaycan tipli dövlətlər onlardan daha asılı olsun. Təzyiq imkanlarının olmasını istəyirlər. Bununla həmin ölkələrdən xammal bazası kimi istifadə etməyə çalışırlar. Öz maraqlarını həmin ölkələrdə həyata keçirmək üçün qarşılarında olan əngəlləri bir növ təmizləmək istəyirlər. Nə qədər təzyiq riçaqı var, işə salırlar".

**Amma deputatın fikrincə, Azərbaycan hər halda Rusiya-Qərb qarşıdurmasından bəhrələnməyi bacarmalıdır:** "Açıq şəkildə görürük ki, torpaqlarımızı işğal edən Ermənistan KTMT-də Rusiya ilə əməkdaşlıqdadır. Biz belə məsələlərdə balanslı siyasətdən daha çox müttəfiqlərimizi seçməliyik. Çünki artıq Kreml ərazilərimizi işğal edən dövlətin yanında dayanıb. Əgər Rusiya da başqa dövlətlər kimi siyasət aparsaydı, o zaman balanslı siyasət barədə düşünərdik. Məncə tərəflərdən birini zərərsizləşdirmək üçün bu seçimdə tələsməliyik. Tərəddüd vaxtı deyil. Amma Rusiyadan da zərbələri gözləməliyik. Ölkə daxilində birliyə söykənən monolit birlik yaratmalıyıq. Güclü birliyimiz olarsa, Rusiya bizə heç nə edə bilməz. Düşünürəm ki, Rusiya ayaqda durduğu sürədə bizə və bizim kimi ölkələrə münasibəti dəyişməyəcək. Ayıq-sayıq olmalıyıq. Hər bir ölkənin öz milli maraqları var. Biz də maraqlarımızı beynəlxalq aləmlə uzlaşdırmalıyıq, öz maraqlarımıza toxunmadan bunu etməliyik. Maraqlarımızı heç bir dövlətin maraqlarına qurban verə bilmərik. Kim bizim maraqlarımıza toxunarsa, mübarizəyə hazır olmalıyıq".

**Politoloq Elçin Mirzəbəyli** bildirdi ki, müstəqil yaşamanın öz şərtləri və çətinlikləri var: "Bununla yanaşı, ölkəmizin əlverişli coğrafi mövqeyi, Cənubi Qafqazda və ətraf bölgələrdə geosiyasi reallıqlardan doğan qüvvələr nisbəti elədir ki, biz istəsək də, istəməsək də təzyiqlərdən yan keçə bilməyəcəyik. Daxili və xarici amillərdən asılı olaraq, situasiyaya uyğun qabarma-çəkilmələr olsa da təzyiqlər sәngiməyəcək. Bu səbəbdən də, qənaətimə görə müxtəlif manevr xarakterli addımlarla təzyiqlərdən yayınmaq barədə danışmaqdansa, müqavimət gücümüzü, immunitetimizi gücləndirmək haqqında söz açmaq daha doğru olar. Bir məqamı da qeyd edim ki, Rusiyadan gələn təzyiqlərlə Qərbin təzyiqləri arasında çox böyük fərq var. Şübhəsiz ki, hər iki qütbün davranışlarında geosiyasi iddialar aparıcı yerdə dayanır. Lakin Qərbin təzyiqlərinin neytrallaşdırılması üçün manevr imkanları daha genişdir. Rusiya ilə bağlı vəziyyət isə fərqlidir. Bilirəm ki, Rusiya ilə bağlı fikirlərim bəzi insanların xoşuna gəlməyəcək. Amma Rusiyanın təzyiqlərinin daha çox imperialist iddialardan qaynaqlandığı və istiqlalımızı hədəf aldığı ortalıqdadır. Azərbaycanda çoxlarının Bakı-Moskva münasibətlərinin normal məcrada inkişafında maraqlı olduğunu düşünürəm. Amma sual olunur, Rusiya bunu istəyirmi? Rusiyanın davranışlarında qarşılıqlı faydalı və hətta sözdə də olsa belə bərabərhüquqlu əməkdaşlıq niyyəti nəzərə çarpmır. Moskva Pyotrdan qalma xarici siyasət kursundan və müttəfiqlik anlayışından əl çəkməyib. Rusiya siyasətçiləri "tərəfdaş" deyəndə öz milli maraqları olmayan, Rusiyanın maraqlarına xidmət edən müstəqil hüququn formal hüquqi subyekti təsəvvür edirlər. Daha öncə də qeyd etdiyim kimi, təzyiqləri önləmək yox, ağrısız ötüşdürmək mümkündür. Bunun da yolu idarəçilik sistemindən başlamış, iqtisadiyyata qədər, bütün sahələrdə islahatlar aparılmalı, inkişafımıza mane olan bütün amillər aradan qaldırılmalıdır. Mən Azərbaycanın bu günə qədər yürüdülən siyasətinin əsas prioritetlərinin də məhz bundan ibarət olduğunu düşünürəm. Bu siyasət isə balanslaşdırılmış yox, milli maraqlara xidmət edən siyasətdir".

❑ **Cavanşir ABBASLI**

# SSRİ-nin dağıdılması planı indi də Rusiyaya qarşı tətbiq edilə bilər

## "Əsas məsələ SSRİ-ni də çökdürmüş mərkəzlərdə qəbul olunmuş qərardır"

**Rusiyada korrupsiyaya qarşı etiraz hərəkatı baş qaldırıb. Paytaxtda və ölkənin çoxlu sayda şəhərlərində eyni anda keçirilən mitinqlərdən bir neçə gün sonra isə ABŞ Senatı 98:2 səslə Rusiya əleyhinə geniş sankisyalar paketini təsdiqləyib. "Bizim itirməyə vaxtımız yoxdur" deyə Arizona ştatından Respublikaçı Senator Con Makkeyn bildirib. O deyib ki, ABŞ Vladimir Putinə və istənilən başqa aqressora güclü mesaj göndərməlidir ki, ABŞ demokratiyasına edilən hücumlara dözməyək.**

İrana tətbiq edilən sanksiya paketinə düzəliş olaraq yeni dəyişikliklər Rusiyanın kiber casus təsisatları, enerji sektoru, maliyyə maraqları və Moskvadan Suriyaya silah axınını hədəf alır.

**Senatın Xarici Əlaqələr Komitəsinin Demokrat üzvü Ben Kardin** bildirib ki, siyahısı genişlənən sanksiyalar enerji layihələrinə və xarici maliyyə təsisatlarına tətbiq edilə bilər.

Rusiyada etirazların baş qaldırması ilə eyni vaxtda bu ölkəyə qarşı sanksiyaların genişləndirilməsi ortaya bir sıra suallar çıxarıb. Rusiyada başlanan etiraz hərəkatının arxasında Qərbin dayandığı mümkünmü? Rusiyada yaşananlar və Rusiya ilə bağlı yaşananlar bir zamanlar SSRİ-nin çökdürülməsi prosesinə bənzəyirmi?

**VİP sədri Əli Əliyev** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Aleksey Navalnı hərəkatının arxasında Qərbin durduğu istisna edilmir. Çünki Antikorrupsiya fondunun apardığı araşdırmalar, onların cəmiyyətə təqdimatı, keçirilən kütləvi aksiyalar kapital tutumlu işlərdir: "Rastıma çıxan mənbələrdən belə bəlli olur ki, Navalnı "Forbes"in siyahısında yer tutan Rusiya əsilli milyarderlər tərəfindən maliyyələşir. Ola da bilər. Əsas məsələ SSRİ-ni də çökdürmüş mərkəzlərdə qəbul olunmuş qərardır. Dünya gücləri Rusiyanın malik olduğu təbii qaynaqları düzgün olmayan sahiblik sayır. Olan məlumata görə bu ehtiyatlar 400 trilyon dollar məbləğində qiymətləndirilir. Putin siyasətinə etirazın kökü də oradadır. Putin bu nemətləri bölüşmək əvəzinə, yeni qaynaqlar zəbt etmək haqda düşünür. Keçmiş sovet respublikalarının işğalı və təhdidi, Arktika və Antarktikada kəşfiyyat, Afrika qitəsinə iddia, supernüvə dövləti xülyası dünyanı ayıq olmağa sövq edir. Fikrimcə, proses Rusiyanın çökməsi ilə nəticələnəcək. Qərbin postsovet məkanında ehtiyatlı davranışı məhz bununla əlaqədardır. Bu güclər fəsadın Kremldən gəldiyini bildiklərindən, gücü oraya yönəldiblər. SSRİ-nin çökdürmək planına bənzər planın olduğu sezilməkdədir".



**Siyasi təhlilçi Şahin Cəfərli** isə bildirib ki, ABŞ Senatında Rusiyaya qarşı yeni sanksiya sənədi İrana qarşı sanksiyalar barədə qanun layihəsinə düzəliş şəklində əlavə olunub və düzəlişdə iki önəmli məqam var. Birincisi odur ki, Rusiyaya qarşı Obama dövründə icra hakimiyyəti səviyyəsində *(prezident fərmanları ilə)* tətbiq olunmuş qısamüddətli sanksiyalar qanun şəklinə salınır. Yəni, bu qanun qüvvəyə mindikdən sonra ABŞ prezidenti sanksiyaları yumşalda və ya ləğv edə bilməyəcək, bunun üçün Konqresin icazəsi lazım olacaq: "Adətən qanunvericilik qaydasında tətbiq olunan sanksiyaların ləğvi çox çətin olur və bu sanksiyalar onillərlə davam edir. SSRİ-yə qarşı 1974-cü ildə qəbul edilmiş Cekson-Venik düzəlişini xatırlatmaq yetərlidir. Bu qanun SSRİ dağıldıqdan sonra da qüvvədə qaldı və yalnız 2012-ci ildə ləğv edildi, dərhal da yerinə "Maqnitski Aktı" qəbul olundu.

İkincisi, önəmli məqam Rusiya iqtisadiyyatının indiyədək sanksiyalardan kənarda qalmış lokomotiv sahələrinə sanksiyaların tətbiqinin nəzərdə tutulmasıdır. Belə ki, düzəlişdə dağ-mədən, metallurgiya sənayesi, dəniz və dəmir yolu nəqliyyatı, ixrac neft-qaz kəmərləri, şist yataqlarının və Arktik şelfdəki neft yataqların işlənməsi ilə bağlı sanksiyaların tətbiqi əksini tapıb. Maliyyə Nazirliyinə tapşırılır ki, bu sahələrdə fəaliyyət göstərən Rusiya şirkətlərinin siyahısını tərtib etsin. Bundan başqa, Senat Maliyyə Nazirliyinə, Dövlət Departamentinə və Milli Kəşfiyyat direktoruna tapşırır ki, insan haqları pozuntularında, Suriya rejiminə silah verilməsində, dövlət səviyyəsində kiberhücumlarda, dövlət aktivlərinin qanunsuz özəlləşdirilməsində, Rusiya kəşfiyyat və müdafiə sektorları ilə biznes aparan, sanksiyalardan yayınmağa çalışan, korrupsiya fəaliyyətində əli olan şəxslərin, o cümlədən Putinə yaxın oliqarxların siyahısını müəyyənləşdirsin. Onlara qarşı da sanksiyalar tətbiq olunacaq".

❑ **Etibar SEYİDAĞA**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 129 (6743) 17 iyun 2017



# Moskvanın unutduğu aprel vədi - Kremlin Bakıya ehtiyacı arta bilər

## Dağlıq Qarabağ məsələsində müsbətə doğru dönüş şansı hələ ki Rusiyanın əlindədir; **politoloq:** "Qlobal proseslər Azərbaycanın xeyrinə irəliləyir..."

**ATƏT-in Minsk Qrupu həmsədrlərinin regiona başa çatmaqda olan budəfəki səfəri də Dağlıq Qarabağ münaqişəsi ətrafında gərginliyi və qeyri-müəyyənliyi, ələlxüsus müharibə riskini azaltmadı. Doğrudur, turist-diplomatlar Bakıya hələ gələn həftə gələcəklər. Ancaq onların İrəvanda işğalçı Ermənistanın siyasi və hərbi rəhbərliyi ilə apardıqları danışıqlardan artıq bu qənaətə gəlmək mümkündür.**



Məsələ ondadır ki, həmsədrlər bu dəfə də problemə, status-kvoya şablon yanaşma sərgilədilər, İrəvanda və Xankəndində mövcud təhlükəli situasiyadan çıxmaq üçün konstruktiv heç nə təklif etmədilər. Konstruktivlik üçün isə dəfələrlə yazdığımız kimi, öncə işğalçı Ermənistana münasibət dəyişməli, ona Azərbaycan torpaqlarının azad edilməsinin zəruruliyi başa salınmalıdır. Təkcə başa salınmamalı, eyni zamanda buna sövq edilməlidir.

Bu isə əfsus ki, gözə dəymir. Ona görə ki, vasitəçilər təmsil etdikləri dövlətlərinin rəhbərlərindən belə bir təlimat, göstəriş almayıblar. Bunu Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarovanın Qarabağ mövzusunda son açıqlaması bir daha təsdiqləyir.

***

"Dağlıq Qarabağ münaqişəsinin həllinə Azərbaycan və Ermənistan rəsmilərinin öz baxışları var". Bu sözləri M.Zaxarov son ənənəvi brifinqdə Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun Qarabağ münaqişəsinin həllində BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin əsas götürülməsinin vacibliyini bəyan etməsi ilə bağlı erməni jurnalistin sualını cavablandırarkən deyib.

"Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı format mövcuddur. Bu, həqiqətən də köhnə problemdir, hansı ki, burada kompromisin tapılmasına ehtiyac var. Kompromisin axtarılması tərəflərin mövqelərinin - bir-birinə nə qədər zidd olmasından asılı olmayaraq - yaxınlaşdırılmasıdır. Hazırkı vəziyyət münaqişənin həllini tələb edir. Məhz ona görə də son zamanlar təmaslar intensivləşib. Təmaslar müxtəlif formatlarda keçirilir. Rusiya bu formatın iştirakçısı kimi kompromisin tapılması üçün əlindən gələni edir. Əlbəttə istərdik ki, kompromis tez tapılsın, nə qədər tez tapılsa, bir o qədər yaxşıdır. Ancaq bu kompromis iki ölkənin xalqının gələcəyinə və əlbəttə ki, Dağlıq Qarabağda yaşayan insanların gələcəyinə ziyan verməməlidir", - deyə Rusiya XİN-in rəsmisi qeyd edib.

Göründüyü kimi, konfliktin əsas körükləyicisi və memarı olan, eyni zamanda onun həllində ən böyük imkanlara malik Rusiyanın yanaşmasında yeni heç nə yoxdur. Rəsmi Moskva problemin həllini yenə də münaqişə tərəflərinin üzərinə atmaqla yaxasını və məsuliyyətini kənara çəkməyə çalışır. Halbuki erməni tərəfinin Moskvanın izni olmadan Azərbaycanla anlaşmasının mümkünsüzlüyünü ermənilərin özləri də etiraf edirlər.

Moskva isə izn verməyə tələsmir. Bunun da müxtəlif siyasi və geosiyasi səbəbləri var. Sözsüz ki, ixtilafın yoluna qoyulmasında konfliktə cəlb olunmuş dövlətlərin birinci şəxslərinin öz aralarındakı münasibətləri də az rol oynamır. Siyasi ekspertlərin bu xüsusda müşahidələri diqqət çəkir.

***

"Açığı, indi Rusiyanın küncə sıxıldığı bir zamandır". Bu sözləri Azərbaycan və Rusiya prezidentlərinin bu il ərzində gözlənilən görüşləri ilə bağlı danışan sabiq dövlət müşaviri Qabil Hüseynli deyib (Axar.az). Politoloq birinci görüşün bu il Astanada enerji məsələləri üzrə sərgi çərçivəsində baş tuta biləcəyini vurğulayıb.

"Hər iki ölkə enerji problemləri üzrə inkişaf etmiş texnologiya və təcrübəyə malikdir. Görüşü bu baxımdan əhəmiyyətli hesab etmək olar. Rəsmi Bakı enerji başqa, bir çox önəmli məsələləri də qaldıracaq. Bu, ÜAK-ın ləğvi və Dağlıq Qarabağ probleminin həlli ilə bağlıdır. Moskvanın Bakıya verdiyi vədlər var. Rusiya aprel döyüşlərindən sonra məsələnin həlli ilə intensiv məşğul olacağını və 5 rayonun qaytarılması ilə bağlı səylərini artıracağını bildirmişdi. Əvəzində isə Rusiyanın Ermənistanı sürətlə silahlandırılmasını müşahidə etdik. Moskva buna silahlandırma sarıdan yaranmış balansın pozulmasını bərpa etmək istəyilə bəraət qazandırdı. Bu, çox qüsurlu bir gedişdir və o deməkdir ki, Rusiya bölgədə müharibə riskini qoruyub saxlamağa çalışır", - deyə sabiq dövlət müşaviri qeyd edib.

Politoloqa görə, Avropa və ABŞ-ın Rusiyanı sıxışdırma prosesi güclənir: "Üstəlik, Rusiyanın daxilində vəziyyət ürəkaçan deyil. Mitinqlərin kütləvi hal alma ehtimalı böyükdür. Bu fonda Rusiya çox ciddi bir mərhələyə qədəm qoyur. Çünki Putinin qayğıları həddindən çoxdur, o, əvvəlki kimi təkəbbürlü və yuxarıdan aşağı söhbətlər apara bilməz. Rusiyanın təklənməsi prosesi Moksvanı Bakı ilə əlaqələri daha yüksək səviyyəyə qaldırmağa vadar edəcək. Bu sarıdan Azərbaycan və Rusiya prezidentlərinin bu il ərzində gözlənilən görüşü əvvəlkilərdən fərqlənəcək. Bu görüşlərdə Azərbaycan prezidentinin əlinin daha möhkəm olduğu şəksizdir. Rusiya bu dəfə Azərbaycanla daha çox bərabərhüquqlu tərəfdaşlar səviyyəsində davranacaq. Bu kontekstdə Azərbaycan Rusiya tərəfinə Qarabağ problemi ilə bağlı təkliflər verə bilər".

Q.Hüseynli ikinci görüşün İranda Şimal-Cənub dəmiryolu dəhlizinin açılışında gözlənildiyini deyib: "Bundan əlavə, Azərbaycan və İran rəhbərliyinin ayrıca görüşü də olacaq. İran Dağlıq Qarabağ məsələsində daha çox Ermənistanın yanındadır. İran TIR-larının Dağlıq Qarabağ ərazisində yükdaşımaları barədə məlumatlar var. Ermənistanla İran arasında ciddi ticarət əlaqələri mövcuddur. Üstəlik, bu əlaqələr hərbi sahəni də əhatə edir. İranın vəziyyəti Rusiyanınkından da ağır olacaq. Çünki ABŞ və bəzi Avropa ölkələrinin İrana qarşı təzyiqləri artır. Yəni Tehran daha ciddi sınaqlar qarşısındadır. Belə olan halda isə Bakı Tehran qarşısında Qarabağla bağlı beynəlxalq hüquq normaları çərçivəsində davranılmasının zəruriliyi barədə məsələ qaldıra bilər. Ayrıca, İranın daxilində azərbaycanlıların fəallığının artması isə rejimi düşünməyə vadar edəcək. Dünyada gedən qlobal siyasi proseslər Azərbaycanın xeyrinə irəliləyir".

Politoloq onu da əlavə edib ki, Azərbaycan müharibəyə hazırdır, ancaq problemin dinc yolla həllinə üstünlük verir. "Danışıqlar prosesi yenilənərsə, bir çox məsələlər həllini tapa bilər. Rəsmi Bakı növbəti görüşlərdə bu məsələni də Rusiyadan tələb edəcək", - deyə o əlavə edib.

***

Şübhə yox ki, Ermənistanın 1 nömrəli müttəfiqinin zəifləməsi Azərbaycanın xeyrinədir. Ancaq biz gərək onu da unutmayaq ki, ermənilər öz sahiblərini dəyişməkdə böyük "təcrübə"yə malikdirlər. Söhbət kritik anda Ermənistanın Rusiyanı buraxıb Qərbə - ABŞ və Avropa sığınması ehtimalından gedir. Bu kimi gəlişmələrə qarşı ən etibarlı kontur-faktorlardan biri də hərbi qüdrətimizi, ordumuzun döyüş bacarığını daima artırmaq, işğalçı tərəfə hərbi pariteti bərpa eləməyə imkan verməməkdir.

Bu arada Naxçıvanda Azərbaycan və Türkiyə silahlı qüvvələrinin növbəti birgə hərbi təlimləri başa çatıb. Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənov son vaxtlar intensivləşən belə hərbi manevrləri yüksək qiymətləndirib.

"Azərbaycan prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə ordu quruculuğu sahəsində ardıcıl tədbirlər görülür", - deyə nazir ortaq təlimlərdən danışarkən qeyd edib. O, təlimdə qarşıya qoyulan vəzifələri uğurla yerinə yetirdiklərinə görə Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin şəxsi heyətlərini təbrik edib. "Ölkədə ordu quruculuğu sahəsində görülən işlərin tərkib hissəsi olaraq Naxçıvan Muxtar Respublikasının müdafiə potensialının gücləndirilməsinə xüsusi diqqət yetirilir. Əlahiddə Ümumqoşun Ordu yüksək döyüş qabiliyyətinə malikdir və düşmənə layiqli cavab verməyə qadirdir. Düşmən bilməlidir ki, Naxçıvanın müdafiəsində ən peşəkar ordu dayanıb" - müdafiə naziri işğalçı tərəfi xəbərdar edib.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

# “Mən Ayaz Mütəllibov haqda hər şey demişəm, amma “xəyanətkar” deməmişəm”

## Elman Məmmədov: “Ancaq Xocalını xilas üçün zəruri tədbirlər görə bilməməsi də elə xəyanətdir”

**“1965-ci ildə Xankəndidə orta məktəbdə oxuyurduq. Ermənilər qoymurdular ətraf yaşayış məntəqələrində orta məktəblər açılsın. Biz 8-ci sinfi bitirib 9-10-u Xankəndində oxuyurduq. Ermənilər Xankəndidə 3 azərbaycanlını məhkəmədən çıxarıb maşına mindirilən anda hücum etdilər, maşını və Xocavənddən olan azərbaycanlıları yandırdılar. Hadisənin baş verdiyi yerin 30-40 metrliyində alay, vilayət prokurorluğu və milis şöbəsi yerləşdirdi”.**



Xocalı rayonunun sabiq icra başçısı, deputat Elman Məmmədov bu fikirləri iyunun 16-da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında, “Qarabağ Araşdırmalar Mərkəzi” İctimai Birliyinin Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası layihəsi çərçivəsində mətbuat nümayəndələri üçün keçirilən kurslarda söylədi. Dediyinə görə, Azərbaycana qarşı iddialarından heç vaxt əl çəkməyən ermənilər həmin hadisədən sonra yerlərində oturmağa vadar edildilər: “O vaxt DTK-da işləyən mərhum ümummilli liderimiz Heydər Əliyev Xankəndinə gəldi, 100 nəfərdən çox erməni həbs olundu və ermənilərin üsyanı yatırıldı. 12 fevral 1988-ci ildə bizim hamımızı Əsgəran Partiya Komitəsinə çağırdılar ki, fəallar yığıncağıdır. Cəmi 6 azərbaycanlı idik, ancaq 500-ə qədər erməni idi. Gevorkov, Konavalov, Qriqoryanın iştirakı ilə toplantı başladı. Gevorkov çıxışa başlayanda zaldakılar ayaqlarını yerə döyüb ”Miatsum" qışqırmağa başladılar. Bunlar çıxıb qaçdılar. Biz qaldıq 500 ermənininin içərisində. Durub bayıra baxanda gördük ki, əllərdə bayraqlar tutmuş insanlar binanın qarşısına toplaşıb. Təbii ki, təşkil olunmuş aksiya idi, onları kənardan gətirmişdilər. Səhər Xankəndidə mitinqlərə start verildi".

E.Məmmədov azərbaycanlılar etiraz olaraq Ağdamdan Əsgərana dinc yürüşə başladığı zaman Əli ilə Bəxtiyar adlı həmvətənimizin öldürüldüyünü xatırlatdı. Bildirdi ki, hadisələri qızışdırmağa hazır olan ermənilər 28 fevralda Sumqayıt hadisələrini törətdilər.

**Xocalı soyqırımına aparan hadisələrdən bəhs edən E.Məmmədov dedi ki, şəhərə ilk erməni hücumu 1988-ci il 18 sentyabrda-bazar günü baş verdi:** “Xocalıda toy idi. Ermənilər Xankəndidə mitinq keçirib qərar veriblər ki, "gedirik Xocalını boşaltmağa". Qarşıda “Kraz” maşınları gəlir və yük yerində də ucu şiş dəmir linglər yüklənib. Bizə xəbər verildi ki, ermənilər gəlir. Onda bizdə 20-30 ov tüfəngi və “tir” tüfəngi var idi. Qalan camaat da balta, dəryaz götürüb çıxdıq ermənilərin qarşısına. Ermənilər artıq Xocalıya girdilər. 6 evimizi yandırdılar. Bizdən yaralanan olduqda biz də erməniləri vurmağa başladıq. Ermənilər o qədər hazırlıqlı idilər ki, özləri ilə “təcili yardım” maşını da gətirmişlər, yaralıları maşına atıb geri göndərirdilər. Biz onları geri qaytara bildik. Bizdən ölüm olmadı, yaralanan oldu".

**E.Məmmədov ermənilərin bu vəhşiliyinə o zamankı hakimiyyətin laqeyd münasibətindən də bəhs etdi:** “5 km-likdəki Əsgəranda SSRİ Daxili Qoşunlarının komendaturası yerləşir. Mən iki dəfə danışdım ki, ermənilər hücuma gəlir. Dedilər yaxşı, müdaxilə edəcəyik. Amma erməni milislər komendaturanın hərbçilərinin qarşısına düşüb onları kəsə 5 km-lik yolla yox, Xankəndidən keçməklə 40 km-lik məsafə qət edərək gətirmişdilər ki, onlar çatanadək ermənilər bizi qırıb qurtarsın. Ancaq biz düşmənin qarşısını ala bildik. Sonrakı gün ermənilər xəbər yaydılar ki, 19 itki veriblər. Səhər tezdən Zori Balayan təyyarə ilə ermənilərin köməyinə gəldi. Azərbaycan hökuməti isə 3 gündən sonra bizim köməyimizə gəldi. Bu 3 gündə biz yolu bağlamışdıq, maşınları buraxmırdıq, ermənilər yalvarırdılar. Ancaq kənddə çörək də tükənmişdi. O zaman Həsən Həsənovun müdaxiləsi ilə şəhərə ərzaq gətirmək mümkün oldu”.



**E.Məmmədov dedi ki, həmin gün xocalılar ermənilərin yaxşı payını verdilər. Amma hücum edən ermənilər olsa da, 9 nəfər Xocalı sakini həbs edilir:** “Ölən ermənilərin isə adı açıqlanmadı. Sonra məlum oldu ki, ölən və yaralanan ermənilər Ermənistandan gətirilən təhlükəli cinayətkarlar olub. Onda da Azərbaycan hökuməti bizə sahib çıxmadı. Hətta deyirdilər bu məsələni SSRİ rəhbərliyi araşdırır, biz qarışa bilmərik. İlyas İsmayılov sağdır. Vəzirov heç salamat olmasın, gəldim onun yanında, dedi biz Moskvanın işinə qarışa bilmərik. 7 nəferi buraxdılar, amma iki nəfər 1 il 9 ay həbsdə yatdı. O vaxtkı Azərbaycan rəhbəriyinin Qarabağa biganəliyi bu cür idi”.

**Xocalının sabiq rəhbəri çəkilən filmlərdə, yazılan kitablardakı yanlışlıqlar barədə də danışdı:** “Bu məsələlər bizim tariximizdir, burada hansısa təhrifə, düzgün olmayan məlumata yol vermək fəlakətdir. Eyni hadisə 3-4 müəllif tərəfindən fərqli-fərqli yazılır. Erməni bunları xarici dillərə tərcümə edib deyir ki, baxın, bunlar yalan danışırlar. Xocalı soyqırımı, Qarabağ hadisələri ilə bağlı belə yanlışlıqlar var. Tatyana Çaladzenin kitabında rəsmi sənədlər var. Müdafiə Nazirliyinin rəsmi məlumatında yazılır ki, 11-dən 12-nə keçən gecə ermənilər Malıbəyliyə hücum etdilər, 12-də ermənilər Xocalı aeroportuna hücum etdilər, döyüşlər gedir. Tamamilə yalandır. Ona görə də biz belə məsələlərdə diqqətli olmalıyıq. Mən Xocalıya rəhbərlik etmişəm, Xocalı ilə bağlı məndən dəqiq məlumat verən ikinci şəxs ola bilməz, çünki məsul şəxs idim, orda idim. Xocalıda Milli Ordu, ya OMON-un etdiklərindən bəhs olunur. 1988-ci ildən biz özümüzü qoruyurduq. Azərbaycanda Milli Ordu yaranandan sonra ərazi özünümüdafiə batalyonu yaradılmışdı, amma bir nəfər də olsun hərbçilər yox idi, hamı yerli sakinlər idi. Rəhmətlik Məhəmməd Əsədovun dövründə OMON yaradılandan sonra 20 nəfərlik qruplar Xocalı aeroportunda növbəli qaydada xidmət aparırdı. Bu da 1991-ci ilin sentyabrına qədər davam etdi. Bundan sonra rəhmətlik Əlif Hacıyevin rəhbərliyi ilə 25 nəfərdən ibarət milis dəstəsi yaradıldı və onlar keşik çəkməyə başladılar”. Deputat dedi ki, Ə.Hacıyevin ölümündən sonra Aqil Quliyevin rəhbərliyi ilə Xocalıya 21 döyüşçü gəldi: “Amma onlar da silahsız gəlmişdi. 5 nəfər də ərzaq üçün Ağdam tərəfə keçdi, geri qayıda bilmədi. Yalnız 16 nəfər qaldı, onların da 12-si şəhid oldu, 4-ü bu gün sağdır. Xocalının müdafiəçiləri Xocalı ərazimüdafiə batalyonunun üzvləri idi. Döyüşçülərin sayı 200 nəfərdən bir az artıq idi, amma hamısı silahlı deyildi. Şəxsi heyətdə avtomatlar, 4 əl pulemyotu, 2 qumbaraatan, komandir heyətində isə tapançalar var idi”.

E.Məmmədovun dediyinə görə, Xocalı aeroportunu qoruyan 25 nəfər tapança, avtomat, 1 snayper silahı ilə təchiz olunmuşdu. Onlarda bir dənə də sovet ordusundan qənimət olaraq əldə edilən BRDM olub: “Həmçinin Aqil Quliyevin rəhbərliyi ilə 16 nəfəri də bura əlavə etsək, qüvvələrin sayı bəlli olur. Bizdə əlavə 2 "Alazan", 1 dənə “Kristal” qurğusu var idi. Həsən Həsənov sağ olsun, onun köməyi ilə almışdım və ətrafdakı erməni kəndlərini viran qoyurduq. 366-cı alay olmasaydı, ermənilər heç vaxt bizə yaxın gələ bilməzdilər". Deputat Xocalıya hücum edən qüvvələrin qat-qat güclü olduğunu dedi.

Ermənilərin heç vaxt Dağlıq Qarabağın Azərbaycandan qoparılıb Ermənistana birləşdirilməsi fikrindən daşınmadığını vurğulayan E.Məmmədov ilginc bir faktı da açıqladı: “Xocalıda tikinti aparılanda bir erməni qayıdıb demişdi ki, ”ara, tikin, tikin, onsuz da bizə qalacaq". Mən gəlib Bakıda dedim Xocalı hamının yaşamağa evi var, gəlin Xocalının müdafiəsini möhkəmləndirək. Ancaq baxan olmadı. Əlimizdəki silahı gizlədirdik ki, Bakıdan gəlib tapacaqlar, özümüzü həbs edəcəklər. Qəriblərdə çayxanada qəbz vermişəm ki, mən filankəslərdən aldığım ov tüfəngini bu hadisələr başa çatandan sonra sahiblərinə qaytaracağam. Biz ordan-burdan silah yığırdıq. Hökumət qoşunlarından bizə tərəf heç kim gəlmədi. Yox idi hökumət. Heç yaralıları, meyitləri götürməyə də gələn olmadı. E.Məmmədov sabiq prezident Ayaz Mütəllibovu “qətiyyətsiz və qorxaq” adlandırdı. “Mən Ayaz Mütəllibov haqda hər şey demişəm, amma ”xəyanətkar" deməmişəm. Ancaq Xocalını xilas üçün zəruri tədbirlər görə bilməməsi də elə xəyanətdir. Azərbaycanın Müdafiə Nazirliyi yaradıldı, amma nazirlik, silah, sursat yox idi. Mən o dövrdəki rəhbərliyi günahlandırıram ki, xalqı səfərbər edə bilmədilər. Mən 10 nəfərlə iki sutka meşədə qalmışdım. Gəldim ki, mənim ölüm xəbərimi yazıblar. Onu da oxudum ki, Xocalıda iki nəfər ölüb, şəhər uğrunda döyüşlər gedir".

❑ **Elşad PAŞASOY**



## Rusiyadan Bakıya gələn avtobus aşdı - 11 Azərbaycan vətəndaşı xəsarət alıb

**Rusiyada içərisində azərbaycanlıların da olduğu mikroavtobus qəzaya uğrayıb. APA-nın RİA “Novosti”-yə istinadən verdiyi məlumata görə, Nijni Novqorod-Bakı marşrutu üzrə hərəkətdə olan mikroavtobusun Kalmıkiya ərazisində qəzaya uğraması nəticəsində xəsarət alanların hamısı Azərbaycan vətəndaşıdır.**

APA-nın məlumatına görə, bu barədə RİA “Novosti”-yə açıqlamasında Rusiya Fövqəladə Hallar Nazirliyinin Cənub Regional Mərkəzindən bildirilib.

“Hadisə nəticəsində 7-si uşaq olmaqla, 11 nəfər xəsarət alıb. Onların hamısı Komsomolski qəsəbəsində xəstəxanaya yerləşdirilib. Mikroavtobusda 17 nəfər olub, onlardan 9-u uşaqdır. Sərnişinlərin hamısı Azərbaycan vətəndaşlarıdır”, - deyə Mərkəzdən bildiriblər.

Məlumatda o da qeyd olunub ki, xəsarət alanlar arasında ağır vəziyyətdə olan yoxdur.

**Qəza zamanı yanğın baş verməyib, yolda avtomobillərin hərəkətinə manee yaranmayıb.**

YENİ MÜSAVAT
N 129 (6743) 17 iyun 2017

**Misir prezidenti Əbdülfəttah əs-Sisi Qətərə tətbiq olunan embarqonun Türkiyəyə qarşı da tətbiqini təklif edib. Qətər və körfəz ölkələri arasında gərginliyin azaldılması üçün Misirə səfər edən Bəhreyn kralı ilə görüşən Hamad bin İsa əl Xəlifə ilə görüşündə prezident Sisi oxşar blokadanın Türkiyəyə qarşı tətbiq olunmasını istəyib. O, bununla Qətərin əsas dəstəkçisi olan Türkiyənin cəzalandırılacağını düşünür.**

# Qətərdən sonrakı hədəf... Türkiyədir?

## Misir prezidenti və ABŞ dövlət katibinin Türkiyəni hədəfə alan açıqlamaları narahatlıq yaradır...

Ancaq aydın məsələdir ki, 2013-cü ildə baş verən hərbi çevrilişdən sonra Türkiyə və Misir arasında münasibətlər kəskin şəkildə pisləşib. Türkiyə Misirin devrilmiş prezidenti Mursini dəstəkləyib və çevrilişi qınayıb. İndi isə Misirin də daxil olduğu ölkələr qrupu Qətərə embarqo tətbiq edib və təcrid vəziyyətinə salmağa çalışır. Misir də bu vəziyyətdə Qətərin ən yaxın müdafiəçisi olan Türkiyənin cəzalandırılması ilə həm də Ankaradan qisas almağa çalışıb.

Əlbəttə, Türkiyənin açıq şəkildə Qətərin yanında yer alması, hətta embarqodan dərhal sonra Qətərə əsgər göndərmək haqqında qanunu ratifikasiya etməsi ərəb ölkələrində ciddi narazılıq doğurub. Son günlər Səudiyyə Ərəbistanı və BƏƏ mediası Türkiyəni ittiham edən yazılara ara vermir.

Ancaq Sisinin çağırışının qəribə tərəfi onunla üst-üstə düşən başqa bir açıqlama idi. Sisinin bu təklifi mediada yayıldığı vaxt ABŞ dövlət katibi Reks Tillersonun Türkiyə haqqında başqa bir açıqlaması tirajlayırdı. ABŞ dövlət katibi bildirib ki, "Müsəlman Qardaşlar" (İxvan) hökumətlərin bir hissəsinə çevrilib. Və buna misal olaraq Türkiyə və Bəhreyn dövlətini qeyd edib. Onun sözlərinə görə, məhz bu səbəbdən "İxvan"ı terrorçu olaraq tanımaq çətinləşib. Tillerson deyib ki, bu səbəblərdən Qətərə qarşı embarqo tətbiq edən ölkələrin "Müsəlman Qardşlar" təşkilatını terrorçu elan etməsi bölgədə sabitliyi pozacaq. Konqresdə etdiyi çıxışında Tillerson Türkiyə və Bəhreyn parlamentlərində "ixvan"çıların olduğunu deyib. Eyni zamanda deyib ki, müsəlman aləmində 5 milyondan artıq üzvü olan "ixvan" içərisində radikallar olsa da, hamısı belə deyil. Bu səbəbdən də ABŞ dövlət katibi bütün "ixvan"çıları terrorist adlandırmağa qarşı olduqlarını deyib.

Ancaq aydın məsələdir ki, hər nə qədər ütülü ifadə olmasına baxmayaraq Tillerson dövlətin ən üst mərtəbəsində yer alan birinin Türkiyə hakimiyyətini "ixvan"la bağlaması sıradan hadisə deyil. Məsələ ondadır ki, Qətərə qarşı körfəz ölkələrinin əsas ittihamlarından və tələblərindən biri də "İxvan"la olan əlaqələrinin dayandırılması və bu təşkilatın üzvlərinin *(terrorçu siyahısına salınıblar - K.R.)* deportasiya edilməsi tələbi var. Qətər bu tələbi yerinə yetirməkdən imtina edir. Ancaq indi məlum olur ki, ABŞ dövlət katibi Qətərin ən yaxın dəstəkçisi Türkiyə iqtidarını da "ixvan" hesab edir və bunu açıq şəkildə



ifadə edir. Bu isə Türkiyənin açıq da olmasa hədəf göstərilməsidir. Çünki Türkiyə Qətərin yaxın müttəfiqi, əsas müdafiəçisidir.

Bundan başqa, Qətər eyni zamanda Türkiyə iqtisadiyyatının əsas sərmayəçilərindən biridir. Bəzi məlumatlara əsasən hazırda Türkiyə iqtisadiyyatında 19 milyard dollar Qətər sərmayəsi dolaşır. Bundan başqa qətərli iş adamları, hakim ailə nümayəndələri Türkiyədə inşaat, turizm və digər sahələrə iri həcmdə yatırımlar qoyub. Yəni hazırda Türkiyə və Qətər bölgədə iki ən yaxın müttəfiqdir.

Bilindiyi kimi, hazırda Qətər körfəz ölkələrinin faktiki olaraq mühasirəsi altındadır. Körfəz ölkələri Qətəri terrorizmi maliyyələşdirməkdə, terrorçuları himayə etməkdə ittiham edir. Hazırda Qətərlə dəniz və hava dəhlizləri qapadılıb, quru sərhədi bağlanıb. Faktiki olaraq blokada altında olan Qətər Türkiyə və İran kimi ölkələrdən ərzaq yardımı alır.

Maraqlıdır ki, iki gün əvvəl mediada Qətərin ABŞ-la 12 milyard dollarlıq silah satışı müqaviləsi imzalanıb. Vaşinqton Dohaya "F-15" qırıcıları satacaq. Ancaq aydın məsələdir ki, bu silah anlaşması Qətərin özünü düşmənlərdən qorumaqdan daha çox, onun Vaşinqtonla arasını düzəltmək addımıdır. İndiki Qətər əmirinin atası böhrandan dərhal sonra Vaşinqtona səfər edib və burada siyasi dəhlizlərdə danışıqlar aparır. Qətərin Amerikadan silah alması bu mənada Vaşinqtonu yumşaltmaq cəhdidir. Belə görünür ki, Doha indi buna nail olub, baxmayaraq ki, ABŞ prezidenti Tramp Qətəri açıq şəkildə terrorizmi maliyyələşdirməkdə ittiham etmişdi.

Məhz Vaşinqton anlaşmasından sonra Səudiyyə Ərəbistanı XİN rəhbəri Adil əl-Cubeyr deyib ki, Qətərə ərzaq yardımı etməyə hazırdırlar. Belə görünür ki, Qətər hələlik Vaşinqtonla anlaşıb və özünü qoruya bilib. Ancaq məhz Qətərin Vaşinqtonla anlaşdığı gün dövlət katibi Tillersonun və Misir prezidentinin Türkiyəni hədəf göstərən açıqlamaları təsadüfə bənzəmir. Bir sıra türkiyəli ekspertlər də Vaşinqton və ərəb müttəfiqlərinin növbəti hədəfinin Türkiyə ola biləcəyindən narahatdır.

**Bu mövzunun böyüməməsi belə, Ankaraya qarşı ittihamlar onun Yaxın Şərqdəki müstəqil siyasət kursunu zədələyir. Türkiyə əvvəlki kimi çoxsaylı müttəfiqləri ilə birlikdə hərəkət etmir. Hətta Amerikanın Suriyanın şimalında kürdlərlə birgə hərəkət etməsindən Ankara faktiki olaraq Suriyada yalnızlşdırılıb. Bu vəziyyət Ankaranı Moskva və Tehrana tərəf itələsə də, Tillersonun "Ankaranın Moskvaya yaxınlaşmasından narahatıq" deməsi onu göstərir ki, Vaşinqton Suriyada Ankara-Moskva-Tehran üçbucağından narazıdır.**

❑ Kənan RÖVŞƏNOĞLU

# Amerikanın Tramp travması

## **Politoloq:** "Ola bilər ki, onun impiçment məsələsi bu gün üçün tezdir, ancaq Tramp davranışlarına davam edəcəksə, bu baş verəcək"

**Donald Trampın Amerika prezidenti kimi fəaliyyətindən 5 aya yaxın vaxt keçir. Bu aylar ərzində Tramp daha çox mediaya qarşı sərt mövqeyi, qeyri-adi açıqlamaları və rezonans doğuran "tvit"ləri ilə gündəmə gəlib. Hələ də namizədlik dönəmində verdiyi əksər vədlərini isə yerinə yetirə bilməyib.**

Bu aylar ərzində onun Rusiya ilə əlaqələri barəsində də ABŞ-ın yerli mediasında çoxsaylı xəbərlər dolaşdı və Trampın impiçment məsələsi belə gündəmə gətirildi. Lakin reallıq budur ki, Tramp hələ də ABŞ prezidentidir və özünə xas hərəkətlərinə davam edir.

Bildirilir ki, bu günlərdə Trampın həyata keçirmək istədiyi səyahət qadağası barədə atdığı "tvit" ölkənin turizm sektoruna da zərbə vurub. Müşavirləri ona "twitter"dəki bu kimi fəaliyyətini durdurmağı məsləhət görsələr də, o, bu məsləhətlərin heç birinə əməl etmir.

Politoloq Fərhad Mehdiyev "Yeni Müsavat"a bildirib ki, Tramp Amerikanın prezidentləri tarixində daha öncə görünməmiş bir şəxsdir:

"Buş belə Tramp qədər olmayıb. Həqiqətən də Donald Trampın hərəkətlərini anlamaq çətindir. Diplomatik etikaya, protokol qaydalarına uyğun gəlməyən davranışlarını görürük. Əslində onu qeyd edim ki, prezident üçün sosial şəbəkədən istifadə etmək qadağan deyil. Sadəcə olaraq o, yazmağı ilə problemlər yaratdığı üçün bildirirlər ki, bu addımları durdur. Ancaq buna baxmayaraq, görünən odur ki, Tramp bütün



bunları eşitmir. Hesab edir ki, prezident olduğuna görə, istəsə müşavirlərinə qulaq asar, istəsə də asmaz. Eyni zamanda son zamanlar çox biabırçı qaydada bəzi dövlət qulluqçularını vəzifədən aldı. Səbəb də odur ki, bu adamlar Trampın dediklərini etmirlər. Bütün bunlar baş verdikcə Trampın dosyesində onun əleyhinə xeyli faktlar toplanır. Ola bilər ki, onun impiçment məsələsi bu gün üçün tezdir, ancaq Tramp davranışlarına davam edəcəksə, onun impiçment olunması mümkündür. Bir çox insan deyir ki, o, impiçment ola bilər. Əslində, bu adımı indi də çıxara bilərlər. Çünki FTB direktoru Ceyms Komini, baş müşaviri Ed Brukoveri vəzifədən azad etməsi sırf siyasi səbəblərlə bağlı olduğuna görə, vəzifədən sui-istifadə kimi xarakterizə oluna bilər. Ancaq bunun üçün Senat qərar verməlidir. Senat qərar verməlidir ki, Trampla bu qədər gedilən yol bəs edər. Görünür, bu qərar hələ verilməyib. Unutmamaq lazımdır ki, Amerikada lobbilərin gücü həddindən artıq çox təsirlidir. Bura silah, maliyyə, erməni, yəhudi lobbisini aid etmək olar. Hal-hazırda Tramp bir çox maliyyə lobbilərinin maraqlarını təmin edir. Ola bilər ki, buna görə də cəsarətli davranır. Yəni siyasi qurumlarla bəzən baş-başa gəlməkdən çəkinmir və hesab edir ki, hələ onun istifadə edəcəyi kredit miqdarı var".

**Politoloq istisna etmir ki, Tramp sadəcə olaraq bir proyektdir:**

"Əslində Tramp Respublikaçılar Partiyasının namizədidir. Düzdür, ora seçki ilə gəlib. Bütün Respublikaçılar Partiyası "bizim tək namizədimiz Trampdır", deyə onu qabağa çıxarsaydılar, düşünərdik ki, bu bir proyektdir. Ancaq belə olmayıb. Eyni zamanda onun proyekt olub-olmadığını istisna etmək də mümkün deyil. Vədlərinə gəlincə isə o, bunların əksəriyyətini yerinə yetirə bilmədi. Məsələn, "Obamacare" sistemini ləğv edəcəyini söyləsə də bunu bacarmadı. Dedi ki, Meksika ilə sərhədə divar çəkəcəm. Ancaq bunun üçün nə Konqres , nə də Trampın dediyi kimi Meksika vəsait ayırmadı. Bütün bunlar Trampın imicini daha da zədələyir. Əslində isə bir məsələ də var ki, Amerikada səsləri ümumi olaraq götürdükdə, seçicilərin çoxu onun prezident olmasını istəməyib. Sadəcə olaraq onu, əyalətlər üzrə ara nümayəndələr seçiblər. Seçicilərin çoxu isə Klintona səs vermişdilər. Bu isə onu göstərir ki, Trampın elə də böyük imici yoxdur. İkincisi isə mən Xarici İşlər Nazirliyinin işçiləri ilə özüm də bu məsələ ilə bağlı danışmışam. Onlar da Trampa yaxşı baxmırlar. Eləcə də əsas media agentlikləri də Trampa qarşıdır. Tramp özü də dəfələrlə bildirib ki, mənim mübarizəm Amerika mediası ilədir. Ancaq digər tərəfdən də Trampa səsverənlər baxımından onun imicinin pisləşdiyini hesab etmirəm. Düşünürəm ki, Trampa inanıb, onu sevənlər Trampın digər yuxarıda qeyd etdiyimiz kimi hərəkətlərini də dəstəkləyib, təsdiqləyirlər".

❑ Əli RAİS

YENİ MÜSAVAT
N 129 (6743) 17 iyun 2017

# Bakının bəzi çimərliklərində çimmək qadağan olundu




**Azərbaycanda çimərlik mövsümü başladı. Publika.az xəbər verir ki, Bakı Şəhər İcra Hakimiyyətinin sərəncamı ilə iyunun 15-dən çimərlik mövsümü açıq elan edilib.**

Lakin heç də bütün çimərliklər istifadəyə yararlı deyil. Belə ki, Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Xəzər Monitorinq İdarəsi ilə birgə may ayının 16-dan etibarən keçirdiyi monitorinqinin nəticələrinə görə, Abşeron yarımadasında Səbail rayonunun Şıx çimərliyi və Qaradağ rayonunun Sahil çimərliyi çimmək üçün yararsız hesab olunub. Adıçəkilən ərazilərdə vətəndaşların çimməsi tövsiyə edilmir.

Qeyd edək ki, çimərlik mövsümü ərzində Fövqəladə Hallar Nazirliyin Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin xilasediciləri çimərliklərdə insanlar təhlükəsizliyini təmin edəcək, xilasetmə tədbirləri həyata keçirəcək. Artıq qadağanedici, xəbərdaredici lövhələr çimmək üçün təyin edilmiş yerlərdə yerləşdirilib, üzmə sərhədləri müəyyənləşdirilib, şarlar qoyulub, suya baxış keçirilib.

Bakı şəhər Təcili və Təxirəsalınmaz Tibbi Yardım stansiyasının əməkdaşları çimərliklərdə növbə çəkəcək.

Çimərliklər sentyabrın 15-dək vətəndaşların istifadəsində olacaq.


**İzrail ənənəsi əsasında özəl tibbi sahədə 20 illik təcrübə!**
**XƏSTƏLİKDƏN ƏZAB ÇƏKƏN İNSANLARA ƏSASƏN KİŞİLƏRƏ!**
**DİQQƏT!!! AXIRINCI ŞANS!!!**

Azərbaycanda və yaxud xaricdə diaqnozun təsdiqi və tam müalicəsi mümkün olmayıbsa, **doktor VAİZ SƏMƏDOV** şəxsi tibbi metodikası ilə Sizin uğurlu və daha qarantili olaraq aşağıdakı xəstəliklərinizi keyfiyyətli müayinə və müalicə edə bilər.

✳ **Diaqnozu bilinməyən ağır hallar;**
✳ **Xərçəngə şübhəli olan prostat düyünlü adenoması. Prostatitlər; Qipertrofiya və ya Atrofiya**
✳ **Cinsi zəiflikdən tam impotensiyadək, marağın və aktların azalması;**
✳ **Vaxtından tez toxum ifrazatı (səbəbdən asılı olmayaraq)**
✳ **Toy gecəsinin uğursuzluqları (kişi tibbi problemlər)**
✳ **Sidikdə və ya spermada qan;**
✳ **Spermanın azalması və itməsi;**
✳ **Kişi cinsi orqanının birdən əyilməsi və balacalması;**
✳ **Oğlan uşaqlarında cinsi orqanların (penisin və xayaların) inkişafdan qalması;**
✳ **Hormonal və infeksion səbəbli sonsuzluq (kişi və qadınlarda);**
✳ **Tala-tala və hərtərəfli saçların tökülməsi;**
✳ **Gecə-gündüz uşaq və böyüklərdə sidik aktların pozulmaları; Enurez**
✳ **50 yaşdan sonra oynaqlarda və onurğada baş verən qeyri travmatik ağrılar və hərəkət çətinlikləri;**
✳ **Sesksual inamsızlıq, gərginlik və qorxu nevrozları.Yuxu pozğunluqları**
✳ **Zöhrəvi xəstəliklərdən sonra qalıqlar və ağırlaşmalar.**

---------------------------------------------------------

**D-r V.Səmədovun əsas tibbi prinsipi - keyfiyyətli və təkrarsız müalicə aparmaq üçün xəstəliyin əsl və bütün səbəblərini aşkar etmək zəruridir.**

---------------------------------------------------------

*Qəbula yazılmaq və ünvanı öyrənmək üçün saat 11-dən 23-ə dək,* ***(050) 213-88-05*** *nömrəsinə,* ***d-r Vaiz Səmədova*** *zəng etmək olar.*

Qəbul növbə ilə hər gün saat 12-dən sonra başlayır.




## İntensiv yağış yağacaq, şimşək çaxacaq, güclü külək əsəcək

**İyunun 17-də ölkə ərazisində gözlənilən hava şəraiti ilə bağlı məlumat açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən musavat.com-a verilən məlumata görə, sabah Bakıda və Abşeron yarımadasında arabir yağış yağacağı gözlənilir.**

Yarımadanın bəzi yerlərində intensivləşəcəyi ehtimalı var. Günün ikinci yarısında dəyişkən buludlu, əsasən yağmursuz. Mülayim şimal-qərb küləyi arabir güclənəcək.

Havanın temperaturunun gecə 15-18° isti, gündüz 21-25° isti, Bakıda gecə 16-18° isti, gündüz 23-25° isti olacağı gözlənilir. Atmosfer təzyiqi 758 mm civə sütunundan 762 mm civə sütununa yüksələcək. Nisbi rütubət gecə 85-95 %, gündüz 65-75 % təşkil edəcək.

**Xəbərdarlıq**

İyunun 16-sı axşamdan 17-si gündüzədək Bakıda və Abşeron yarımadasında arabir yağış yağacağı gözlənilir. Bəzi yerlərdə intensiv olacağı, şimşək çaxacağı ehtimalı var. Arabir güclənən şimal-qərb küləyi əsəcək.

**Tibbi-meteoroloji proqnoz**

İyunun 17-18-də Bakıda və Abşeron yarımadasında komfort temperatur şəraitinin üstünlüyü meteohəssas insanlar üçün əsasən əlverişlidir.

Azərbaycanın rayonlarında bəzi yerlərdə şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, dolu düşəcəyi ehtimalı var. Gündüz saatlarında əksər rayonlarda əsasən yağmursuz. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturunun gecə 14-19° isti, gündüz 26-31° isti, dağlarda gecə 13-18° isti, gündüz 20-25° isti olacağı gözlənilir.

## 55 yaşlı ərli qadın WhatsApp-da yazışdığı kişiyə qoşulub Türkiyəyə qaçdı

**Cəlilabaddan Nadir adlı şəxs “Xəzər” televiziyasında Xoşqədəm Hidayətqızının təqdimatında yayımlanan “Bizə danış” verilişinə müraciət edərək həyat yoldaşı İsayeva Səbirə Bəxtiyar qızını axtardığını bildirib.**

“Ölkə.Az”-ın məlumatına görə, uzun axtarışlardan sonra məlum olub ki, S.İsayeva rayondan Bakıya iş adıyla gəlib və oradan Türkiyənin Balıkəsir bölgəsinə gedərək ailə həyatı qurub.

Xəbəri eşidən Nadir kişinin canlı yayımda halı pisləşib. Ərini evdə qoyaraq Türkiyəyə gedən Səbirə İsayeva isə ərinin günahkar olduğunu və hazırda özünü xoşbəxt hiss etdiyini bildirib. Nadir kişi həyat yoldaşının gecələr telefonda kimləsə yazışdığını deyib:

“Gecələr telefonda yazışırdı. Mənə deyirdi ki, Yasamaldan iş yoldaşlarımla danışıram. Bakıya da iş adıyla çıxıb. Xahiş edirəm ki, onu tapıb mənə verəsiniz”.

## Qız öz evlərindən 12000 manat və 4000 manatlıq qızıl oğurlayıb

**Bu il aprel ayının 15-dən iyunun 14-dək olan müddətdə Nərimanov rayonu ərazisindəki mənzillərdən birindən naməlum şəraitdə 12.000 manat pul və 4.000 manat dəyərində qızıl əşyalar oğurlanıb.**

Musavat.com-un DİN-in saytına istinadən verdiyi məlumata görə, Nərimanov RPİ 18-ci PB əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində oğurluğu törətməkdə şübhəli bilinən ev sahibəsinin qızı saxlanılıb və izahatı alındıqdan sonra buraxılıb.

## Bank kartlarından pul oğurlayan haker tutuldu

**Daxili işlər Nazirliyi və Dövlət Təhlüekəsizlik Xidməti əməkdaşları Bakıda vətəndaşın bank hesabından pul çıxaran şəxsin zərərsizləşdirilməsi ilə bağlı əməliyyat keçirib.**

Daxili İşlər Nazirliyindən musavat.com-a verilən məlumata görə, cari ilin may ayının 11-də Bakı şəhər sakini Qızqayıt Abbasova Nəsimi RPİ 22-ci Polis Bölməsinə müraciət edərək “Kapital Bank”dakı hesabından 207 manat pulunun yoxa çıxmasını bildirib.

Dövlət Təhlükəsizliyi Xidməti və Nəsimi Rayon Polis İdarəsi əməkdaşlarının birgə həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri ilə Q.Abbasovanın pulunun Qazax rayon sakini Əli Əliyev tərəfindən internet vasitəsi ilə çıxarılması müəyyən edilib və o, iyunun 12-də Nəsimi rayonu ərazisində tutularaq istintaqa təhvil verilib.

Faktla əlaqədar Cinayət Məcəlləsinin 177-ci (oğurluq) maddəsi ilə cinayət işi başlanılıb.

## Bakıda gənc oğlan elçilərinə “yox” cavabı verən qızın atasını döydü

**Bakıda evlənmək istəyən oğlan onun elçilərinə “yox” cavabı verən qızın atasını və əmisini döyüb. “Report” xəbər verir ki, hadisə Xəzər rayonu Mərdəkan qəsəbəsində qeydə alınıb.**

Belə ki, 1997-ci il təvəllüdlü Həsən Məhəmmədzadə Lənkəran rayon sakini, qızını ona verməyən Mehman Əliyevin Mərdəkan qəsəbəsindəki evinə hücum edərək onu və qardaşını döyüb.

Zərərçəkənlər xəstəxanaya yerləşdirilib.

Faktla bağlı Xəzər Rayon Polis İdarəsində Cinayət Məcəlləsinin 221-ci (xuliqanlıq) maddəsi ilə cinayət işi başlanılıb.




# Universitetə qəbul üçün bir illik hazırlıq qrupları təhsilimizə nə vəd edir?

## "Bu qayda gənclər qarşısında yeni imkanlar açır və tələbə olmaları üçün daha bir şans verir"

**Milli Məclisin iyunun 13-də keçirilən növbədənkənar iclasında "Təhsil haqqında" qanuna edilən dəyişikliklər ictimaiyyətdə müzakirəyə səbəb olub.**

Məlumat üçün bildirək ki, Milli Məclisin Elm və təhsil komitəsinin sədr müavini Bəxtiyar Əliyevin sözlərinə görə, qanuna təklif edilən dəyişiklik ölkənin ali təhsil sistemində bakalavriat səviyyəsində bir illik ödənişli hazırlıq qruplarının təşkilini nəzərdə tutur.

Layihəyə əsasən, hazırlıq qruplarında tədrisin sonunda keçiriləcək buraxılış imtahanlarında müvəffəqiyyət qazanan tələbələr ali təhsil müəssisələrinin birinci kursuna qəbul olunacaqlar. Bildirilib ki, məqsəd ölkədə ali məktəblərə qəbul oluna bilməyən gənclərin xaricə axınının qarşısını almaq və bilik səviyyəsinin artırılmasına yardım etməkdir.

Lakin bəzi ekspertlər eləcə də deputatlar bu dəyişikliyi birmənalı qarşılamayıblar. Bildirilir ki, əhalinin sayı ilə müqayisədə Azərbaycanda tələbələrin sayının az olması əsas vermir ki, keyfiyyətsiz mütəxəssis hazırlığı həyata keçirilsin.

*Bəs bir il müddətində ali məktəbə qəbul olmaq mümkündürmü?*

**Təhsil eksperti Məlahət Mürşüdlü** "Yeni Müsavat"a açıqlamasında söyləyib ki, bu cür şəxsləri heç də savadsız adlandırmaq olmaz:

"Bu hazırlıq qrupları lazım olan balı yığa bilmədiyi üçün ali məktəbə qəbul olmayanlar üçündür. Əsas məqsəd deyildiyi kimi xaricə axının qarşısının alınmasıdır. Kurslar universitetlərin nəzdində təşkil olunacaq. Bir il hazırlığa gələnlərin materialı mənimsəməyi məsələsinə gəlincə isə nəzərə almaq lazımdır ki, bu qruplar hər kəs üçün nəzərdə tutulmayıb. Məlumata görə, qəbul imtahanlarında 400 baldan aşağı toplayanlar burada iştirak etmək hüququndan məhrumdurlar. 400 baldan yuxarı toplayıb, istədiyi ixtisasa qəbul ola bilməyən tələbələr isə hesab edirəm ki, müəyyən baza biliyinə sahibdirlər. Düşünürəm ki, bir ilin içərisində oxumaqdan asılı olaraq, onlar istədikləri nəticəni əldə edə bilərlər. Ancaq bu qərara uyğun olaraq yerinə yetirilmə mexanizmini də özündə ehtiva edən təlimat hazırlanmalıdır. Bu təlimatdan isə çox şey asılıdır ki, tələbə olmaq istəyənlərə kimlər dərs deyəcəyi, kursların neçə saat hansı fənlər üzrə olması kimi məsələlər hələ ki, açıq qalıb. Gələcək göstərəcək ki, tələbələr bu proqramı yerinə yetirə biləcəklər, yoxsa yox".

**Ekspert bildirib ki, sovet dönəmində də belə bir praktika olub:**

"Lakin həmin kurslar pulsuz idi və institutların müəllimləri onları hazırlayırdılar. Forma olaraq belə bir sistemi qəbul edirəm. Çünki bu, gənclər qarşısında yeni imkanlar açır və tələbə olmaları üçün daha bir şans verir. Eyni zamanda bu onların xaricə axınının da qarşısını alacaq. Hesab etmirəm ki, hazırlıq kursunu bitirənlər savadsız olsunlar. Oxuyan üçün biliyinin üstünə bilik gələcək. Hər halda 400 baldan yuxarı toplayanlara savadsız demək olmaz. İndilik üçün belə deyirlər ki, 400 baldan aşağı nəticə göstərənləri qəbul etməyəcəklər. Kursun sonunda isə bu şəxslər imtahan verəcəklər. Ancaq sonra söylənənlərin əksi baş verərsə, o, başqa məsələdir. Bir məsələni də deyim ki, imtahanın testlə, yoxsa digər formalarda olacağı da hələ ki bəlli deyil".

Eyni zamanda "Təhsil haqqında" qanuna edilən dəyişikliklərin ali məktəbə qəbul ola bilməyən oğlan uşaqlarının hərbi xidmətə möhlət hüququ məsələsinə müsbət təsir edəcəyi bildirilir. Məsələ ilə bağlı **hərbi ekspert Üzeyir Cəfərov** bildirib ki, bu dəyişiklik ali məktəbə qəbul olmayan oğlan uşaqlarına 1 il ərzində xidmətdən möhlət hüququ qazandıracaq:

"Əslində, çox gözəl bir addımdır və həqiqətən də gənclərimiz nə qədər savadlı, bilikli olsalar, Silahlı Qüvvələrdə xidmətə başlayanda da, xidmət keçəndə də həm özləri üçün, həm də komandir və rəis heyəti üçün onlarla qarşıya qoyulan tapşırıqları yerinə yetirmək daha rahat, daha asan başa gəlir. Amma bu yeniliyin qəbul olunması ortaya xeyli çətinlik və problemlər çıxaracaq".

Həmçinin onu da qeyd edək ki, bu ildən ali məktəblərdə 1 və ya 2 akademik borcu olan oğlan tələbələrin hərbi xidmətlə bağlı yaranan problemləri həll olunacaq. Bu barədə iyunun 16-da Təhsil Nazirliyində keçirilən mətbuat konfransında **nazirliyin aparat rəhbərinin müavini, Elm, ali və orta ixtisas təhsili şöbəsinin müdiri Yaqub Piriyev** məlumat verib. O bildirib ki, əvvəllər oğlan tələbələrin tədris müddətində akademik borcları qalırdısa, onlar həmin borcu hərbi xidmətdən sonra vermək məcburiyyətində qalırdı.

**Onun sözlərinə görə, artıq oğlan tələbələr yeni qaydalara əsasən imtahan sessiyası başa çatandan sonra 1-2 fənn üzrə akademik borcunu ödəyib əsgərliyə gedə biləcəklər. Söhbət yalnız 1-2 fənn üzrə akademik borcdan gedir.**

❑ **Əli RAİS**

# Manat ilin sonuna kimi ucuzlaşmayacaq-rəy




## FED-in növbəti dəfə uçot dərəcələrini artırması manatı dəyərdən salacaqmı?

**ABŞ-ın Federal Ehtiyatlar Sisteminin (FED) növbəti iclası baş tutub. Proqnozlaşdırıldığı kimi, FED uçot dərəcəsini 0,75-dən 1-1,25-dək artırıb. Xatırladaq ki, sonuncu dəfə FED martın 15-də uçot dərəcəsini illik 0,5-0,75% səviyyəsindən 0,75-1%-dək artırıb.**

Bəs görəsən, bu qərar dünya bazarında dolların bahalaşmasına səbəb olacaqmı? Yaxın müddətdə manatın məzənnəsinə bu amil necə təsir edəcək?

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vahid Əhmədov mövzu ilə bağlı şərh verərkən bildirib ki, FED-in uçot dərəcəsini növbəti dəfə artırması Azərbaycana da təsirsiz ötüşməyəcək:

"FED bu addımı nə vaxt atıbsa, dünyada milli valyutalara öz təsirini göstərib. İstər avro, istər digər dövlətlərin milli valyutasına bu öz təsirini göstərməyə bilməz. Çünki dollar yeganə valyutadır ki, dünyanın bütün maliyyə bazarlarında fəaliyyət göstərir".

**FED-in son qərarının Azərbaycana konkret təsirinə gəlincə, V.Əhmədov qeyd edib ki, bu birbaşa olmasa da maliyyə bazarında müəyyən qədər ajiotaj yarada bilər:** "Ola bilər ki, manatın məzənnəsində müəyyən dəyişiklik olsun. Amma hələlik milli valyutamız tələb-təklif əsasında maliyyə bazarında öz işini görür. Manatın xarici valyutalara kursu maliyyə institutlarının verdiyi tələb və təkliflər əsasında, o cümlədən neftin dünya bazarındakı qiyməti, idxal-ixrac əməliyyatları ilə tənzimlənir və sonda üzən məzənnə siyasəti ilə müəyyənləşir. İnanmıram ki, yaxın günlərdə FED-in qərarı manatın məzənnəsinə ciddi təsir göstərsin. 1-2 qəpik təsir göstərmək imkanı var. Amma FED uçot dərəcəsini artırmaqda davam edərsə, təbii ki, dünyanın digər valyutalarına olduğu kimi, manata da ciddi təsir göstərəcək".

**İqtisadçı-ekspert Natiq Cəfərli** isə "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, budəfəki faiz artımını bazarlar öncədən "həzm etmişdi": "Təqribən iki ay öncə FED faizləri artıracağı ilə bağlı bazara siqnal vermişdi, bununla bağlı açıqlamaları olmuşdu. Ona görə də indiki faiz artımı artıq bazarlar tərəfindən qiymətləndirilmişdi. İndiki məzənnənin içində də özünü büruzə vermişdi. Ancaq FED-in faiz artımından sonra verdiyi rəsmi bəyanatı daha ciddi proseslərin olmasından xəbər verir. FED növbəti 6 ayda faizlərin ən azı 1 dəfə yenidən artırılacağını bəyan etdi. Daha maraqlı bir açıqlama ondan ibarətdir ki, indi Federal Rezerv Sistemi bazarlarda likvidliyi saxlayan əsas maliyyə qurumlarından biridir. Dolların dövriyyəsini artıran və likvidlik yaradan bir qurumdur. Artıq o likvidlik də azalmağa başlayacaq. Birjalara daha az valyutanın çıxması ehtimalı yüksəlib. Bu da ona gətirib çıxaracaq ki, dolların indeksi ilin sonuna qədər addım-addım yüksələcək. Dolların indeksi digər valyutalar qarşısında qalxdıqca, qonşu ölkələrdə və dünyada dolların bahalaşmasını görəcəyik".

**Natiq Cəfərlinin sözlərinə görə, bu Azərbaycana iki istiqamətdən təsir göstərir:** "Azərbaycanda üzən məzənnə siyasətinə keçid elan olunsa da, məzənnə inzibati nəzarət altındadır. Çünki bizdə qiymətli kağızlar birjası yoxdur. Biz dünya birjalarında digər valyutaların saniyə-saniyə dəyişdiyinin şahidi oluruq. Manatla bağlı isə belə siyasət həyata keçirilmir. Həftə ərzində cəmi iki hərrac olur. Mərkəzi Bank da bu prosesə sərt nəzarət edir. Ona görə də, FED-in qərarının qısa müddətdə manatın məzənnəsində özünü büruzə verməsini gözləmək əbəsdir. İlin sonuna kimi kəskin devalvasiyanı gözləmək də yersizdir. Çünki Mərkəzi bank və hökumət kəskin devalvasiyaların iqtisadiyyata çox böyük zərbə vurduğunu görüb. Əsasən ilin sonuna yaxın, payız aylarında manatın yumşaq şəkildə dəyərdən düşməsini izləyə bilərik. Çünki ən azından qonşularımızda, ticarət tərəfdaşlarımızda dollar bahalaşdıqca, bunun bizim bazarlara da birbaş təsiri olur. Azərbaycan manatının yerində qalması mümkünsüz hala gəlir. İkinci təsiri ondan ibarətdir ki, dünya birjalarında dollar bahalaşdıqca, əmtəə ucuzlaşır. Enerji daşıyıcıları, qızıl, gümüş və sair bu kimi əmtəə malları ucuzlaşır. Neftin ucuzlaşma ehtimalı da yüksəlir. Bu da Azərbaycanın valyuta gəlirlərinə mənfi təsir göstərir. Dolların bahalaşmasının bu cür iki yöndən Azərbaycan iqtisadiyyatın təsiri payız aylarında özünü daha ciddi göstərəcək. İl ərzində FED-in üçüncü dəfə faizləri artırmasından sonra Azərbaycanda manatla bağlı daha nəzərəçarpan prosesləri görə bilərik. Üçüncü faiz artımı isə sentyabr ayına təsadüf edəcək.

Kəskin addımlar olmasa da bu ilin sonuna doğru yanvar ayında gördüyümüz pik həddə, yəni 1.90-1.92 hədlərinə doğru addım-addım manatın ucuzlaşmasını seyr edə bilərik".

**İqtisadçı-ekspert vətəndaşlara vəsaitləri dollarda saxlamağı tövsiyə etdi:** "Azərbaycan əhalisi iki devalvasiyadan sonra artıq ehtiyatlarını manatla saxlamaqdan imtina ediblər. Əhalinin əlində olan manat ehtiyatları artıq valyutaya çevrilib. Yenidən valyutaya olan tələbatın artması gözlənilir. Onu da nəzərə almaq lazımdır ki, yay ayı turizm mövsümüdür və Azərbaycandan xaricə gedənlərin sayı da artır. Bu da tələbatı artıran amillərdən birinə çevriləcək. Payız aylarına doğru proseslər sürətlənəndə əhalinin vəsaitlərinin yenidən dollara çevrilməsinin sürətləndiyini də görə bilərik. Həmçinin ilin sonunda büdcə xərcləmələri də artır. Keçən il büdcənin yarıdan çoxu 4-cü rübdə xərcləndi. Ölkəmizdə belə bir tendensiya var ki, büdcə xərcləmələri artdıqca manatın dövriyyəsi artır. Manatın dövriyyəsi artdıqca bu dollara tələbatı artırır. Bütün bu şərtləri nəzərə alsaq, ilin sonuna yaxın manatın ucuzlaşmasını çox böyük ehtimalla görə biləcəyik. Əlində vəsaiti olanlar da pulunu dollara çevirməkdə davam edəcək".

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT

Son səhifə

N 129 (6743) 17 iyun 2017


# Panda azad təbiətda ölürmüş



Çinin Siçuan bölgəsində panda heyvan sığınacağından buraxılandan 2 ay sonra tələf olub. Heyvan Liziping Nature Reserve adlı sığınacaqda qalırmış. Panda 2016-cı ilin 27 sentyabrında tələf olsa da, yerli media bu haqda ancaq indi yazır. Heyvan 2013-cü ildə dünyaya göz açıb. Onu ötən ilin mart ayından hazırlayıb 2016-cı ilin iyulunda da vəhşi təbiətə buraxıblar. İki ay sonra isə zoobağın işçiləri onu GPS vasitəsilə tapa biliblər. Heyvanın tapılmasına səbəb onun boynundan asılan və GPS-ə bağlı xüsusi cihaz olub. Araşdırmaçılar onun cəsədini yaralı vəziyyətdə tapıblar. Məlum olub ki, panda naməlum heyvanın hücumundan sonra sağ çiyinindən, qulaq və pəncəsindən yaralar alıb. Heyvan qan zəhərlənməsindən sonra tələf olub.



## 23 yaşlı qızın ayaq ölçüsü 50-dir

23 yaşındakı Emma Cahill Avropanın ən böyük ayaqlarına sahibdir. Geyinmək üçün ayaqqabı tapmaqdan şikayətlənən gənc qız görənləri heyrətə gətirir. Çünki onun ayaqları nə az, nə çox - düz 50 nömrədir.

Emma dünya üzrə ancaq Almaniyadakı xüsusi bir mağazada özünə ayaqqabı tapa bilir. Qızın ancaq bir cüt topuqlu ayaqqabısı var. Maraqlıdır ki, kişilər də onunla ünsiyyətdən çəkinir və onu özlərinə bənzədirlər.

"Uzun boylu olmağı sevirəm, amma bu sevgi həyatımda mənə heç də yardımçı olmur. Cəmi bir dəfə məndən uzun birisi ilə tanış oldum, amma onunla boyumuzdan başqa ortaq cəhətimiz yox idi" - deyə Emma bildirib.

Emma 9 yaşında olanda anası ilə eyni ölçüdə ayaqqabı geyinirmiş. Gənc qızın ayaqları yeniyetməlik illərində hər il bir ölçü artıb: "Ayaqlarımın böyüməsi dayananda xeyli sevinmişdim. Qorxurdum ki, böyüməyə davam edəcəklər və qayıq kimi olacaqlar".

## Qədəhləri niyə toqquşdurduğumuzu bilirsiz?

İnsanların içki məclislərində və ya hər hansı yemək zamanı qədəhlərini bir-birinə toqquşdurmaları adi hal alıb. Bunun niyə edildiyini çox adam bilmir. Bəzi hallarda bunun sırf şərafət əlaməti olduğunu düşünənlər olur. Əslində isə reallıq fərqlidir. Qədim zamanlarda bir insanın düşmənini yeməyə dəvət edib ona zəhərli içki təqdim etməsi təbii hal sayılırdı. Ev sahibi içkinin zəhərsiz olduğunu sübut etmək üçün öz içkisini havaya qaldırar və qonağın içkisindən bir qurtumun öz qədəhinə tökülməsini istəyərdi. Sonra eyni anda içkilərini içərdilər. Qonaq belə vəziyyətdə ev sahibinə etibarını göstərmək üçün qədəhini ev sahibinin yuxarı qaldırdığı qədəhə yüngülcə vurar "çin" səsi ilə içkinin sınağına gərək olmadığını eyham etmiş olardı.





## İnsan qocaldıqca beyni gözəlləşir

ABŞ-ın Maunt Sinay Tibb Məktəbinin əməkdaşları müəyyən ediblər ki, insan beyninin bəzi xüsusiyyətləri yaş ötdükcə daha da təkmilləşir. İndiyə qədər belə hesab olunurdu ki, əqli qabiliyyətlər insan 20 yaşında olarkən öz zirvə nöqtəsinə çatır. Tədqiqatın nəticələri isə göstərdi ki, yaşlı insanlarda belə uzunmüddətli yaddaş nəinki zəifləmir, hətta danışıq qabiliyyəti, emosional intellekt və sosial vərdişlər daha üstün səviyyədə olur. Bunu "Daily Telegraph"a istinadən "İzvestiya Nauki" xəbər verir. Qısamüddətli yaddaş, qazanılmış bacarıqlar və düşünmə qabiliyyətinə gəlincə isə, onlar zaman ötdükcə həqiqətən də zəifləyir.

Mütəxəssislərin kəşfi qocalma effektinin rezus-makaka meymunları üzərində öyrənilməsi nəticəsində edilib. Müəyyən olunub ki, yaşlı meymunlarda beyin yeni biliklərin mənimsənilməsinə görə cavabdeh olan qəbuledici neyronların (sinir hüceyrələri) təqribən yarısını itirir. Bununla belə uzunmüddətli yaddaşa cavabdeh neyronlar toxunulmaz qalır.




**QOÇ** - Daha çox fəaliyyətlə məşğul olmağınız məsləhət görülür. İndi sizin ən məhsuldar dövrünüz olduğu üçün boş dayanmağa lüzum yoxdur. Doğmalarınızla münasibətlərə obyektiv yanaşın.

**BUĞA** - O qədər də səmərəli vaxt deyil. Yaxşı olar ki, riskli işlərinizi, xüsusən də işgüzar görüşlərinizi təxirə salasınız. İş günü olsa da, vaxtınızı daha çox istirahətə həsr edin.

**ƏKİZLƏR** - Bürcünüz üçün ən uğurlu vaxt günün birinci yarısıdır. Göstərdiyimiz ərəfədə ağıllı şəkildə risk etmək sizə uğur gətirə bilər. Gün ərzində şəxsi büdcənizi artırmaq imkanınız da olacaq.

**XƏRÇƏNG** - Bütün sağlam sahələrdə mövqelərinizi qorumaq və möhkəmləndirmək başlıca vəzifəniz olmalıdı. Amma bütün vacib işlərinizi saat 18-ə qədər yekunlaşdırın ki, sonrakı ərəfənin düşərliliyini hiss edəsiniz.

**ŞİR** - Bəri başdan nəzərinizə çatdıraq ki, bu təqvimdə əsəblərinizi maksimum qorumalısınız. Ünsiyyətdə olduğunuz hər kəslə mehriban davranın. Yalnız gündəlik işlərinizlə məşğul olun.

**QIZ** - Əgər səhhətinizdə problem yoxdursa, qorxmağa dəyməz. Ən azı ona görə ki, gün ərzində rastlaşdığınız olaylar fərəh hissinizi artıracaq. Axşam öz evinizdə gecələməyiniz tövsiyə olunur.

**TƏRƏZİ** - Yaxşı olar ki, bu gün özünüzü çox yormayasınız. Ən azı ona görə ki, əyləncə və gəzintilər üçün ayda-ildə bir dəfə əlinizə fürsət düşəcək. Buna baxmayaraq, uzaq yola çıxmaq məsləhət deyil.

**ƏQRƏB** - Adi bir təqvim yaşayacaqsınız. Hansısa qeyri-adilik gözləməyə dəyməz. Yalnız nahar ərəfəsində xırda mübahisələriniz mümkündür. Böyüklərin məsləhətini qulaqardına vurmayın.

**OXATAN** - Planetlərin bürcünüzdəki neqativ düzülüşü ümumi ovqatınızda gərginlik yaratsa da, bu, yalnız saat 15-ə qədər davam edəcək. Sonrakı müddətdə isə maraqlı hadisələrin şahidi olacaqsınız.

**OĞLAQ** - Yeni əlaqə və tanışlıq üçün səmərəli vaxtdır. Atacağınız addımları dönə-dönə ölçüb-biçin. Yorulmaqdan qorxmayın. Çünki zəhmətinizin bəhrəsini yaxın vaxtlarda görəcəksiniz.

**SUTÖKƏN** - Əsas vaxtınızı fəaliyyət amilinə həsr edin. Çünki ulduzlar bu təqvimdə daha çox məlum sahədə sizə enerji bəxş edəcək. Saat 18-21 aralığında isə qonaq getmək sizə rahatlıq gətirəcək.

**BALIQLAR** - Yeni işlərə başlamaq, perspektivli sövdələşmələr aparmaq üçün ideal ərəfədir. Çalışın ki, bu fürsətdən maksimum yararlanasınız. Aldığınız hər bir dəvətə razılıq verin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## 7 yaşına qədər danışmırdı, dilini pişik açdı



İngiltərənin Mançester şəhərində nadir danışmamaq xəstəliyinə tutulan və heç kimlə danışmayan 7 yaşındakı Lorcan Dillon pişiyinin sayəsində xəstəliyinə qalib gəlib və 7 ildən sonra nəhayət ki, danışmağa başlayıb. Türkiyə mətbuatının yazdığına görə, danışıq qabiliyyəti olmasına baxmayaraq bu uşaq heç bir fikrini ifadə edə bilmirdi.

2 yaşına çatanda ailəsi də daxil olmaqla heç kimlə danışmayan bu uşaq son iki ilini yanından ayırmadığı pişiyi, yeganə dostu Cessi ilə keçirib. Və elə ilk cümləsini də pişiyinə söyləyib. "Səni sevirəm" dediyi pişiyindən sonra uşaq anasına və atasına da müəyyən sözlər deyib. Valideynləri bu hadisəyə görə çox sevinib və həyatları boyunca Cessiyə minnətdar olacaqlarını deyiblər.

Səhifəni hazırladı: SELCAN


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100